RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 273 (9728) 11 dekabr 2024-cü il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Azərbaycan naminə



## Heydər Əliyev siyasi kursu dövlətçiliyin əsas istinadgahıdır

Müstəqil və müasir Azərbaycanın tarixində baş verən bütün mühüm hadisələr məhz Heydər Əliyevin adı ilə bağlıdır. Dövlət bayrağımızın təsdiqi, demokratik idarəetmə sisteminin qurulması, ilk parlament seçkilərinin keçirilməsi, müstəqil dövlətimizin ilk Konstitusiyasının qəbulu, çoxpartiyalı siyasi sistemin formalaşması, iqtisadi yüksəlişimizin təməlini təşkil edən "Əsrin müqaviləsi"nin imzalanması, Azərbaycanın dünya birliyinə sürətli inteqrasiyası və beynəlxalq diplomatik əlaqələrin genişlənməsi onun uzaqgörən siyasətinin nəticəsidir. BMT və Avropa Birliyi kimi beynəlxalq təşkilatlarla əməkdaşlıq mühitinin formalaşdırılması və güclü, müasir Azərbaycanın yaradılması Heydər Əliyevin qətiyyətinin və vətənə olan sonsuz sevgisinin məhsuludur.

Ümumilli Lider Azərbaycanın milli ideologiyasının formalaşdırılmasında, dövlət quruculuğu proseslərinin istiqamətləndirilməsində və ölkənin beynəlxalq aləmdə nüfuz qazanmasında mühüm rol oynamışdır. Azərbaycan parlamentinin də müasir strukturunun və fəaliyyət prinsiplərinin formalaşmasında Heydər Əliyevin rəhbərliyi əvəzsizdir.

Heydər Əliyev Azərbaycanın qanunvericilik orqanının müasir və effektiv fəaliyyət göstərməsi üçün institusional islahatlar həyata keçirdi. 1995-ci ildə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyası parlamentin hüquq və səlahiyyətlərini genişləndirdi. Heydər Əliyevin təşəbbüsü ilə parlamentin rolu yalnız qanunvericiliklə məhdudlaşmadı, həmçinin dövlət siyasətinin həyata keçirilməsində fəal iştirak edən orqan kimi inkişaf etdirildi.

Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan 1995-ci il Konstitusiyası Azərbaycan Respublikasında demokratik dövlət quruculuğu prosesinin əsasını qoydu. Konstitusiyada qanunverici hakimiyyətin fəaliyyəti, parlamentin tərkibi, seçki qaydaları və hüquqları ətraflı təsbit olunmuşdur.

Ümumilli Lider Heydər Əliyev həm ölkə daxilində, həm də beynəlxalq arenada Azərbaycan parlamentinin nüfuzunu yüksəltmiş, onun demokratik təsisat kimi möhkəmlənməsinə zəmin yaratmışdır. Onun rəhbərliyi ilə aparılan islahatlar Azərbaycanın müstəqilliyini və suverenliyini qorumaqda mühüm rol oynamışdır. Azərbaycan parlamenti Heydər Əliyevin qoyduğu əsaslara uyğun olaraq ölkənin qanunvericilik sistemini və dövlət idarəetmə mexanizmini inkişaf etdirir.

Heydər Əliyev sadəcə siyasi lider deyil, həm də xalqının yaxın dostu, dəstəkçisi idi. O, insanlarla birbaşa ünsiyyətdə olmaqdan çəkinməz, onların problemlərini dinləyər və həll yolları axtarardı. Onun "Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır" prinsipi Azərbaycan siyasətinin əsas sütunlarından birinə çevrilib.

Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyəti müasir Azərbaycanın tarixində qızıl hərflərlə yazılıb. Onun irsi bu gün də Azərbaycan xalqı üçün yol göstəricidir. Heydər Əliyevin müdrik siyasəti və xalqına olan sevgisi Azərbaycan dövlətçiliyinin möhkəm təməllərini yaratdı.

Ümummilli Lider Heydər Əliyevin xatirəsi hər bir azərbaycanlının qəlbində əbədi yaşayır. Onun Vətən qarşısındakı misilsiz xidmətləri, dövlətçilik prinsipləri və uzaqgörən siyasəti bizə milli birliyimizi qorumağı və daha güclü gələcək qurmağı öyrətdi. 12 dekabr günü təkcə dahi liderimizi anmaq deyil, həm də onun ideyalarını yaşatmaq və gələcək nəsillərə ötürmək üçün bir çağırışdır.

Bu gün torpaqlarını düşmən işğalından azad edərək ərazi bütövlüyünü bərpa etmiş, müstəqilliyini, suverenliyini daha da möhkəmləndirmiş Azərbaycan Heydər Əliyev siyasətinin ən mahir davamçısı olan cənab Prezident İlham Əliyevin rəhbərliyi altında yüksəliş yolunda inamla irəliləyir. Müstəqil Azərbaycan var olduqca, onun qurucusu Ulu Öndər Heydər Əliyevin əziz xatirəsi də əbədi yaşayacaqdır.

→ 6

# İlham Əliyev Rəcəb Tayyib Ərdoğana zəng edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 10-da Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edib.**



Söhbət zamanı dövlət başçıları Azərbaycan ilə Türkiyə arasında qardaşlıq və dostluq münasibətlərinin strateji müttəfiqlik zəminində inkişaf etdiyini bir daha vurğulayıblar.

Dövlətimizin başçısı Prezident Rəcəb Tayyib Ərdoğanın və Əminə xanım Ərdoğanın Azərbaycanda keçirilmiş COP29 konfransının liderlər sammitində fəal iştirakını məmnuniyyətlə qeyd edərək, geniştərkibli Türkiyə nümayəndə heyətinin konfransın işinə əsaslı töhfələr verdiyini vurğulayıb.

Prezident Rəcəb Tayyib Ərdoğan öz növbəsində COP29-un uğurla keçirilməsi və danışıqlar prosesində əldə olunmuş nəticələr münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırıb.

Telefon danışığı əsnasında Cənubi Qafqaz və Yaxın Şərq regionuna aid məsələlərə toxunulub, xüsusilə Suriyada Əsəd rejiminin çökməsindən sonra yaranmış vəziyyət müzakirə olunub.

Dövlət başçıları bu münasibətlə Suriya xalqına təbriklərini, Suriya dövlətinin ərazi bütövlüyünə və suverenliyinə dəstəklərini ifadə ediblər.

Prezident İlham Əliyev bundan sonra Türkiyənin yaxın dəstəyi ilə Suriyada sabitlik dövrünün başlayacağına ümidvar olduğunu bildirərək, Azərbaycanın qardaş Türkiyə ilə birlikdə Suriya xalqının üzləşdiyi humanitar problemlərin aradan qaldırılmasına dəstək verməyə hazır olduğunu qeyd edib.

Prezident Rəcəb Tayyib Ərdoğan bütün sahələrdə olduğu kimi, Suriya xalqına humanitar yardım və dəstək məsələsində də Azərbaycan və Türkiyənin birgə fəaliyyət göstərəcəyini məmnuniyyətlə qeyd edib.

Söhbət əsnasında Azərbaycan və Türkiyə arasında qardaşlıq və strateji müttəfiqlik münasibətlərinin inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

***Prezidentin Mətbuat xidməti***

# İşğaldan azad olunmuş ərazilərin bərpasında dost ölkələrin dəstəyi çox mühüm əhəmiyyət daşıyır

## Azərbaycan Prezidenti İlham Əliyev Rusiyanın Həştərxan vilayətinin qubernatorunu qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 10-da Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru İqor Babuşkini qəbul edib.**

→ 2

# Parlament Prezident İlham Əliyevin inkişaf strategiyasına qanunvericilik fəaliyyəti ilə töhfə verir

**Dekabrın 10-da spiker Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin payız sessiyasında növbəti plenar iclası keçirilib.**

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan spiker bildirib ki, dekabrın 7-də Milli Məclisdə Azərbaycan parlamentinin 106-cı ildönümünə həsr edilən Beynəlxalq parlament konfransı keçirildi. Tədbirdə Milli Məclisin deputatları, Türkiyə, Rusiya, Pakistan, Özbəkistan, Gürcüstan, Qazaxıstan, Tacikistan, Qırğızıstan, Belarus, İraq, Efiopiya, İndoneziya, Malayziya parlamentlərinin və TürkPA, MDB-nin Parlamentlərarası Assambleyası kimi beynəlxalq təşkilatların 100-ə yaxın nümayəndəsi iştirak edirdi.

Konfransda "Parlamentarizm: ənənələr və perspektivlər" mövzusu ətrafında müzakirələr aparıldı, 27 nəfər çıxış etdi.

Spiker qeyd edib ki, Milli Məclis Sədrinin və üzvlərinin çıxışlarında müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin və onun parlamentinin irsinin müasir dövrün çağırışları şəraitində əhəmiyyəti vurğulandı.



Azərbaycanın hələ əsrin əvvəllərində demokratik prinsiplərə və mütərəqqi dövlət quruculuğuna sadiq olduğu, xalqımızın zəngin parlamentarizm ənənələrinin son 30 ildən artıq dövrdə daha da inkişaf etdirildiyi bildirildi. Sahibə Qafarova bildirib ki, konfransda Ümummilli Lider Heydər Əliyevin 1993-cü ilin iyununda ali hakimiyyətə qayıdışının ölkəmizdə sabitliyin qorunub saxlanılması və möhkəmləndirilməsi, eyni zamanda yeni parlament institutunun formalaşdırılması baxımından həyati əhəmiyyət daşıdığı nəzərə çatdırıldı. Qeyd olundu ki, bu gün Milli Məclis Prezident İlham Əliyevin ölkəmizə böyük uğurlar və qələbələr qazandıran milli inkişaf strategiyasının həyata keçirilməsi prosesinə öz qanunvericilik fəaliyyəti ilə töhfə verir.

Eyni zamanda ölkəmizə qarşı böhtan və dezinformasiya kampaniyaları aparıldığı, təxribatlar törədildiyi, lakin onların nəticəsiz qaldığı da vurğulandı.

Milli Məclisin Sədri bildirib ki, bundan əlavə, tədbir çərçivəsində ADA Universitetində "İctimai diplomatiyada parlamentlərin rolu: Azərbaycan və Türkiyə nümunəsi" mövzusunda Beynəlxalq "dəyirmi masa" keçirildi. "Parlamentlərin ictimai diplomatiyada rolu" və "Parlamentlərin fəaliyyətində rəqəmsal texnologiyalar və kütləvi informasiya vasitələrinin rolu" mövzuları ətrafında fikir mübadiləsi də aparıldı.

→ 3

# Revanşist keşiş yenidən "dirçəlir"

## Baqrat Qalstanyan Ermənistanda mümkün hakimiyyət dəyişikliyindən danışıb

Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanmasının aktual olduğu bir dönəmdə növbəti dəfə hərbi xuntanın və ona bənzər digər araqızışdıranların çevriliş etmək xəyalları erməni xalqını növbəti dəfə fəlakətə sürükləyir. Qeyd edək ki, Azərbaycanla müharibədəki məğlubiyyət Ermənistanı elə bir uçuruma yuvarladıb ki, onun xilası mümkün deyil. Bütün bunlar, o cümlədən Koçaryan və Sarkisyan kimi müharibə cinayətkarlarının hakimiyyətləri dövründən yığılıb qalmış ağır problemlər hazırkı hakimiyyəti çətin vəziyyətdə qoyub. Əslində, revanşist qüvvələr çox yaxşı başa düşürlər ki, böyük siyasətə qayıtmaq üçün heç bir şansları yoxdur - xalq hələ onların hakimiyyət dövrünü unutmayıb.

→ 11

# İşğaldan azad olunmuş ərazilərin bərpasında dost ölkələrin dəstəyi çox mühüm əhəmiyyət daşıyır

## Azərbaycan Prezidenti İlham Əliyev Rusiyanın Həştərxan vilayətinin qubernatorunu qəbul edib

*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatorunun başçılıq etdiyi nümayəndə heyətinin Qubadlı rayonuna səfərinin əhəmiyyətinə toxundu, orada Həştərxan vilayəti tərəfindən hədiyyə olaraq uşaq bağçasının inşasının önəmini vurğuladı, buna görə bir daha minnətdarlığını bildirdi. Prezident İlham Əliyev bunu Azərbaycanla Rusiya arasında dostluq əlaqələrinin, o cümlədən ölkəmizlə Rusiya Federasiyasının Həştərxan vilayəti arasında uğurlu əməkdaşlığın yaxşı göstəricisi kimi dəyərləndirdi.

Prezident İlham Əliyev işğaldan azad olunmuş torpaqlarımıza səfəri zamanı İqor Babuşkinin başçılıq etdiyi nümayəndə heyətinin həmin ərazilərdə törədilən dağıntıları, eyni zamanda keçmiş məcburi köçkünlərin oraya tezliklə köçürülməsinin təmin edilməsi üçün Azərbaycanın həyata keçirdiyi bərpa-quruculuq işlərini öz gözləri ilə görməsinin əhəmiyyətinə toxundu. Azərbaycan Prezidenti bir daha qeyd etdi ki, Həştərxan nümayəndə heyətinin orada gördüyü dağıntılar bütün Qarabağ və Şərqi Zəngəzurda - böyük bir ərazidə də var.

Dövlətimizin başçısı vurğuladı ki, Azərbaycanın işğaldan azad olunmuş torpaqlarında yenidənqurma və bərpa işlərinə, o cümlədən sosial infrastrukturun yaradılmasına verilən hər cür dəstək, xüsusilə dost ölkələr tərəfindən göstərilən dəstək çox mühüm əhəmiyyət və böyük rəmzi xarakter daşıyır.

Görüşdə Azərbaycanla Rusiya arasında dostluq əlaqələrinin müxtəlif sahələrdə inkişaf etdiyi, eləcə də ölkəmizin Rusiyanın ayrı-ayrı bölgələri, o cümlədən Həştərxan vilayəti ilə uğurlu əməkdaşlıq həyata keçirdiyi vurğulandı.



Qubernator İqor Babuşkin dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim etdi.



Prezident İlham Əliyev bu il Rusiya Prezidentinin Azərbaycana dövlət səfərinin əlaqələrimizin inkişafında çox əlamətdar bir hadisə olduğunu dedi, bu səfərin həm forma, həm də məzmun cəhətdən çox səmərəli və dolğun olduğunu vurğuladı. Dövlətimizin başçısı Rusiya Federasiyası Hökumətinin sədrinin ölkəmizə səfərinin də əməkdaşlığımızın genişlənməsi işinə töhfə verdiyini qeyd etdi.

Qəbula görə minnətdarlığını bildirən Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru İqor Babuşkin bu gün Qubadlı rayonuna səfərinin həmin əraziləri və orada həyata keçirilən işləri öz gözləri ilə görmələri üçün yaxşı imkan yaratdığını dedi, orada uşaq bağçasının inşasının önəmini qeyd etdi.

İqor Babuşkin Azərbaycanla iqtisadi-ticari əməkdaşlığın genişlənməsi üçün konkret tədbirlərin həyata keçirildiyini bildirdi.

Söhbət zamanı nəqliyyat, tranzit yükdaşımalar, kənd təsərrüfatı, ticarət, turizm və humanitar sahələrdə əməkdaşlığın perspektivləri barədə məsələlər müzakirə olundu.

# Rusiyanın Həştərxan vilayətinin qubernatoru Fəxri xiyabanda Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət edib

Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru İqor Babuşkinin rəhbərlik etdiyi nümayəndə heyəti dekabrın 10-da Fəxri xiyabana gələrək, xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub.



AZƏRTAC xəbər verir ki, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə gül dəstələri düzülüb.

# Rəqəmsal inkişaf və nəqliyyat naziri "Yüksəliş" müsabiqəsinin qalibləri ilə görüşüb

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev dördüncü "Yüksəliş" müsabiqəsinin qalibləri ilə görüş keçirib.



Müsabiqənin işçi qrupundan AZƏRTAC-a bildirilib ki, görüşdə Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri, "Yüksəliş" müsabiqəsinin Təşkilat Komitəsinin sədri Fərəh Əliyeva, gənclər və idman nazirinin müavini, "Yüksəliş" müsabiqəsinin işçi qrupunun rəhbəri Fərhad Hacıyev də iştirak edib.

Nazir çıxışında müsabiqənin qaliblərin peşəkar inkişafı üçün mühüm imkanlar yaratdığını vurğulayıb və onların karyera yüksəlişini dəstəkləyən mentorluq proqramının əsas məqsədlərindən bəhs edib.

Rəşad Nəbiyev gələcəyin liderlərinin inkişafına xüsusi önəm verdiklərini qeyd edərək, "Yüksəliş" müsabiqəsinin Azərbaycanın idarəçilik sistemində səriştəli və vətənpərvər kadrların yetişməsinə töhfə verəcəyinə əminliyini ifadə edib.

Nazir Rəşad Nəbiyev sonda peşəkar kadrların yaradıcı potensialının və innovativ ideyalarının ölkənin gələcək inkişafına müsbət təsir göstərəcəyini bildirib. O, müsabiqə iştirakçılarına bilik və bacarıqlarını davamlı olaraq təkmilləşdirməyi, qarşılarına böyük məqsədlər qoymağı və Azərbaycan dövlətinə layiqli xidmət göstərməyi tövsiyə edib.

Xatırladaq ki, "Yüksəliş" müsabiqəsi Azərbaycan Prezidentinin 2019-cu il 26 iyul tarixli sərəncamına əsasən təsis olunub. Müsabiqənin məqsədi 21-51 yaş aralığında olan, intellektual səviyyəsi yüksək və azı iki il idarəçilik təcrübəsinə malik perspektivli rəhbər şəxslərin müəyyənləşdirilməsini, dəstəklənməsini və ölkədə kadr ehtiyatı bankının yaradılmasını təmin etməkdir.

"Yüksəliş" müsabiqəsinin qalibini bir il ərzində idarəçi rəhbərlərdən - böyük şirkətlərin top-menecerlərindən və dövlət orqanlarının rəhbərlərindən fərdi karyera məsləhətləri almaq imkanı və 20 min manat məbləğində pul mükafatı gözləyir.

# Keniya ilə Azərbaycan arasında əməkdaşlıq dinamik inkişaf etmişdir

## Keniya Respublikasının Prezidenti zati-aliləri cənab Uillyam Samoei Rutoya

Hörmətli cənab Prezident!

Keniya Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Biz Keniya ilə əlaqələrimizin inkişafına böyük əhəmiyyət veririk. Azərbaycan ilə Keniya arasında diplomatik münasibətlərin qurulmasından ötən iyirmiillik dövr ərzində ikitərəfli əlaqələrimiz genişlənmiş, müxtəlif sahələrdə əməkdaşlığımız dinamik inkişaf etmişdir.

İnanıram ki, qarşılıqlı hörmət və etimad üzərində qurulmuş dövlətlərarası münasibətlərimizi daha da möhkəmləndirmək, qarşılıqlı maraq doğuran bir sıra sahələr üzrə əməkdaşlığımızın potensialından tam bəhrələnmək üçün bundan sonra da birgə səylər göstərəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost xalqınıza daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 dekabr 2024-cü il*

# "Şahdəniz" qaz-kondensat yatağının istismarının ikinci mərhələsi və Cənub Qaz Dəhlizinin yaradılmasına dair digər layihələrlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 25 fevral tarixli 287 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Cənub Qaz Dəhlizi" Qapalı Səhmdar Cəmiyyətinin (bundan sonra - Cəmiyyət) maliyyə nəticələrinin Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (bundan sonra - SOCAR) maliyyə hesabatlarında tam konsolidasiyası üçün tələb olunan Cəmiyyətin idarə edilməsində SOCAR-ın üstünlük hüquqlarının təmin edilməsi məqsədilə **qərara alıram:**

1. "Şahdəniz" qaz-kondensat yatağının istismarının ikinci mərhələsi və Cənub Qaz Dəhlizinin yaradılmasına dair digər layihələrlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 25 fevral tarixli 287 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 2, maddə 175 (Cild I) 1.1-ci bəndi aşağıdakı redaksiyada verilsin:

"1.1. səhmlərinin 49 faizi dövlətə, 51 faizi isə SOCAR-a məxsus olan "Cənub Qaz Dəhlizi" Qapalı Səhmdar Cəmiyyəti vasitəsilə (bundan sonra - Cəmiyyət) Layihələrin səmərəli idarə olunmasını təmin etsin;".

2. Cəmiyyətin nizamnamə kapitalında dövlətə məxsus səhmlərin nizamnamə kapitalının 2 faizini təşkil edən hissəsi üzərində mülkiyyət hüququ Azərbaycan Respublikasının Mülki Məcəlləsinə və "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, SOCAR-ın nizamnamə kapitalına ötürülsün.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamdan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 dekabr 2024-cü il*

# Azərbaycanla Qətər arasındakı münasibətlər dostluq və qarşılıqlı hörmət prinsipləri üzərində qurulub

Azərbaycan Respublikasının fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov Qətər Dövlətinin ölkəmizə yeni təyin olunmuş səfiri Məhəmməd Həməd Səad Əl-Fuheyd Əl-Haciri ilə görüşüb.



Fövqəladə Hallar Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüşdə nazir Kəmaləddin Heydərov Prezident İlham Əliyevin rəhbərliyi ilə noyabr ayında ölkəmizin uğurla evsahibliyi etdiyi və tarixi nailiyyətlərlə yadda qalan COP29-da Qətər dövlətinin nümayəndə heyətinin iştirakını qeyd edib.

Azərbaycanla Qətər arasındakı münasibətlərin dostluq və qarşılıqlı hörmət prinsipləri üzərində qurulduğunu vurğulayan K.Heydərov iki ölkə liderlərinin səyləri və siyasi uzaqgörənliyi sayəsində əlaqələrin sürətlə genişləndiyini xatırladıb. Bu çərçivədə 2016-cı ildə dövlət başçılarının qərarı ilə fəaliyyətə başlamış Azərbaycan Respublikası Hökuməti və Qətər Dövləti Hökuməti arasında Birgə İqtisadi, Ticarət və Texniki Komissiyanın uğurlu fəaliyyətinə toxunan nazir birgə komissiyanın həyata keçirdiyi tədbirlər barədə məlumat verib.

Nazir Kəmaləddin Heydərov Azərbaycan Respublikası və Qətər dövlətinin fövqəladə hallarla mübarizə sahəsində uyğun qurumları arasında əməkdaşlığın hazırkı vəziyyətindən məmnunluq ifadə edib.

Səmimi görüşə görə təşəkkürünü bildirən Qətər dövlətinin ölkəmizdəki səfiri Məhəmməd Həməd Səad Əl-Fuheyd Əl-Haciri COP29 kimi qlobal əhəmiyyətli tədbirin Azərbaycan tərəfindən yüksək səviyyədə təşkil olunduğunu və uğurlu nəticələrin əldə edildiyini vurğulayıb.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

# Həştərxan vilayətinin qubernatorunun başçılıq etdiyi nümayəndə heyəti Qubadlıya səfər edib

Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru İqor Babuşkinin başçılıq etdiyi nümayəndə heyəti dekabrın 10-da işğaldan azad olunan Qubadlı rayonuna səfər edib.



AZƏRTAC xəbər verir ki, qonaqları Zəngilan Beynəlxalq Hava Limanında Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev qarşılayıb.

Nümayəndə heyəti hava limanı ilə tanışlıqdan sonra Qubadlı rayonunun Mahruzlu kəndində Həştərxan vilayəti tərəfindən hədiyyə olaraq inşa edilən uşaq bağçasında görülən işlərə baxış keçirib. Məlumat verilib ki, işğaldan azad edilən digər ərazilərdə olduğu kimi, Qubadlı rayonunda da tikinti-quruculuq işləri görülür. Hazırda yenidən qurulan Mahruzlu kəndi rayon mərkəzindən 19 kilometr məsafədə yerləşir. Kəndin layihələndirilən ümumi ərazisi 197 hektar təşkil edir. Birinci mərhələdə 40,27 hektar ərazidə 190 evin tikilməsi və 836 nəfərin məskunlaşması planlaşdırılır.

Vurğulanıb ki, üç korpus və iki mərtəbədən ibarət olacaq 80 yerlik uşaq bağçasının Həştərxan vilayəti tərəfindən hədiyyə olaraq inşa edilməsi sevindirici haldır və qonşu Rusiya dövlətinin Azərbaycanla sıx dostluq münasibətinin bariz nümunəsidir.

Qonaqları səfərdə Abşeron Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyev müşayiət edib.

# Azərbaycan ilə Serbiya arasında energetika sektorunda birgə layihələrin həyata keçirilməsi müzakirə olunub

İqtisadiyyat naziri Mikayıl Cabbarov Serbiyanın Baş nazirinin birinci müavini, maliyyə naziri Sinişa Mali ilə videokonfrans formatında görüş keçirib.



AZƏRTAC İqtisadiyyat Nazirliyinin yaydığı məlumata istinadən xəbər verir ki, görüşdə Azərbaycanın Avropanın, o cümlədən Serbiyanın enerji təhlükəsizliyinə töhfəsi, qarşılıqlı hörmət və etibarlı tərəfdaşlıq prinsiplərinə əsaslanan iki ölkə arasında iqtisadi əlaqələrin inkişaf etdiyi vurğulanıb.

Bildirilib ki, ölkələrimiz arasında çoxşaxəli müqavilə-hüquq bazası yaradılıb. Bu, iqtisadi gündəliyimizin genişlənməsinə və potensialımızın reallaşdırılmasına möhkəm zəmin yaradır. Tərəflər energetika sektorunda birgə layihələrin həyata keçirilməsi, ticarət, investisiya, sənaye, infrastruktur sahələrində əməkdaşlıq potensialından istifadə ilə bağlı məsələləri müzakirə ediblər.

## Milli Məclisin iclasında

# Parlament Prezident İlham Əliyevin inkişaf strategiyasına qanunvericilik fəaliyyəti ilə töhfə verir





*Əvvəli 1-ci səh.*

Konfrans çərçivəsində Türkiyə, Pakistan, Qazaxıstan, Tacikistan parlamentlərinin təmsilçiləri ilə ikitərəfli görüşlər də keçirildi.

Çıxışına yekun vuran Milli Məclisin Sədri deyib ki, konfrans parlamentlərarası dialoqun və qarşılıqlı əlaqənin dərinləşməsi baxımından böyük əhəmiyyət daşıyır. Konfrans iştirakçılarının Zəfər parkına getməsi, Heydər Əliyev Mərkəzi ilə tanış olması, işğaldan azad edilmiş əraziləri - Füzuli, Şuşa, Xankəndi və Xocalını ziyarət etməsi onların Azərbaycan reallıqlarına daha yaxından bələd olmasına şərait yaratdı.

Sonra cari məsələlərlə bağlı aparılan müzakirələrdə parlamentin komitə sədrləri Arzu Nağıyev, Zahid Oruc, deputatlar Pərvanə Vəliyeva, Naqif Həmzəyev, Aydın Mirzəzadə, Bəhruz Məhərrəmov, Jalə Əliyeva, Tural Gəncəliyev, Günay Ağamalı, Ceyhun Məmmədov çıxış edərək bir sıra aktual mövzularla bağlı öz fikirlərini açıqlayıblar.

Deputatlar Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin bu günlərdə qeyd ediləcək anım günü ilə əlaqədar onun əziz xatirəsini böyük ehtiramla yad ediblər. Çıxışlarda Heydər Əliyevin ölkəmizin müstəqilliyinin qorunub saxlanılması, ictimai-siyasi sabitliyin təmin edilməsi, iqtisadi inkişaf, ordu quruculuğu istiqamətində önəmli rolu vurğulanıb. Bildirilib ki, onun həyata keçirdiyi uğurlu siyasət ölkənin modernləşdirilməsinin, iqtisadiyyatın gücləndirilməsinin, dövlətimizin beynəlxalq müstəvidə nüfuzunun artmasının əsasını qoydu. Bu gün Prezident İlham Əliyev Ulu Öndərin irsini uğurla davam etdirir, Azərbaycanın daha da gücləndirilməsi, dünyada nüfuzunun artırılması istiqamətində mühüm addımlar atır.

Millət vəkilləri Milli Məclisdə "Parlamentarizm: ənənələr və perspektivlər" mövzusunda Beynəlxalq Parlament Konfransının müvəffəqiyyətlə keçirilməsi münasibəti ilə spiker Sahibə Qafarovaya təbriklərini çatdırıblar. Bildirilib ki, tədbirdə çox sayda ölkənin nümayəndələrinin iştirakı, konfrans çərçivəsində keçirilmiş ikitərəfli görüşlər, Azərbaycanla əlaqələrin genişləndirilməsi ilə bağlı səslənən fikirlər dövlətimizin dünyada qazandığı nüfuzunun, beynəlxalq aləmdə artan rolunun bariz nümunəsidir.

Müzakirələrdə cari ildə ölkəmizdə keçirilmiş COP29 konfransının qlobal iqlim dəyişiklikləri ilə mübarizəyə, ekoloji sabitliyin təmin olunmasına verdiyi mühüm töhfələrdən söhbət açılıb. Bununla yanaşı, bu tədbirdə beynəlxalq standartlara uyğun olaraq təhlükəsizlik məsələlərinin təmin olunması istiqamətində, o cümlədən kibertəhlükəsizlik, sağlamlığın qorunması, logistika və nəqliyyat sahəsində zəruri tədbirlərin görüldüyü vurğulanıb.

Bir neçə gün əvvəl keçirilmiş "Qayıdış hüququ: Ermənistandan zorla çıxarılmış azərbaycanlılar üçün ədalətin təmin edilməsi" mövzusunda II beynəlxalq konfransla bağlı səslənən fikirlərdə bu məsələnin ictimaiyyət tərəfindən geniş müzakirə edildiyi, onun beynəlxalq hüquq normaları çərçivəsində həllinin vacibliyi qeyd olunub.

Bununla yanaşı, işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı yenidənqurma və bərpa işlərinin uğurla davam etdirildiyi, bu sahədə müxtəlif layihələrin həyata keçirildiyi, keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıtdıqları və bunun ölkəmizdə sosial ədalətin bərpası yönündə atılan önəmli addımlardan olduğu bildirilib.

Deputatlar habelə bəzi destruktiv qüvvələrin ölkəmizdə bütün sahələrdə gedən inkişafı, tərəqqini görməməsinin, qazanılan uğurlara qısqanclıqla yanaşmasının təəssüf doğurduğunu bildiriblər. Prezident İlham Əliyevin rəhbərliyi altında əldə edilən nailiyyətlərin, regionun lider dövlətinə çevrilmiş Azərbaycanın dünyada mövqeyinin güclənməsinin buna layiqli cavab olduğunu vurğulayıblar.

Sonra Milli Məclisin Sədri diqqətə çatdırıb ki, iclasın gündəliyinə 15 məsələ daxil edilib və birinci məsələ Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası üzvlərinin təyin edilməsi haqqında qərar layihəsidir.

Spiker bildirib ki, Komissiyanın Əsasnaməsinə görə, onun 5 üzvü Milli Məclis tərəfindən təyin edilməlidir. O, eyni zamanda oktyabrın 22-də bu əsasnaməyə dəyişiklik edildiyini söyləyib. Sahibə Qafarova qeyd edib ki, həmin dəyişikliyə əsasən, Komissiyanın Milli Məclis tərəfindən müəyyən olunan üzvləri deputatlar, Hesablama Palatasının üzvləri və Milli Məclis Aparatının rəhbərliyi sırasından seçilir. Bu müddəaya uyğun olaraq, Komissiyanın üzvlüyünə Milli Məclis Sədrinin müavini Ziyafət Əsgərov, komitə sədri Arzu Nağıyev, deputat Əminə Ağazadə, Hesablama Palatasının sədri Vüqar Gülməmmədov, parlament Aparatının rəhbəri Fərid Hacıyevin namizədlikləri təklif olunur.

Qərar layihəsi səsə qoyularaq qəbul edilib.

İclasda Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini (üçüncü oxunuş) təqdim edib. O, layihədə hər hansı dəyişikliyin olmadığını deyib.

Qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul olunub.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Bəhruz Məhərrəmov isə "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsi barədə söhbət açıb. O, əvvəlki oxunuşlar zamanı layihənin mahiyyəti ilə bağlı heç bir əlavə təklifin olmadığını deyib və onun olduğu kimi səsə qoyulmasını xahiş edib.

Layihədə qanunun 9-cu maddəsi yeni redaksiyada təqdim edilir və burada məişət zorakılığı ilə bağlı daxil olan müraciətlərə baxılma proseduru daha ətraflı şəkildə təsbit olunur.

İnsan hüquqları komitəsinin sədri Zahid Oruc, Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova sənəd barədə bu komitələrin müsbət rəyini söylədikdən sonra qanun layihəsi üçüncü oxunuşda qəbul olunub.

Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev növbəti məsələnin - "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsinin üçüncü oxunuşda Milli Məclisin müzakirəsinə tövsiyə olunduğunu bildirib və sənədin səsə qoyulmasını xahiş edib.

Layihə Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında" Əsasnamə və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Qanunda müəyyən edilmiş hərbi qulluqçuların təhsili ilə bağlı normaların təkmilləşdirilməsi məqsədilə hazırlanıb. Sənəddə ölkəmizdə xüsusi təyinatlı orta ixtisas təhsili müəssisələrinin fəaliyyət göstərməsini nəzərə alaraq layihənin müxtəlif maddələrinə dəyişiklik edilərək "orta ixtisas təhsili" sözlərinin əlavə olunması təklif edilir.

Qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul olunub.

## Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının üzvlərinin təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Milli Məclisinin qərarı

"Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinə əlavələr edilməsi haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununu rəhbər tutaraq və Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsinin 21-2-ci maddəsini, "Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası haqqında" Əsasnamənin 9-3-cü maddəsini nəzərə alaraq, Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

Aşağıdakı şəxslər Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının üzvləri təyin edilsinlər:

**Əsgərov Ziyafət Abbas oğlu** - Azərbaycan Respublikası Milli Məclisi sədrinin müavini,
**Nağıyev Arzu Nəsib oğlu** - Azərbaycan Respublikası Milli Məclisinin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri,
**Ağazadə Əminə Həmid qızı** - Azərbaycan Respublikası Milli Məclisinin deputatı,
**Gülməmmədov Vüqar Tapdıq oğlu** - Azərbaycan Respublikası Hesablama Palatasının sədri,
**Hacıyev Fərid Famil oğlu** - Azərbaycan Respublikası Milli Məclisi Aparatının rəhbəri.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 10 dekabr 2024-cü il*

Sonra komitə sədri Arzu Nağıyev "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) təqdim edib.

Layihədə kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin əməkdaşlarının bilik və bacarıqlarının daha da təkmilləşdirilməsi məqsədilə ölkəmizin kəşfiyyat və əks-kəşfiyyat subyektlərinin hüquqlarının genişləndirilərək xarici dövlətlərin xüsusi xidmət və hüquq mühafizə orqanları ilə müvafiq proqramlar çərçivəsində kadrların hazırlanması, təkmilləşdirilməsi və ixtisaslarının artırılması sahəsində əməkdaşlığın həyata keçirilməsi ilə bağlı və digər düzəlişlərin edilməsi nəzərdə tutulur.

Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Parlamentin Regional məsələlər komitəsinin sədr müavini Nurlan Həsənov "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında", "Büdcə sistemi haqqında" və "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsindən söhbət açıb. O, birinci və ikinci oxunuş zamanı məsələ barədə geniş məlumat verildiyini, layihənin mətnində heç bir dəyişikliyin olmadığını deyib və onun səsə qoyulmasını xahiş edib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov sənədin onun rəhbərlik etdiyi komitə tərəfindən dəstəkləndiyini bildirdikdən sonra qanun layihəsi üçüncü oxunuşda qəbul olunub.

Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında" Əsasnamədə dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) təqdim edib. O, layihənin Milli Məclisin müzakirəsinə tövsiyə edildiyini deyib və ona səs verilməsini xahiş edib.

Sənəd hərbi xidmətin təkmilləşdirilməsi və hərbi qulluqçuların ehtiyata və ya istefaya buraxılma prosedurlarının daha şəffaf və səmərəli qaydada həyata keçirilməsini nəzərdə tutur.

Qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul olunub.

Spiker Sahibə Qafarova gündəliyin digər iki məsələsinin uyğunlaşdırma xarakteri daşıdığını və "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələbinə əsasən bir oxunuşda baxılıb, qəbul ediləcəyini bildirib.

Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev "Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında" Azərbaycan Respublikasının 2024-cü il 7 may tarixli 1143-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsindən bəhs edib.

O bildirib ki, adıçəkilən qanunun 8.3-cü maddəsinə əsasən süni torpaq sahəsi onun yaradılması başa çatdığı gündən dövlət mülkiyyəti hesab edilir. Bu müddəaya uyğun olaraq Torpaq Məcəlləsinin 46-cı və "Torpaq icarəsi haqqında" qanunun 5-ci maddəsində dəyişiklik təklif olunur və bu torpaqların dövlət torpağı olaraq statusu təsbit edilir.

Qeyd olunub ki, bu torpaq sahələri üzərində hüquqların yaranmasının, həmin torpaqların istifadəyə və icarəyə verilməsinin "Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında" Qanuna uyğun tənzimlənməsi ilə bağlı Torpaq Məcəlləsinə, "Torpaq icarəsi haqqında" və "Torpaq bazarı haqqında" qanunlara müvafiq dəyişikliklər təklif olunur.

Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov "Elm haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsinə dair məlumat verib. O, layihənin "İnvestisiya fəaliyyəti haqqında" Qanuna uyğunlaşdırma məqsədilə hazırlandığını və rəhbərlik etdiyi komitənin rəyinin müsbət olduğunu deyib.

Qanun layihəsi səsə qoyularaq qəbul olunub.

Sonra parlamentin sədri deyib ki, gündəliyin növbəti 4 məsələsi birinci oxunuşda olan qanun layihələridir. Spiker onuncu məsələ olan "Avtomobil yolları haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı məlumat vermək üçün sözü İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanova verib.

Komitə sədri bildirib ki, qanun layihəsi ödənişli avtomobil yollarından istifadə sahəsində qanunvericiliyin təkmilləşdirilməsini və ödənişli avtomagistrallardan istifadə qaydalarını pozan şəxslərin məsuliyyətinin hüquqi əsasının yaradılmasını nəzərdə tutur. Bu məqsədlə qanunun 50-ci maddəsinə ödənişli avtomobil yollarından qanunsuz istifadə ilə bağlı iki hüquq pozuntusu halı daxil edilir. Birincisi, ödəniş məntəqələrindən keçmədən kənar yollardan (yerlərdən) istifadə etməklə, habelə ödənişsiz gediş hüququna malik istifadəçilər üçün müəyyən edilmiş xidməti keçid zolağından belə hüququ olmayan istifadəçilər tərəfindən ödənişli avtomagistrallara daxil olmağa və ya oradan çıxmağa görə, ikincisi, buraxılış məntəqələrinin normal işinə mane olmağa, o cümlədən buraxılış məntəqələrində nəqliyyat vasitələrinin keçidini bağlamağa, gediş üçün maneəni özbaşına götürməyə görə olan hallarda. Həmçinin inzibati məsuliyyətə səbəb olan bu halların tətbiqi zamanı hüquqi müəyyənliyin olması üçün qanuna iki yeni anlayış - "ödəniş məntəqələri" və "buraxılış məntəqələri" anlayışları daxil edilir.

Komitə sədri deyib ki, qanun layihəsinin qəbulu ödənişli yoldan qanunsuz istifadənin qarşısının alınmasına, hərəkət iştirakçılarının ödənişli yoldan istifadə ilə bağlı məsuliyyətinin artmasına xidmət edəcək.

Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Milli Məclisin Sədri Sahibə Qafarova növbəti iki məsələnin ölkə Prezidentinin bir məktubu ilə parlamentə daxil olduğunu və mahiyyətcə bir-birinə yaxın olduğunu bildirib. Spikerin təklifi ilə qanun layihələri barədə məlumatlar təqdim olunandan sonra sənədlərin müzakirəsi birgə keçirilib.

Gündəliyin on birinci məsələsi olan "Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Qanunda dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) ilə bağlı parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Bəhruz Məhərrəmov məlumat verib.

O bildirib ki, Azərbaycan Konstitusiyasına uyğun olaraq, dövlət valideynlərin uşaqların qayğısına qalmaq və onları tərbiyə etmək borcunun yerinə yetirilməsinə və uşaq hüquqlarının həyata keçirilməsinə nəzarət edir. Valideynləri və ya qəyyumları olmayan, valideyn qayğısından məhrum olan uşaqlar isə dövlətin himayəsindədirlər. O bildirib ki, layihədə təklif olunan dəyişikliklər də ilk növbədə bu konstitusion müddəaların daha effektiv realizəsinə yönəlib və özlüyündə 3 vacib istiqaməti ehtiva edir. Birincisi, "yetkinlik yaşına çatmayan" ifadəsi "uşaq" ifadəsi ilə əvəz edilir ki, bu da ilk növbədə əsasnamənin milli və beynəlxalq qanunvericiliyə uyğunlaşdırılması zərurətindən irəli gəlir. Eyni zamanda bu istiqamətdə fəaliyyət dairəsinin sərhədlərini konkretləşdirir. İkincisi, təklif edilən dəyişikliklərlə uşaq hüquqlarının müdafiəsi üzrə komissiyaların təşkili və fəaliyyətinə dair müddəalar daha da təkmilləşdirilir ki, bu da cari tənzimləmənin effektivliyini daha da artıracaq. Bəhruz Məhərrəmov vurğulayıb ki, dəyişikliklə müvafiq icra hakimiyyəti orqanı yanındakı komissiyanın cari işlərinin görülməsi və qərarlarının icrasına nəzarətin həyata keçirilməsi məqsədilə müvafiq katibliyin konkret vəzifələri müəyyənləşir, habelə mövcud münasibətlər sisteminin dinamikasına müvafiq olaraq yerli komissiyaların fəaliyyət istiqamətlərinə dair yeni tələblər formalaşdırılır. Bundan başqa, hüquq pozuntusu törətmiş uşaqlar barəsində tətbiq edilən intizam təsir tədbirləri və fərdi profilaktik işin daha təkmil formada qurulması üçün yaradılan mexanizmlərin sayı artırılır. Üçüncüsü, hazırkı dəyişikliklər dövlət qayğısına ehtiyacı olan əhalinin həssas qrupuna aid şəxslərlə bağlı ortaya çıxan münasibətləri daha effektli tənzimləməyə imkan verir və bu sahədə hesabatlılığın və məlumatlılığın artmasını təmin edəcək. Məruzəçi həmçinin layihəyə dəqiqləşdirmə və uyğunlaşdırma məqsədilə digər dəyişikliklərin də təklif edildiyini diqqətə çatdırıb.

Sonra Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova məsələ ilə bağlı komitənin rəyini səsləndirib, dəyişikliklərlə bağlı fikirlərini bölüşüb. O, təklif olunan dəyişikliklərin uşaqların hüquqlarının müdafiəsi və onların maraq və mənafelərinin qorunması baxımından əhəmiyyətini vurğulayıb. Qeyd edib ki, sənəd uşaq hüquqlarının müdafiəsi ilə bağlı əlaqələndirmə mexanizminin gücləndirilməsini təmin edəcək.

Komitə sədri Hicran Hüseynova on ikinci məsələ - Ailə Məcəlləsində, Cinayət Məcəlləsində, Cinayət-Prosessual Məcəlləsində, "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında", "İnsan alverinə qarşı mübarizə haqqında" və "Məişət zorakılığının qarşısının alınması haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı məlumatı təqdim edərkən diqqətə çatdırıb ki, bu sənəd də uşaq hüquqlarının müdafiəsi üzrə komissiyaların fəaliyyətinin təkmilləşdirilməsi, bu sahədə tənzimləmələrin effektivliyinin artırılması məqsədilə hazırlanıb. Qeyd olunub ki, layihəyə əsasən, uşaqlar üzərində qəyyumluq və himayəçilik orqanının funksiyalarını uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar həyata keçirəcək. Bundan başqa, uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar öz səlahiyyətləri daxilində müəssisə və təşkilatlarda uşaqlar arasında tərbiyə işinin təşkilinin monitorinqini də həyata keçirəcək.

İnsan hüquqları komitəsinin sədri Zahid Oruc təqdim olunan hər iki məsələ barədə komitənin müsbət rəyini təqdim edib və uşaqların hüquqlarının müdafiəsi ilə bağlı fikirlərini bölüşüb.

Qanun layihələrinin müzakirəsində Milli Məclis Sədrinin birinci müavini Əli Əhmədov, deputat Hikmət Məmmədov çıxış ediblər, dəyişikliklərlə bağlı qeydlərini bildiriblər.

Komitə sədrləri Zahid Oruc, Hicran Hüseynova və Əli Hüseynli müzakirədə qaldırılan məsələlərə aydınlıq gətirəndən sonra qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Sonra Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini (birinci oxunuş) təqdim edib.

O bildirib ki, qanun layihəsi Milli Məclisin müzakirəsinə təqdim edilən bir sıra qanun layihələrinin və müxtəlif vaxtlarda qəbul edilmiş qanunların icrası məqsədilə hazırlanıb. Sənəddə həmin qanunların pozulması ilə bağlı məsuliyyətin yaradılması normaları nəzərdə tutulur. Qeyd olunub ki, "Qida təhlükəsizliyi haqqında", "Kosmik fəaliyyət haqqında", "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında", "Turizm haqqında", "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında", "Elektroenergetika haqqında", "Dərman vasitələri haqqında" və digər qanunların icrası və bu qanunlara qəbul edilmiş dəyişikliklər Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik və əlavələrin edilməsini zəruri edir. Bunu nəzərə alaraq, layihədə qadağanedici normalar dispozisiya formasında Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində öz əksini tapıb və cinayət əməlinə və inzibati xətaya görə müvafiq olaraq sanksiyalar təklif olunur.

Müzakirələr zamanı deputat Qüdrət Həsənquliyev fikirlərini açıqlayıb. Vitse-spiker Ziyafət Əsgərov məsələyə münasibət bildirib. Komitə sədrləri Əli Hüseynli və Əhliman Əmiraslanov qaldırılan məsələlərə aydınlıq gətiriblər.

Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Milli Məclisin Sədri Sahibə Qafarova gündəliyin son 2 məsələsinin ikinci oxunuşda qanun layihələri olduğunu diqqətə çatdırıb.

Parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) təqdim edib. O, layihədə həm istehsalçıların, həm də istehlakçıların maraqlarının nəzərə alındığını söyləyib. Bildirilib ki, layihə mahiyyətcə alkoqollu içkilərin keyfiyyəti və təhlükəsizliyi, dövlət qarşısında vergi öhdəliklərinin yerinə yetirilməsi, sosial fondlara icbari ayırmaların köçürülməsi, işçilərlə əmək müqavilələrinin rəsmiləşdirilməsi, keyfiyyətli məhsul istehsalına imkan verən xərclər üçün minimum tələblər müəyyən edir.

Sənəddə qanuna alkoqollu içkilərin pərakəndə satışının minimum qiymətinin müəyyən olunması ilə bağlı 29-1-ci maddənin əlavə edilməsi təklif olunur. Həmin maddəyə əsasən, alkoqollu içkilərin pərakəndə satışının minimum qiyməti müəyyən ediləcək, minimum qiymətin müəyyən edilməsi qaydası təsdiq olunacaq, pərakəndə satışının minimum qiyməti müəyyən edilmiş alkoqollu içkilərin həmin qiymətdən aşağı qiymətə satılması qadağan ediləcək.

Qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihəsinə dair məlumat verib. Bildirilib ki, layihə enerji effektivliyi fondunun vəsaitlərinin formalaşdırılması və ondan istifadə istiqamətlərinin təkmilləşdirilməsi məqsədilə hazırlanıb.

Qanun layihəsinə əsasən, qiymətlərinə dövlət tənzimlənməsi tətbiq olunmayan, lakin istehsal və istehlak həcminə görə əhəmiyyətli paya malik olan və eləcə də istehsal və istifadəsi nəticəsində ətraf mühitə mənfi təsir göstərən enerji növlərinin satışından əldə olunan vəsaitdən enerji effektivliyi fonduna köçürmələrin edilməsi üçün hüquqi əsas yaradılır. Bununla yanaşı, fondun vəsaitinin yalnız enerji effektivliyi üzrə tədbirlərin təşviqinə yönəldilməsi, bununla da fondun vəsaitlərindən istifadənin səmərəliliyinin artırılması təmin ediləcəkdir.

Komitə sədri habelə sənədin birinci oxunuşu zamanı deputatların qaldırdığı məsələlərə də münasibət bildirib.

Sonra qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva əlilliyi olan şəxslər üçün sosial xidmət müəssisələrini ziyarət edib





**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva dekabrın 10-da Bakının Mərdəkan qəsəbəsində yerləşən 1 saylı 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər üçün sosial xidmət müəssisəsini ziyarət edib.**

AZƏRTAC xəbər verir ki, Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev sosial xidmət müəssisəsinin fəaliyyəti barədə Leyla Əliyevaya məlumat verib. Müəssisədə 150-dək uşağın dövlət himayəsində yaşamaqla, reabilitasiya xidmətləri ilə təmin edildiyi qeyd olunub.

Leyla Əliyeva müəssisədə uşaqların bacarıqlarının artırılması üçün yaradılmış emalatxana, əmək terapiyası, məşğələ, aktiv terapiya, musiqi, idman otaqları ilə tanış olub. Uşaqlar geyim dəfiləsi nümayiş etdirib, rəqslər ifa edib, qonaqlarla birgə kətan üzərində rəsm çəkiblər.

Heydər Əliyev Fondunun vitse-prezidenti paytaxtın Ramana qəsəbəsindəki Əlilliyi olan şəxslərin Peşə-əmək Reabilitasiyası Mərkəzində də olub. Burada Leyla Əliyevaya peşə reabilitasiyasının təşkili işləri barədə məlumat verilib.

Bu il müəssisədə əlilliyi olan 15-29 yaşlı 500 şəxsə xidmət göstərildiyi, hazırda 143 benefisiarın peşə təlimində olduğu qeyd edilib. Mərkəzə qəbul edilənlərin dövlət hesabına yataqxana, yemək və reabilitasiya xidmətləri ilə də təmin olunduğu bildirilib.

Leyla Əliyeva Mərkəzdə peşə təlimi prosesi ilə tanış olub, əlilliyi olan gənclərin stolüstü oyunlarını izləyib, boccia üzrə milli komandanın üzvləri ilə görüşüb.

Benefisiarlar Azərbaycanın Dövlət Himnini jest dilində ifa ediblər. Sonra onların əl işlərindən ibarət geyimlərin moda nümayişi olub.

Təlim kursunda olan gənclər "İnnabı" rəqsini ifa ediblər və Leyla Əliyeva onlarla birgə rəqs edib. Əlilliyi olan şəxslər, həmçinin mahnılar, Leyla Əliyevanın şeirlərini səsləndiriblər.

Heydər Əliyev Fondunun vitse-prezidenti tərəfindən hər iki sosial xidmət müəssisəsinə hədiyyələr təqdim edilib.












# Xankəndidə ekoloji məsələlər üzrə işçi qrupun iclası keçirilib



**Xankəndi şəhərində Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həll edilməsi üçün yaradılmış Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin Ekoloji məsələlər üzrə İşçi qrupunun növbəti iclası keçirilib.**

İclasda işçi qrupda təmsil olunan müvafiq dövlət qurumlarının nümayəndələri, azad olunmuş ərazilərdə Prezidentin xüsusi nümayəndəliklərinin, eləcə də Bərpa, Tikinti və İdarəetmə xidmətlərinin əməkdaşları iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, iclasda işçi qrupun üzvləri və dəvət olunan digər qurumların nümayəndələri tərəfindən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında infrastruktur layihələri həyata keçirilərkən ekoloji tələblərin icra vəziyyəti, xüsusi mühafizə olunan təbiət ərazilərinin fəaliyyətinin bərpası, yer təkindən istifadə sahəsində görülən işlər, meşəbərpa və yeni yaşıllıq sahələrinin salınması istiqamətində "Azərbaycan-Türkiyə Beynəlxalq Meşəçilik Təlim Mərkəzi"nin və "Ağıllı Tingçilik Təsərrüfatı"nın yaradılması ilə bağlı görülən işlər diqqətə çatdırılıb. Həmçinin "İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası çərçivəsində həyata keçirilən tədbirlər, Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında hidrometeoroloji müşahidə şəbəkəsinin bərpası istiqamətində görülən işlər, bu ərazilərdə ekoloji pozuntuların qarşısının alınması, təhlükəsiz bərk tullantıların idarə olunması ilə bağlı yerinə yetirilmiş tədbirlər haqqında iclas iştirakçılarına məlumat verilib.

İclasda infrastruktur layihələri həyata keçirilərkən ekoloji icazələrlə bağlı qaldırılan məsələlər və müvafiq qurumlar arasında kommunikasiyanın gücləndirilməsi, fəaliyyətin əlaqələndirilməsi məqsədilə Əlaqələndirmə Qərargahı tərəfindən verilmiş tapşırıqların icrası ilə bağlı məsələlər müzakirə edilib.

Sonra iştirakçılar Xankəndi şəhərində yenidən qurulmuş avtomat meteoroloji stansiyanın işi ilə tanış olublar.

# Energetika Nazirliyində vətəndaşlarla görüş

Energetika naziri Pərviz Şahbazov dekabrın 9-da nazirlikdə vətəndaşlarla görüşüb.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, müvafiq struktur bölmə rəhbərlərinin iştirakı ilə təşkil edilmiş görüşdə Bakı, Sumqayıt şəhərləri, Xızı və Saatlı rayonlarından olan vətəndaşların elektrik qurğu və avadanlıqlarının mühafizə zonası, enerji verilişində yaranan fasilələr, elektrik qurğu və avadanlıqlarının istismar vəziyyəti, təbii qaz təchizatı, bərpaolunan enerji ilə bağlı müraciətləri dinlənilib, qaldırılan məsələlərin qanunvericiliyin tələblərinə uyğun həlli üçün müvafiq tapşırıqlar verilib.

Qeyd edək ki, Energetika Nazirliyi tərəfindən vətəndaş müraciətlərinə baxılması işinin səmərəli təşkili məqsədilə rəhbər vəzifəli şəxslərin vətəndaşlarla görüş qrafiki nazirliyin saytında yerləşdirilib.

# Komando bölmələrinin döyüş hazırlığı yüksək səviyyədə saxlanılır

**Cari ilin hazırlıq planına əsasən, komando bölmələri ilə taktiki-xüsusi təlim keçirilib.**



Azərbaycan Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, təlimin ssenarisinə uyğun olaraq, şərti düşmən mövqelərinə qəfil hücum və mövqelərin tutulması üzrə tapşırıqlar yerinə yetirilib.

Ələ keçiriləcək mövqelərin əraziləri taktiki və vizual olaraq qiymətləndirilib, daha sonra minaatanların atəş dəstəyi ilə qəfil hücum icra edilib.

Keçirilən taktiki-xüsusi təlimdə yüksək peşəkarlıq nümayiş etdirən komandolar atəş tapşırıqlarını dəqiqliklə yerinə yetiriblər.

# Qarabağ xanlığının mədəni irsi Avstriya Milli Kitabxanasında təqdim olunub

**Vyananın Hofburq saray kompleksində yerləşən Avstriya Milli Kitabxanasında "Qarabağ xanlığı: tarixi və mədəni kimlik" albom-kitabının təqdimatına həsr edilmiş konfrans keçirilib.**



Heydər Əliyev Fondunun təşəbbüsü və Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin dəstəyi ilə beş dildə nəşr edilmiş kollektiv əsərin müəllifləri Gürcüstan Milli Muzeyinin (GMM) aparıcı əməkdaşlarıdır.

Tədbirdə Azərbaycanın Avstriyadakı səfiri Rövşən Sadıqbəyli və Avropanın mədəni-tarixi mərkəzlərindən olan Avstriya Milli Kitabxanasının kuratoru Irmgard Harrer açılış nitqi ilə çıxış ediblər. Çıxışlarda nəşrin Avstriya Milli Kitabxanasının Dövlət salonunda təqdim edilməsinin Avropanın elmi ictimaiyyətinə, Qarabağda çoxəsrlik tarixə malik Azərbaycanın mədəni irsi və tarixi kökləri haqqında dolğun təsəvvürün formalaşmasında müsbət rol oynayacağı xüsusi qeyd olunub.

Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri Elşad İskəndərov çıxışında işğal dövründə Qarabağ bölgəsində Ermənistan tərəfindən Azərbaycan irsinin tamamilə məhv edilməsi səbəbindən GMM-də Qarabağ xanlığı irsinin qorunmasına toxunub. O, gürcü alimləri tərəfindən bu irsin dərindən tədqiq olunmasının Qarabağın Azərbaycan milli kimliyindəki rolu haqqında tarixi həqiqətlərin üzə çıxması baxımından xüsusi əhəmiyyət daşıdığını vurğulayıb. E.İskəndərov Qarabağın işğaldan azad edilməsinin və hazırda dirçəldilməsinin Azərbaycan xalqının ümummilli ideyasının vacib əsaslarından olduğunu bildirib.

Konfransda həmçinin Gürcüstan Milli Muzeyinin baş kuratorunun müavini Tebrone Nadiradze, Roma Sapienza Universitetinin tədqiqatçısı Daniyel Pommier Vinçelli, Almaniyanın Qiesen Universitetinin dosenti, türkoloq alim Mixael Raynhard Hess Qarabağ xanlığının müxtəlif aspektlərinə dair məruzələrlə çıxış ediblər. Xarici tədqiqatçılar Rusiya imperiyası dövründə toplanmış və bu gün Gürcüstanda qorunan obyektiv etnoqrafik materialların Qarabağ bölgəsinin Azərbaycan milli mədəniyyətinin mühüm mərkəzlərindən biri olmasını sübut etdiyini diqqətə çatdırıblar. Alimlərin fikrincə, Qarabağ irsində həm Azərbaycan xalqının çoxəsrlik dövlətçilik tarixinin tacı olan, böyük coğrafi areala hakimlik etmiş Qızılbaş dövlətinin, həm xalqımıza məxsus mədəni yaradıcılıq nümunələrinin, həm də müxtəlif millət və dinlərin nümayəndələrinə hörmət ənənələrinin izləri öz əksini tapıb.

# Doktorantların və gənc tədqiqatçıların XXVII Respublika Elmi Konfransı (NASCO XXVII) başlayıb








**Dekabrın 10-da Sumqayıt Dövlət Universitetində (SDU) "Yaşıl dünya naminə həmrəylik ili"nə həsr edilmiş Doktorantların və Gənc Tədqiqatçıların XXVII Respublika Elmi Konfransının (NASCO XXVII) açılış mərasimi keçirilib.**



Konfrans Elm və Təhsil Nazirliyi, Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi və Sumqayıt Dövlət Universitetinin (SDU) birgə təşkilatçılığı və "SOCAR Polymer" MMC-nin baş sponsorluğu, BP və Nobel Energy şirkətlərinin sponsorluğu ilə keçirilir.

Tədbirdən əvvəl konfrans iştirakçıları Ulu Öndər Heydər Əliyevin Sumqayıt şəhərindəki abidəsi önünə gül dəstələri düzüb, xatirəsini dərin ehtiramla yad ediblər.

Açılış mərasimi Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Daha sonra Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

SDU-nun rektoru Rüfət Əzizov iştirakçıları salamlayaraq elmi konfransın rəhbərlik etdiyi ali təhsil müəssisəsində keçirilməsindən məmnunluğunu bildirib. O, elm və təhsilin qarşılıqlı əlaqəsinin möhkəmləndirilməsi məqsədilə ölkəmizdə həyata keçirilən genişmiqyaslı islahatlardan danışıb və bu istiqamətdə Sumqayıt Dövlət Universitetində tətbiq edilən yeniliklərdən, tədris olunan ixtisaslardan və tələbə-məzunların əmək bazarındakı fəaliyyəti ilə əlaqədar görülən işlərdən bəhs edib. Diqqətə çatdırıb ki, bu gün ölkəmizin sənaye mərkəzi hesab edilən Sumqayıt şəhərinin yeganə ali təhsil müəssisəsi olan Sumqayıt Dövlət Universiteti bu şəhərin bilik və təcrübə mənbəyinə çevrilir. Elm və təhsil naziri Emin Əmrullayev 27-ci dəfə keçirilən konfransın əhəmiyyətini vurğulayaraq, bu cür tədbirlərin elm sahəsində möhkəm və uğurlu bir ənənə formalaşdırdığını, gənc alimlərə böyük imkanlar yaratdığını qeyd edib. Ölkəmizdə elm və təhsilin inkişafı istiqamətində bir sıra mühüm və uğurlu addımlar atıldığını bildirən təhsil naziri nəzərə çatdırıb ki, bu gün müasir təhsil infrastrukturunun yaradılması, universitetlərdə beynəlxalq əməkdaşlığın genişləndirilməsi və elmi-tədqiqat fəaliyyətlərinin gücləndirilməsi bu sahədəki əsas prioritetlərdəndir.

Rəsmi açılış mərasimindən sonra konfrans öz işini bölmələr üzrə davam etdirib.

Qeyd edək ki, iki gün davam edəcək konfransa təqdim edilmiş 287 tezisdən 251-i qəbul olunub.

Konfransın keçirilməsində məqsəd doktorant və gənc tədqiqatçıların apardığı elmi-tədqiqat işlərinin nəticələrinin müzakirəsini təşkil etmək, habelə onların elmi yaradıcılığını stimullaşdırmaqdır.

Konfrans təbiət elmləri, İKT və mühəndislik, sosial-humanitar elmlər üzrə təşkil edilib.

*"Azərbaycan"*

## Azərbaycan Xarici İşlər Nazirliyi Suriyada son vəziyyət barədə bəyanat yayıb

Azərbaycan Xarici İşlər Nazirliyi Suriyada son vəziyyət barədə bəyanat yayıb.

AZƏRTAC bəyanatı təqdim edir: "Azərbaycan Respublikası Suriyada baş verən prosesləri izləyir. Bu çərçivədə eyni zamanda qardaş Türkiyə ilə məsləhətləşmələr həyata keçirilir.

Suriyada Bəşər əl-Əsəd rejiminin çökməsindən sonra ölkədə sülhün və sabitliyin bərpa olunması, vətəndaş qarşıdurmasına son qoyulması mütləq dərəcədə vacibdir.

Azərbaycan Respublikası Suriyanın ərazi bütövlüyü və suverenliyinə dəstəyini bir daha ifadə edir, Suriya xalqının iradəsinə uyğun şəkildə, habelə ölkədaxili siyasi dialoq vasitəsilə məsələlərin həllini tapacağına ümidvar olduğunu bildirir.

Azərbaycan Respublikası qardaş Türkiyə Respublikası və digər həmfikir tərəfdaşlarla birlikdə Suriya xalqının üzləşdiyi humanitar problemlərin aradan qaldırılmasına töhfə verməyə hazırdır.

Eyni zamanda Azərbaycan Respublikasının Suriyada səfirliyinin mövcud olmamasına baxmayaraq, Suriyada Azərbaycan vətəndaşlarının sayının və yerinin müəyyən edilməsi istiqamətində iş aparılır. Azərbaycan Respublikası, həmçinin 2020-ci ildən başlayaraq Türkiyə Respublikasının ərazisi vasitəsilə həyata keçirilməkdə olan vətəndaşlarımızın Suriya Ərəb Respublikasından ölkəmizə repatriasiyası işini davam etdirəcək.

Azərbaycan Respublikası Suriyada vəziyyət sabitləşəndən sonra Azərbaycanla Suriya arasında ikitərəfli münasibətlərin bərpa olunacağına, əməkdaşlığın qarşılıqlı dostluq və tərəfdaşlıq prinsipi əsasında inkişaf edəcəyinə ümidvardır".

## İƏT Komissiyasının Azərbaycanla bağlı hesabatının təqdimatı olub

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatında Ermənistanın işğalından azad edilmiş ərazilərdə insan hüquqlarının və humanitar vəziyyətin qiymətləndirilməsi məqsədilə İslam Əməkdaşlıq Təşkilatının Müstəqil Daimi İnsan Hüquqları Komissiyasının (İƏT MDİHK) həyata keçirdiyi faktaraşdırıcı missiyasının nəticələrinə dair hazırlanmış hesabatın təqdimatı keçirilib.



Ombudsman Aparatının Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, ombudsman Səbinə Əliyeva təqdimatda çıxışı zamanı hazırda dünyada bəzi dövlətlər tərəfindən sərgilənən kolonializm, irqçilik, dözümsüzlük, ikili standartlar, ayrı-seçkilik və islamofobiya hallarının artdığını, beynəlxalq təşkilatların bu kimi hallara biganə münasibətinin insan hüquq və azadlıqlarının pozulmasına səbəb olduğunu qeyd edib.

Müvəkkil Ermənistanın uzun illər ərzində Azərbaycana qarşı həyata keçirdiyi kəskin nifrət, etnik təmizləmə və deportasiya siyasəti səbəbindən dinc azərbaycanlı əhaliyə qarşı çoxsaylı sülh və insanlıq əleyhinə, habelə müharibə cinayətləri, o cümlədən genosid, ekosid, urbisid və kultursid aktlarının törədildiyini bildirib. Bütün bu faktlarla bağlı Ombudsman təsisatı olaraq, beynəlxalq təşkilatlara dəfələrlə hesabatlar, bəyanatlar və müraciətlər təqdim olunsa da, bu istiqamətdə heç bir effektiv tədbirlərin görülmədiyi qeyd edilib, Azərbaycanın dözümsüzlük, ikili standartlar və ayrı-seçkilik hallarından ən çox əziyyət çəkən ölkələrdən biri olduğu diqqətə çatdırılıb.

Ombudsman Ermənistanın işğalçılıq siyasəti nəticəsində azərbaycanlıların beynəlxalq sənədlərdə təsbit olunmuş hüquq və azadlıqlarının pozulması faktlarının araşdırılması məqsədilə bir sıra beynəlxalq təşkilatlarla, o cümlədən İslam Əməkdaşlıq Təşkilatının Müstəqil Daimi İnsan Hüquqları Komissiyası ilə səmərəli əməkdaşlıq əlaqələrinin yaradıldığını, İƏT MDİHK-nın nümayəndələrinin Azərbaycanda iki dəfə faktaraşdırıcı missiya həyata keçirdiyini qeyd edib.

Sonra Ombudsman Aparatının rəhbəri, İƏT Müstəqil Daimi İnsan Hüquqları Komissiyasının üzvü Aydın Səfixanlı çıxış edərək İƏT MDİHK-nın Azərbaycanla bağlı hesabatı barədə ətraflı məlumat verib. O, nümayəndə heyətinin səfərinin əsas məqsədinin Ermənistan tərəfindən dini-mədəni abidələrin, azərbaycanlılara məxsus qəbiristanlıqların dağıdılması faktlarının yerində araşdırılması, işğal və raket hücumları nəticəsində zərər çəkmiş azərbaycanlılarla bağlı məlumatların toplanması və nəticələrə əsasən hesabat hazırlayaraq beynəlxalq ictimaiyyətə təqdim edilməsindən ibarət olduğunu diqqətə çatdırıb.

Aparat rəhbəri səfərin nəticəsi olaraq hazırlanmış hesabatda İƏT Müstəqil Daimi İnsan Hüquqları Komissiyası tərəfindən eyni zamanda beynəlxalq təşkilatlara ünvanlanacaq tövsiyələrin də öz əksini tapdığını, Ermənistanın beynəlxalq hüquq və beynəlxalq humanitar hüquq normalarını pozması faktlarının da qeyd olunduğunu bildirib. Hesabatın İƏT Xarici İşlər Nazirləri Şurasının 50-ci Zivə görüşü çərçivəsində təsdiq edildiyini və daha sonra İƏT Müstəqil Daimi İnsan Hüquqları Komissiyasının rəsmi internet saytında yerləşdirildiyini qeyd edib.

Yekunda Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə Milli İrsi Mədəni Tarixi Araşdırmalar Fondu tərəfindən icra olunmuş müvafiq layihə çərçivəsində hazırlanan, Ombudsman Aparatının, Müdafiə Nazirliyinin və Minatəmizləmə Agentliyinin əməkdaşlarının müsahibələrinin yer aldığı və Ermənistanın Azərbaycana qarşı mina terrorundan bəhs edən "Ölüm tələsi" adlı sosial çarx nümayiş olunub.

## *Ombudsman:* "Dünyada insan hüquqlarının pozulması halları davam edir"

"Bu gün Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin qəbul edilməsinin 76-cı ildönümü qeyd olunur. 1948-ci ildə qəbul edilmiş Ümumdünya İnsan Hüquqları Bəyannaməsi bəşəriyyətin hüquq və azadlıqlarının təmin olunmasında mühüm dönüş nöqtəsi olub. Bu sənədin qəbulundan sonra dövlətlərin insan hüquqlarına yanaşmasında əhəmiyyətli dərəcədə müsbət dəyişikliklər baş verib".

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva jurnalistlərə açıqlamasında söyləyib. S.Əliyeva müasir dövrdə insan hüquqları sahəsində mövcud olan problemlərə də toxunub. O qeyd edib ki, hazırda dünyada insan hüquqlarının pozulması halları davam edir: "Məcburi köçkünlərin, qaçqınların və miqrantların sayı ilbəil artır. Bu proseslər iqlim dəyişikliyinin fəsadları, eləcə də bəzi dövlətlərin müstəmləkəçilik siyasətini davam etdirməsi ilə daha da ağırlaşır. Bu siyasətin təsirinə məruz qalan xalqlar hələ də azadlıq və ədalətin bərpası uğrunda mübarizəni davam etdirirlər".

Ombudsman həmçinin Azərbaycanın qlobal insan hüquqları təşəbbüslərinə verdiyi töhfələrə də diqqət çəkib: "Bu il Azərbaycan iqlim ədalətinin bərpası məqsədilə Bakı şəhərində COP29-a evsahibliyi edib. Bu mühüm tədbir çərçivəsində iqlim dəyişmələrinin təsirlərinin ədalətli həlli ilə bağlı vacib sənədlər qəbul olunub".

Səbinə Əliyeva insan hüquqlarının qorunması və ədalətin bərpası istiqamətində daha böyük nailiyyətlər əldə olunacağına inamını ifadə edib.

## Qərbi Azərbaycan İcmasının Ümumdünya İnsan Hüquqları Günü münasibətilə bəyanatı

Qərbi Azərbaycan İcması 10 Dekabr - Ümumdünya İnsan Hüquqları Günü münasibətilə bəyanat yayıb. İcmadan AZƏRTAC-a daxil olan bəyanatda deyilir:

"Ermənistan tərəfindən doğma yurdlarından zorla çıxarılmış çoxsaylı azərbaycanlıları özündə birləşdirən və onların qayıdış hüququ uğrunda mübarizə aparan Qərbi Azərbaycan İcması olaraq, biz 10 Dekabr Ümumdünya İnsan Hüquqları Gününə xüsusi önəm verdiyimizi vurğulamaq istəyirik. İnsan hüquqlarının universal əsaslarını təşkil edən və bizim qayıdış hüququmuzun da mənşəyi olan Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin qəbul edilməsi münasibətilə təsis edilmiş Ümumdünya İnsan Hüquqları Günü bizim haqq işimiz üçün mühüm istinad nöqtələrindən biridir.

Bu mühüm gündə Ermənistanın Qərbi azərbaycanlıların qayıdış hüququnu inkar etməklə, insan hüquqlarını kobud şəkildə pozmağa davam etməsindən dərin narahatlığımızı bir daha ifadə edirik.

Həmçinin bəzi xarici ölkələrin etnik və dini ayrı-seçkilik siyasəti nəticəsində bütövlükdə Azərbaycan xalqının böyük ədalətsizliklə üzləşməsindən ciddi narahatlığımızı bildiririk. Əlavə narahatedici hal ondan ibarətdir ki, bu ölkələr Azərbaycanofob, ayrı-seçkilik siyasətlərini insan hüquqları adı altında pərdələməyə çalışırlar. İnsan hüquqlarına ən böyük zərbəni məhz bu cür ikiüzlü siyasətlər vurur. Biz mahiyyətcə irqçi olan bu yanaşmaları qətiyyətlə pisləyir, bu cür hərəkətləri ifşa etmək üçün gələcəkdə də səylərimizi əsirgəməyəcəyimizi bildiririk.

Eyni zamanda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında ölkəmizin Ermənistanın 30 illik işğalına son qoymasını və bununla da yüz minlərlə keçmiş məcburi köçkünün hüquqlarının bərpasını alqışlayırıq. Həmçinin qeyd etməliyik ki, Prezident İlham Əliyevin qərbi azərbaycanlıların dinc şəkildə qayıdış hüququnun təmin edilməsi sahəsində göstərdiyi səylər, o cümlədən, icmamız tərəfindən 5-6 dekabr 2024-cü il tarixlərdə keçirilmiş qayıdış hüququna dair ikinci beynəlxalq konfransa göndərdiyi tarixi müraciəti bizim qayıdış hüququmuza və bütövlükdə Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin icrasına böyük töhfədir.

Biz beynəlxalq ictimaiyyəti qərbi azərbaycanlıların qayıdışı sahəsində davam edən səyləri Ümumdünya İnsan Hüquqları Bəyannaməsinə xidmət edən mühüm töhfə kimi alqışlamağa və dəstəkləməyə çağırırıq".

*Azərbaycanın özü qədər əbədi*

**Hər bir xalqın tarixində Vətəni üçün gördüyü böyük işlərlə, atdığı əvəzsiz addımlarla həmvətənləri tərəfindən qəhrəmanlıq rəmzinə çevrilmiş, xilaskar kimi qəbul edilən və illər keçsə də, qəlblərdə daim yaşayan şəxsiyyətlər olmuşdur. Belə insanlar dövlətin ən çətin və qaranlıq dövrlərində işıq saçmış, xalqını böhranlardan çıxararaq gələcəyini təmin etmiş və adlarını əbədi olaraq dövlətçilik tarixinə həkk etmişlər.**

**Ulu Öndərimiz, Ümummilli Liderimiz Heydər Əliyev də Azərbaycan xalqının əvəzolunmaz şəxsiyyəti, tarixi qəhrəmanıdır. Xalqımız bu böyük liderin əziz xatirəsini hər zaman ehtiramla yad edir və onun Vətənimiz üçün göstərdiyi misilsiz xidmətləri heç vaxt unutmur. Millətin və dövlətin ali mənafeyini öz fəaliyyətində əsas prinsip və norma kimi qəbul etmək, xalqın səsinə - çağırışına cavab vermək, hətta həyatını təhlükəyə atmaq bahasına belə olsa millətin haqq səsini dilə gətirmək, tarixi məqamlarda məsuliyyəti öz üzərinə götürmək Heydər Əliyevin şəxsiyyətini digər rəhbərlərdən kəskin fərqləndirən xüsusiyyətlərdir. Məhz bu səbəbdən əminliklə deyirik ki, Heydər Əliyev irsi bizim milli sərvətimizdir. Heydər Əliyevin həyat və fəaliyyətinin öyrənilməsi, işıqlandırılması həm müasir Azərbaycanın müstəqillik və inkişaf tarixinin öyrənilməsi, həm də əsl liderlik xüsusiyyətlərinin, vətən-millət sevgisinin gələcək nəsillərə öyrədilməsi üçün ən gözəl nümunədir.**



# Azərbaycan naminə

## Heydər Əliyev siyasi kursu dövlətçiliyin əsas istinadgahıdır

Ümummilli Liderin Azərbaycan dövləti və xalqı qarşısındakı tarixi xidmətləri Azərbaycan müstəqilliyini bərpa etməzdən xeyli əvvəl başlamışdır. Xalqımız 1969-1982-ci illərdə Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrdə azərbaycançılıq ruhunu və milli dövlətçilik ideyasını qoruyan və gücləndirən Heydər Əliyev siyasətini yaxşı bilir. Bu dövrdə Ulu Öndərin həyata keçirdiyi siyasət xalqda ona qarşı dərin sevgi və böyük inam hissi yaratmışdır. Daha sonra xalqın bu sevgisi və çağırışları Heydər Əliyevin vətənə geri qayıtmasına səbəb olmuşdur. Onun Naxçıvan Muxtar Respublikasında və Azərbaycanın Ali Sovetindəki fəaliyyəti isə xalqı bir daha əmin etmişdir ki, Heydər Əliyevin liderlik keyfiyyətləri, müdrikliyi, məsuliyyətli və cəsarətli qərarlar qəbul etmək bacarığı, eləcə də millətə olan sevgisi tükənməz və misilsizdir.

1990-cı illərin əvvəllərində SSRİ-nin dağılması və Azərbaycanın müstəqillik uğrunda apardığı mübarizə ölkənin siyasi mənzərəsində ciddi dəyişikliklər yaratdı. Bu dövrdə milli kimliyin qorunması və ölkənin inkişafı baxımından Ulu Öndər Heydər Əliyev siyasi fəaliyyətə yenidən qayıtdı. Heydər Əliyev Naxçıvana gedərək Azərbaycanın siyasi və iqtisadi vəziyyətinin sabitləşməsi istiqamətində fəal işlərə başladı. Ümummilli Liderin böyük siyasətə qayıdışı yalnız Naxçıvan üçün deyil, bütün Azərbaycan üçün taleyüklü hadisə oldu.

Heydər Əliyevin Naxçıvana gəlişi ilə bölgənin siyasi həyatı yeni bir mərhələyə qədəm qoydu. 1990-cı il noyabrın 17-də Naxçıvan Ali Məclisinin ilk sessiyasında deputatların istək və təkidi ilə Ulu Öndər Heydər Əliyevin sədrlik etdiyi parlament fəaliyyətə başladı. Onun rəhbərliyi altında Naxçıvan Ali Məclisinin fəaliyyəti Azərbaycanın suverenliyinin qorunmasına yönəlmiş, bölgənin iqtisadi, sosial və mədəni sahələrdə inkişafını təmin etməyə hədəflənmişdi. Bu dövrdə Heydər Əliyevin siyasi uzaqgörənliyi sayəsində Naxçıvan özünü müdafiə edə bilən bir bölgə kimi formalaşmağa başladı.

17 noyabr 1990-cı ildə Naxçıvan Ali Məclisinin birinci sessiyasında ilk dəfə üçrəngli Azərbaycan bayrağı qaldırıldı və milli bayraqla bağlı iki maddəlik qərar qəbul edildi. Eyni zamanda Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının adından "Sovet" və "Sosialist" sözləri çıxarıldı. SSRİ-nin hələ mövcud olduğu bir vaxtda belə bir qərarın qəbul edilməsi və həyata keçirilməsi böyük siyasi iradə və cəsarət tələb edirdi ki, Ulu Öndər bunu qətiyyətlə nümayiş etdirdi. Həmçinin Naxçıvanda Kommunist Partiyasının fəaliyyəti dayandırıldı, sovet ordusunun və hərbi birləşmələrinin bölgədən çıxarılmasına nail olundu. Bu addımlar nəticəsində Heydər Əliyevin rəhbərliyi altında Naxçıvanda milli dövlətçilik ənənələrinin bərpası prosesi başlandı.

1991-ci il sentyabrın 3-ü Azərbaycanın tarixində əlamətdar günlərdən biri kimi yadda qaldı. Həmin gün Heydər Əliyev deputatların və minlərlə insanın israrlı təkidi ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri seçildi. Bu hadisə yalnız Naxçıvanın deyil, bütövlükdə Azərbaycanın rifaha və qurtuluşa doğru irəliləməsinin başlanğıcı oldu. O, bu hadisə ilə bağlı belə demişdir: "Bu zamanın, bu dəqiqələrin, bu saatın hökmünü nəzərə almamaq olmaz… Xalqın bu əhvali-ruhiyyəsini və tələblərini nəzərə alaraq bütün məsələləri götür-qoy etdim. Mən öz taleyimi xalqa etibar etmişəm və xalqın iradəsini, xüsusən də bu çətin dövrdə həyata keçirməyə çalışmalıyam".

Müharibənin davam etdiyi, enerji resurslarının çatışmazlığı yaşandığı çətin dövrdə Heydər Əliyev Naxçıvan Ali Məclisinin Sədri kimi bölgənin iqtisadi inkişafını və sabitliyini təmin etmək üçün genişmiqyaslı islahatlar həyata keçirdi.

1991-1993-cü illər arasında qəbul edilən iqtisadi qərarlar və görülən tədbirlər nəticəsində Naxçıvanda sosial-iqtisadi sabitlik təmin olundu. Bu islahatlar Naxçıvanın dayanıqlı inkişafının əsasını təşkil edərək, onun Azərbaycan daxilində və beynəlxalq arenada güclənməsinə səbəb oldu.

Ulu Öndər Heydər Əliyev milli ideologiyanın ön plana çəkilməsinə xüsusi önəm verirdi. Bu məqsədlə o, bir sıra mühüm tədbirlər həyata keçirdi və tarixi əhəmiyyətə malik qərarlar qəbul etdi. İlk olaraq 1990-cı il 20 Yanvar faciəsinin siyasi və hüquqi baxımdan Azərbaycan xalqına qarşı törədilmiş cinayət kimi tanınması qərara alındı. Eyni zamanda Heydər Əliyevin təşəbbüsü ilə 1991-ci il dekabrın 16-da Naxçıvan Ali Məclisinin qərarı əsasında "31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi və Birlik Günü" elan edildi. Bu qərar dünya azərbaycanlılarının birliyinin möhkəmlənməsinə və milli həmrəyliyin gücləndirilməsinə böyük töhfə verərək, dünya azərbaycanlılarını birləşdirən tarixi hadisə kimi qiymətləndirildi.

Həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin təklifi əsasında Azərbaycan SSR Ali Soveti 1991-ci il fevralın 5-də "Dövlət Bayrağı haqqında" qanunu qəbul etdi. Bu qərar Azərbaycanın dövlətçilik tarixində mühüm bir hadisə olaraq yadda qaldı və Heydər Əliyevin liderlik xüsusiyyətlərini bir daha sübut etdi.

1991-1993-cü illər arasında Azərbaycan ağır siyasi və iqtisadi böhran dövrünü yaşayırdı. Ölkədəki hərc-mərclik dövlət idarəçiliyinə ciddi təsir göstərir, xalq isə hər gün yeni problemlərlə üzləşirdi. Bir tərəfdən Ermənistanla müharibə şəraitində olan Azərbaycan digər tərəfdən də daxili siyasi sabitlikdən məhrum vəziyyətdə idi. Dövlət idarəçiliyinin qeyri-peşəkar və səriştəsiz şəxslərin əlində olması nəticəsində ölkədə xaos yaranmış, iqtisadiyyat çökmüşdü. Belə bir mürəkkəb vəziyyətdə xalq çıxış yolu olaraq yenidən öz xilaskarına üz tutdu. 1993-cü ilin yayında xalqın tələbi və dəstəyi ilə Heydər Əliyev Naxçıvandan Bakıya dəvət edildi.

1993-cü il oktyabrın 3-də keçirilən prezident seçkiləri isə Azərbaycan tarixində dönüş nöqtəsi kimi yadda qaldı. Belə ki, xalq üzərinə düşən böyük məsuliyyəti dərk edərək Heydər Əliyevi Azərbaycan Respublikasının Prezidenti seçdi. Ulu Öndərin böyük səs çoxluğu ilə prezident seçilməsi bugünkü güclü, müstəqil və suveren Azərbaycan dövlətinin təməlinin qoyulmasına səbəb oldu.

Ümummilli Lider Heydər Əliyevin ömrünü Azərbaycan Respublikasının gələcək inkişafına həsr edəcəyi onun andiçmə mərasimindəki nitqində artıq aydın olmuşdur. Heydər Əliyev nitqində demişdir: "Bu gün mənim üçün tarixi, əlamətdar bir gündür. Mənə göstərilən bu böyük etimada görə Azərbaycan vətəndaşlarına, Azərbaycan xalqına hörmətimi,



məhəbbətimi bildirir və əmin etmək istəyirəm ki, həyatımın sonuna qədər xalqıma sədaqətlə xidmət edəcək və bütün fəaliyyətimi Azərbaycan Respublikasının gələcək inkişafına sərf edəcəyəm".

Bizi Qarabağ Zəfərinə aparan ordu quruculuğundan tutmuş Azərbaycanı sürətlə inkişaf edən ölkələr sırasına qaldıran iqtisadi gücümüzə və ölkəmizi Avropanın etibarlı enerji tərəfdaşlarından birinə çevirən neft-qaz siyasətinə qədər dövlətimizin bütün sahələrində Heydər Əliyevin xidmətləri öz əksini tapır. Onun əməyinin, zəkasının və uzaqgörənliyinin izləri hər yerdə görünür. Ən önəmlisi odur ki, Heydər Əliyevin prezident seçilməsindən sonra biz ilk dəfə müstəqillik tariximizdə güclü mərkəzi hakimiyyətin, xalq-iqtidar birliyinin və peşəkar rəhbərliyin nə olduğunun şahidi olduq. Ulu Öndərin hakimiyyətə gəlişi ilə ölkədə sabitlik təmin edildi, vətəndaş həmrəyliyi bərpa olundu, Qarabağ müharibəsində atəşkəsə nail olundu və düşmənin təcavüzü dayandırıldı. Hələ sovet dövründə Cəmşid Naxçıvanski adına hərbi məktəbin açılmasını təmin edən Heydər Əliyev müstəqil Azərbaycanın güclü ordusunun əsasını qoyan şəxsiyyət kimi tarixdə iz qoymuşdu.

Müstəqil və müasir Azərbaycanın tarixində baş verən bütün mühüm hadisələr məhz Heydər Əliyevin adı ilə bağlıdır. Dövlət bayrağımızın təsdiqi, demokratik idarəetmə sisteminin qurulması, ilk parlament seçkilərinin keçirilməsi, müstəqil dövlətimizin ilk Konstitusiyasının qəbulu, çoxpartiyalı siyasi sistemin formalaşması, iqtisadi yüksəlişimizin təməlini təşkil edən "Əsrin müqaviləsi"nin imzalanması, Azərbaycanın dünya birliyinə sürətli inteqrasiyası və beynəlxalq diplomatik əlaqələrin genişlənməsi onun uzaqgörən siyasətinin nəticəsidir. BMT və Avropa Birliyi kimi beynəlxalq təşkilatlarla əməkdaşlıq mühitinin formalaşdırılması və güclü, müasir Azərbaycanın yaradılması Heydər Əliyevin qətiyyətinin və vətənə olan sonsuz sevgisinin məhsuludur.

Onun hakimiyyəti dövründə mətbuatda senzura aradan qaldırıldı, məhkəmə islahatları həyata keçirildi, Konstitusiya Məhkəməsi və Ombudsman təsisatı yaradıldı. İnsan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədi elan olundu, hüquq-mühafizə orqanlarının fəaliyyəti təkmilləşdirildi. Həyata keçirilən siyasi və hüquqi islahatlar nəticəsində Azərbaycan həqiqi mənada demokratik-hüquqi dövlətə çevrildi.

Onun rəhbərliyi ilə həyata keçirilən "Bakı-Tbilisi-Ceyhan" və "Bakı-Tbilisi-Ərzurum" neft-qaz kəmərləri layihələri Azərbaycanın iqtisadi müstəqilliyini təmin etdi və regionun sabitliyinə mühüm töhfə verdi. Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycan enerji, nəqliyyat və logistika mərkəzinə çevrildi.

Heydər Əliyevin siyasətində gənclər xüsusi yer tuturdu. O, gələcəyin təhsilli, vətənpərvər və milli dəyərlərə sadiq gənclərinin yetişdirilməsinə xüsusi diqqət yetirirdi. Onun təşəbbüsü ilə xaricdə təhsillə bağlı dövlət proqramları, elmin və təhsilin inkişafına yönələn dövlət dəstəyi bu gün də öz müsbət nəticələrini verməkdədir.

Ümummilli Lider Azərbaycanın milli ideologiyasının formalaşdırılmasında, dövlət quruculuğu proseslərinin istiqamətləndirilməsində və ölkənin beynəlxalq aləmdə nüfuz qazanmasında mühüm rol oynamışdır. Azərbaycan parlamentinin də müasir strukturunun və fəaliyyət prinsiplərinin formalaşmasında Heydər Əliyevin rəhbərliyi əvəzsizdir.

Heydər Əliyev Azərbaycanın qanunvericilik orqanının müasir və effektiv fəaliyyət göstərməsi üçün institusional islahatlar həyata keçirdi. 1995-ci ildə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyası parlamentin hüquq və səlahiyyətlərini genişləndirdi. Heydər Əliyevin təşəbbüsü ilə parlamentin rolu yalnız qanunvericiliklə məhdudlaşmadı, həmçinin dövlət siyasətinin həyata keçirilməsində fəal iştirak edən orqan kimi inkişaf etdirildi.

Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan 1995-ci il Konstitusiyası Azərbaycan Respublikasında demokratik dövlət quruculuğu prosesinin əsasını qoydu. Konstitusiyada qanunverici hakimiyyətin fəaliyyəti, parlamentin tərkibi, seçki qaydaları və hüquqları ətraflı təsbit olunmuşdur.

Ulu Öndər parlament qarşısında Azərbaycanın neft-qaz resurslarının beynəlxalq əməkdaşlıq çərçivəsində istifadəsini təmin edən qanunvericilik aktlarının qəbul edilməsi, Ermənistanın işğalçılıq siyasətinə qarşı dövlət siyasətinin əsaslarının müəyyən edilməsi, sahibkarlığın inkişafına, özəlləşdirməyə və bazar iqtisadiyyatına keçidi təmin edən qanunların qəbulu, milli ideologiyanın inkişafına xidmət edən qanunvericilik aktlarının qəbul edilməsi kimi məsələlər qaldıraraq həllərinə nail olmuşdur.

Ümummilli Lider Heydər Əliyev həm ölkə daxilində, həm də beynəlxalq arenada Azərbaycan parlamentinin nüfuzunu yüksəltmiş, onun demokratik təsisat kimi möhkəmlənməsinə zəmin yaratmışdır. Onun rəhbərliyi ilə aparılan islahatlar Azərbaycanın müstəqilliyini və suverenliyini qorumaqda mühüm rol oynamışdır. Azərbaycan parlamenti Heydər Əliyevin qoyduğu əsaslara uyğun olaraq ölkənin qanunvericilik sistemini və dövlət idarəetmə mexanizmini inkişaf etdirir.

Heydər Əliyev sadəcə siyasi lider deyil, həm də xalqının yaxın dostu, dəstəkçisi idi. O, insanlarla birbaşa ünsiyyətdə olmaqdan çəkinməz, onların problemlərini dinləyər və həll yolları axtarardı. Onun "Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır" prinsipi Azərbaycan siyasətinin əsas sütunlarından birinə çevrilib.

Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyəti müasir Azərbaycanın tarixində qızıl hərflərlə yazılıb. Onun irsi bu gün də Azərbaycan xalqı üçün yol göstəricisidir. Heydər Əliyevin müdrik siyasəti və xalqına olan sevgisi Azərbaycan dövlətçiliyinin möhkəm təməllərini yaratdı.

*Ümummilli Lider Heydər Əliyevin xatirəsi hər bir azərbaycanlının qəlbində əbədi yaşayır. Onun Vətən qarşısındakı misilsiz xidmətləri, dövlətçilik prinsipləri və uzaqgörən siyasəti bizə milli birliyimizi qorumağı və daha güclü gələcək qurmağı öyrətdi. 12 dekabr günü təkcə dahi liderimizi anmaq deyil, həm də onun ideyalarını yaşatmaq və gələcək nəsillərə ötürmək üçün bir çağırışdır.*

*Bu gün torpaqlarını düşmən işğalından azad edərək ərazi bütövlüyünü bərpa etmiş, müstəqilliyini, suverenliyini daha da möhkəmləndirmiş Azərbaycan Heydər Əliyev siyasətinin ən mahir davamçısı olan cənab Prezident İlham Əliyevin rəhbərliyi altında yüksəliş yolunda inamla irəliləyir. Müstəqil Azərbaycan var olduqca, onun qurucusu Ulu Öndər Heydər Əliyevin əziz xatirəsi də əbədi yaşayacaqdır.*

**Ziyafət ƏSGƏROV,**
***Azərbaycan Respublikası Milli Məclisinin Sədr müavini***

Azərbaycanın özü qədər əbədi

# Dahilik zirvəsində



**Bəşər cəmiyyətinin mövcudluq salnaməsi zaman-zaman minlərin, milyonların arasından seçilmiş fenomenal şəxsiyyət və liderlərin ictimai-siyasi proseslərə hədsiz təsirini, bəzən hətta cərəyan edən hadisələrin məcrasını başqa səmtə yönəltmək qüdrətini özündə tam parlaqlığı ilə təcəssüm etdirir. Yaranmış müəyyən əlverişli mərhələdə meydana çıxan lider xalqının əsrlər boyu formalaşaraq ümumbəşəri dəyərlərlə çulğalaşan siyasi-ictimai dünyagörüşü və mental dəyərləri əsasında özünün mükəmməl dövlətçilik konsepsiyasını yaradır, beləliklə, pozitiv rakursda siyasi varislik ənənələrini formalaşdırır. Heydər Əliyev siyasətdə həm ənənəvi, həm də müasir lider obrazında təzahür edən, təmsil etdiyi dövlətin və xalqın Ümummilli Liderinə çevrilməyi bacaran və onun çərçivəsini göstərən, idealım, obrazını yaradan dahi və müdrik bir şəxsiyyətdir.**

"Mənim həyat amalım yalnız bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mədəni inkişafına xidmət olub" deyən Heydər Əliyev istər sovet dönəmində, istərsə də müstəqillik illərində qüdrəti və zəkası, böyük müdrikliyi və uzaqgörənliyi ilə Azərbaycanı dünya məmləkətləri sırasında layiqli yerə çıxarıb.

Onun fəaliyyətinin hər bir hissəsi xalqımızın mədəni inkişafına, iqtisadi və siyasi yüksəlişinə xidmət edən müvəffəqiyyətlərlə zəngindir. Ulu Öndər Heydər Əliyev şəxsi ləyaqət hissini paklıq zirvəsinə qaldırmağı bacaran və bu unikal keyfiyyəti titanik siyasi fəaliyyəti ilə məhək daşına çevirməyə nail olan Böyük Azərbaycanlıdır. Bu unikal xüsusiyyəti ilə dünya siyasətində onun rəqibi yoxdur. Uzun tarixi dövrdə də bu reallıq dəyişməz qalacaqdır. O, Azərbaycanda siyasi plüralizm, siyasi mədəniyyət və siyasi sistemin yaranmasının əsasını qoyan dühadır.

Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin ömür yolu, həmişə uğur və qələbələrlə müşayiət olunan mübarizəsi iki minilliyi qovuşduran onilliklərdə tariximizin şərəf kitabının ən parlaq və zəngin səhifələrini təşkil edir. Milli tariximizin Heydər Əliyev zirvəsi gələcəyə gedən yolumuzu aydın görməyə geniş imkan yaratdığı kimi, keçmişimizi, xüsusən yaxın dünənimizi də doğru-düzgün dəyərləndirməyimiz üçün dolğun mənzərə açır.

Böyük şəxsiyyətlərin adı zəmanəsinin və xalqının simvoluna çevrilir. Ulu Öndər, dünyamiqyaslı siyasi və dövlət xadimi Heydər Əliyev Azərbaycan xalqının öz tarixi ərzində ərsəyə gətirdiyi ən böyük şəxsiyyətdir. Xalqımızın bütün müsbət keyfiyyətlərini, yaradıcılıq enerjisini öz simasında üzvi şəkildə birləşdirən Heydər Əliyev millətimizin şərəf və ləyaqət rəmzinə çevrilmişdir. Tariximizin son yarım əsrdən artıq bir dövrü Heydər Əliyevin zəkası ilə nurlanmışdır.

12 dekabr 2003-cü il. Azərbaycan xalqının böyük oğlu, dahi siyasətçi, görkəmli dövlət xadimi Heydər Əliyevin əbədiyyətə qovuşduğu gün. Xalqımızı sonsuz kədərə, göz yaşlarına qərq edən o qış günündən bu gün bizi 21 illik zaman ayırsa da, xalqımız yenə o itkinin hüznünü ilk gündə olduğu kimi yaşamaqdadır. Ümummilli Liderin dünyaya göz yumduğu günlərdə xalqımıza böyük təsəlli gətirmiş, sabaha inamımızı artırmış "Nə qədər ki, xalqımız var, nə qədər ki, Azərbaycan var - Heydər Əliyev də var olacaqdır" deyimində ifadə olunmuş uzaqgörənlik və həqiqət zaman keçdikcə daha dərindən və aydın dərk olunur. Ölkəmizə bir qərinədən artıq müddətdə rəhbərlik etmiş bir insanla eyni dövrdə yaşamaq, müəyyən şəraitdə onunla təmasda olmaq isə illər keçdikcə əfsanəviləşən bir epoxanın dəyərli epizodları, unudulmaz hadisə və faktları kimi mənalıdır.

Tariximizin ən böyük simalarının ön cərgəsində dayanmaq haqqı qazanmış Heydər Əliyev XX əsrin sonlarında və XXI əsrin əvvəllərində ölkəmizin bütün sahələrdə əldə etdiyi nailiyyətlərin təşəbbüsçüsü və müəllifi olmuşdur. Yalnız onun sayəsində xalqımız əvvəlcə siyasi və dövlət müstəqilliyinin möhkəm təməlini yaratmış, daha sonra isə bu təməl üzərində qurulan müstəqil dövlətini qoruyub saxlaya bilmişdir. Onun dünya siyasət xəzinəsini zənginləşdirən fəaliyyəti Azərbaycan xalqının əsrlər boyu ürəyində yaşatdığı müstəqil dövlətçilik arzusunun gerçəkliyə çevrilməsində müstəsna rol oynamışdır.

Ulu Öndərin 1960-cı illərin axırlarında və 1990-cı illərin əvvəllərində hakimiyyətə hər iki gəlişi ölkəmizin və xalqımızın çox ağır sınaqlara çəkildiyi, problemlər məngənəsində boğulduğu dövrlərə təsadüf etmişdir. Hər dəfə də Heydər Əliyev ona bəslənən böyük ümidləri doğruldaraq xalqımızın Ümummilli Lideri olduğunu sübuta yetirmişdir.

Ümummilli Lider Heydər Əliyevin Azərbaycana iki dəfə rəhbərlik etməsi ən mühüm nəticələri ilə şəxsiyyətin tarixdə müəyyənedici rolunu bir daha təsdiqləyən, çağdaş dünyada etiraf olunan fenomenal bir hadisədir. Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi hər iki dövrü indiki nəsillər minilliklər boyu davam edən dövlətçilik tariximizin ən şanlı səhifələri, misilsiz idarəetmə məktəbi kimi öyrənir və daim sonsuz qürur mənbəyi kimi yad edirlər.

Bu misilsiz siyasi irs - liderlik məramı 1969-cu ildə Ümummilli Lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etməsi ilə başlanan şərəfli missiya ilə müəyyən olunmuşdur. Heydər Əliyev uzaqgörən, qətiyyətli siyasətçi olduğunu hələ ölkəyə ilk dəfə rəhbərlik etdiyi 1969-1982-ci illərdə təsdiqləmişdir.

Böyük strateq bugünkü müasir, müstəqil Azərbaycanı hələ o zamandan - Azərbaycanda həyatın bütün sahələrində ağır tənəzzülün hökm sürdüyü bir dövrdə xalqın problemlərini öz çiyninə götürdüyü 1969-cu ildən qurmağa başlamışdır. Bu qənaətin gerçəkliyini tarixi proseslərin sonrakı gedişi də tam sübuta yetirmişdir. Zəngin idarəçilik təcrübəsini sovet rejiminin əsl mahiyyəti barədə bilgiləri ilə uzlaşdıran Ümummilli Lider o zaman Azərbaycanı düşmüş olduğu böhrandan çıxarmaq üçün qəti addımlar ataraq böyük uzaqgörənliklə ölkənin uzunmüddətli, ardıcıl inkişafının təminatına yönələn proqramlar tərtib etmiş və qısa zaman ərzində bu proqramların icrasına nail olmuşdur. Azərbaycanın müstəqil yaşamağa qadir, elmi-texniki inqilabın ən son nailiyyətlərinə yiyələnən bir dövlətə çevrilməsini Heydər Əliyev o zaman ali məqsədlərdən biri kimi təsbit etmişdir.

O, Azərbaycanın qədim tarixini olduğu kimi dünyaya çatdırmaqla öz xalqının ululuğunu, böyük inkişaf yolu keçdiyini sübut etmiş, millətinin dünyaya yüzlərlə dahi verdiyini göstərməklə bütün dünyanı öz xalqına hörmət etməyə, ona ehtiramla yanaşmağa məcbur etmişdir.

Tarixən hər bir xalqın hansısa əlverişli situasiyada milli-etnik soy-kökünə qayıdışı, əsrlər boyu əxz etdiyi milli-mənəvi dəyərlər, məfkurə və düşüncə sisteminə söykənərək özünüməxsusluğunu qorumaq, müstəqilliyə, azadlığa qovuşmaq şansı əldə etməsi lider fenomeninin fövqəladə missiyası ilə şərtlənmişdir. İndi bu həqiqəti əksəriyyət etiraf edir ki, əgər 1970-1980-ci illərdə Heydər Əliyevin əzmkarlığı və qətiyyəti ilə xalqın sosial-iqtisadi, mədəni yüksəlişi üçün həyata keçirilən tədbirlər, milli şüurun oyanışı istiqamətində görülən işlər olmasaydı, bu gün Azərbaycanın müstəqil xəttə malik, heç bir dövlətdən asılı olmayan ölkə kimi mövcudluğundan danışmaq şübhə altında olardı.



Ümummilli Lider Heydər Əliyevin siyasi obrazı Azərbaycan xalqının dövlətçilik şüurunun, tarixin sınağından şərəflə çıxmış bötöv bir idarəçlik məktəbinin, müasir ictimai-siyasi fikrin ən davamlı keyfiyyətlərinin canlı mənzərəsidir. Bu məqam Heydər Əliyevin Azərbaycan xalqının Ümummilli Lideri olması həqiqətinin hər kəs tərəfindən etirafıdır. Təsadüfi deyil ki, onun adı Azərbaycanın tarixinə görkəmli ictimai-siyasi xadim, qüdrətli dövlət adamı, müstəqil dövlətçiliyimizin memarı kimi həkk olunubdur. Heydər Əliyev tariximizdə şərəfli yerini tutmuş, milyonlarla insanın qəlbində öz heykəlini ucaltmış və müstəqillik tariximizin əbədiyyət simvoluna çevrilmiş nadir simalardandır.

Ulu Öndər həmişə vətəni, xalqı ilə birlikdə olmuşdur. Heydər Əliyev elə nadir şəxsiyyətlərdəndir ki, tarix belələrinin əməlləri, fəaliyyəti ilə yaranır. Onun keşməkeşli həyatı, zəngin bioqrafiyası isə bütöv bir epoxanın canlı salnaməsidir. Bu salnamənin nə az, nə çox - düz 35 illik bir dövrünü əhatə edən səhifələri rəhbərin şərəfli və mənalı ömrünün unudulmaz anlarıdır.

Heydər Əliyev müdrikliyi yalnız bir şəxsiyyətin fərdi qabiliyyətinin nəticəsi deyil, bütövlükdə, xalqımızın mental böyüklüyünün, əzəmətli tarixi iradəsinin ifadəsidir. Tarixdən məlumdur ki, bir xalqın lideri səviyyəsinə ucalmaq, dünya miqyasında tanınmaq və qəbul olunmaq üçün şəxsiyyət uzun bir təkamül yolu keçməlidir.

Heydər Əliyevin malik olduğu ali keyfiyyətlər və siyasi qabiliyyətlər ona istənilən siyasi mühitdə və istənilən coğrafi məkanda elitanın ən yüksək pilləsində qərarlaşmağı təmin edə bilərdi. Belə bir dühanın məhz Azərbaycan xalqına mənsub olması və özündən sonra bu xalqın tarixində yaradıcı iz və daha uzaq gələcəyə hesablanmış siyasi irs qoyması, bütövlükdə, xalqımızın milli uğuru və iftixar mənbəyidir. Müasir dünya tarixində yaradıcı iz qoymuş digər tarixi şəxsiyyətlərlə ortaq məziyyətlər daşıdığı və bəzi hallarda isə həmin siyasi xadimləri belə üstələyən keyfiyyətlərə malik olduğu üçün Heydər Əliyev dünyamiqyaslı fenomenal şəxsiyyətdir, Azərbaycan xalqının hər zaman fəxr edəcəyi və həyat yolundan ibrət götürəcəyi böyük bir mütəfəkkirdir.

Bütün oxşarlıqlarla yanaşı, Heydər Əliyev şəxsiyyətinin özünəməxsusluğu da xüsusi əhəmiyyət kəsb edir. O, bir çox siyasətçi müasirlərindən fərqli olaraq təkcə öz dövrünün deyil, daha geniş zaman çərçivəsində baş verən ictimai-siyasi proseslərin axarını müəyyən edə bilən güclü siyasi iradə sahibi, yeni dünya tarixinin rasional siyasətçisi, uzaqgörən bir dövlət xadimidir. Heydər Əliyev təkcə gələcəyi görmür, həm də onu yaradırdı: bu dahi insan sabaha doğru gedən yolu açır və insanları o yolla getməyə səfərbər edirdi.

Azərbaycanı sülh, sabitlik, milli-dini tolerantlıq məkanına, fərqli mədəniyyətlərin dialoq meydanına çevirən Heydər Əliyev ölkəmizin demokratik inkişaf yolunu müəyyənləşdirmiş, Azərbaycan dövlətinin siyasi platformasını, iqtisadi əsaslarını, mənəvi və əxlaqi konsepsiyalarını yaratmışdır. Ən əsası isə Azərbaycanın dövlət müstəqilliyinin daimiliyini, əbədiliyini, dönməzliyini təmin edən mükəmməl bir dövlətçilik ideologiyası formalaşdırmışdır.

Heydər Əliyevin istər Azərbaycan SSR-ə rəhbərlik etdiyi, istərsə də Sovet İttifaqının rəhbərliyində təmsil olunduğu zaman göstərdiyi siyasi əzmkarlıq və yorulmaz fəaliyyəti ona həmkarlarından fərqli olaraq, xarizmatik lider imici qazandırmışdı.

Heydər Əliyev ittifaq dövlətinin rəhbərliyində işlədiyi beş il ərzində dünya siyasətinin ən nüfuzlu nümayəndələri sırasında özünə möhkəm yer tutdu, vətənimizin və xalqımızın şərəfini yüksəklərə qaldırdı. Məhz bu baxımdan öz dövrünün ən xarizmatik dövlət xadimi və ən praqmatik siyasətçisi kimi tanınan Heydər Əliyev ümumbəşəri dəyərlərin daşıyıcısı missiyasına yüksələn universal şəxsiyyət kimi regionun coğrafi sərhədlərinə sığmayaraq ümumdünya kontekstinə çıxır.

Görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycanın müstəqillik dövrünün də vəzifələrini dönmədən, qətiyyətlə həyata keçirmişdir. Sözün böyük və həqiqi mənasında, möhkəm əsaslara malik olan müstəqil dövlət qurmaq və həmin dövləti dünyaya tanıtmaq Heydər Əliyevin Azərbaycan xalqı qarşısında tarixi xidmətidir.

Hər bir sahədə aparılan bütün islahatlar, cəmiyyəti yeniləşdirməyin, möhkəmləndirməyin təməl prinsipləri də Heydər Əliyev tərəfindən qətiyyətlə həyata keçirilmişdir. Heydər Əliyev keçmiş sovet hakimiyyəti ilə yeni müstəqil dövlətçilik anlayışı arasında elə bir möhkəm sədd yaratdı ki, heç kimsədə bir daha geriyə qayıtmağa cürət və cəsarət qalmadı. Çox mürəkkəb ictimai-siyasi şəraitdə çevriliş cəhdləri, separatçılıq meyillərinin qarşısını almaqla Heydər Əliyev müstəqil hüquqi dövlətin çarxının dünyəvi prinsiplər əsasında ahəngdar işləməsini təmin etməyi bacarmışdır.

Ulu Öndər əsl ümumxalq məhəbbəti qazanmış tək-tək siyasətçilərdən, dövlət xadimlərindəndir. Bu dahi şəxsiyyət Azərbaycanın sabitlik və təhlükəsizliyinin qarantı oldu, ölkəmizi inkişafa, firavanlığa doğru addımlayan, dünya birliyində layiqli yerini tutmuş bir dövlətə çevirdi. Dövlətçilik tariximizin müasir mərhələsinin əsasını qoydu, Azərbaycanın reallıqlarını, ictimai-siyasi, mədəni-mənəvi həyatının bütün sahələrini əks etdirən mükəmməl elmi-nəzəri sistem - dövlət quruculuğu fəlsəfəsini, dövlətçilik ideologiyasını yaratdı.

Beləliklə, bu nailiyyətlərin hər birini diqqətlə təhlil edərkən Ulu Öndər Heydər Əliyevin qərar və təşəbbüslərinin nə qədər strateji əhəmiyyət daşıdığını və Azərbaycanın uzaq milli hədəflərini özündə ehtiva etdiyini görürük. Yalnız dünya inkişafının perspektivini aydın görən, ölkəsini, xalqını ona doğru istiqamətləndirən Heydər Əliyevin uzaqgörən siyasəti müasir Azərbaycanın dünya birliyinə təbii inteqrasiyasını təmin edərək, onun müstəqilliyini əbədi və dönməz prosesə çevirdi.

Öyrənildikcə öyrənilən, heç zaman tükənməyən Heydər Əliyev irsi, onun yaradıcı zəkası hələ uzun illər çoxtərəfli araşdırmaların mövzusu olacaq. Və hər zaman bu şəxsiyyətin tarixdə oynadığı əhəmiyyətli rol daha dərin və daha geniş məzmunda, konseptual şəkildə açılacaqdır.

Dünya azərbaycanlılarının həqiqi lideri səviyyəsinə yüksəlmiş Ümummilli Lider Heydər Əliyevin ideyaları, əsasını qoyduğu işlər bu gün də yaşamaqdadır. Ulu Öndərin çox böyük dəqiqliklə işləyib hazırladığı strateji kursu 2003-cü ilin oktyabrından onun layiqli siyasi varisi, Azərbaycan Prezidenti İlham Əliyev uğurla davam etdirir. Bu xətt isə Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsi, ölkənin beynəlxalq aləmdə nüfuzunun durmadan artırılması, iqtisadi durumunun yüksəldilməsi, əhalinin rifahının yaxşılaşdırılması, demokratik dəyərlərin dərinləşdirilməsi və sairə kimi ümumdövlət və ümumxalq əhəmiyyətli məsələlərdir.

Prezident İlham Əliyevin ölkəmizə böyük istedad və bacarıqla rəhbərlik etməsi, Heydər Əliyev siyasi kursunu, onun Azərbaycan naminə amallarını uğurla davam etdirməsi hər birimizin qəlbini iftixarla döyündürür.

Şübhəsiz, sosial-siyasi sabitliyin qorunmasının, mövcud iqtisadi inkişafın, hərtərəfli tərəqqinin təməlində Ümummilli Lider Heydər Əliyevin inkişaf strategiyası, onun müəyyənləşdirdiyi daxili və xarici siyasət xətti dayanır. O da həqiqətdir ki, Ulu Öndərin əsasını qoyduğu daxili və xarici siyasət kursunun uğurla davam etdirilməsi sayəsində Azərbaycan bugünkü yüksəlişə və inkişafa nail olub. Ən əsası isə 44 gün davam edən və işğal altındakı ərazilərimizin qaytarılması ilə nəticələnən Vətən müharibəsi tariximizin ən parlaq səhifəsinə, Azərbaycan xalqının iftixar və qürur mənbəyinə çevrildi.

Qarabağ Zəfərinə aparan yolun başlanğıcı Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuşdu. Sonrakı dövrdə həyata keçirilən kompleks tədbirlər, əzmkar və çoxşaxəli fəaliyyət bizi bu hədəfə addım-addım yaxınlaşdırdı. Prezident İlham Əliyev Ulu Öndərin qoyduğu möhkəm təməl üzərində dünyada söz sahibi olan, böyük iqtisadi və hərbi gücə malik qüdrətli Azərbaycan dövləti qurdu. Azərbaycan Ordusu ən müasir silah-sursat və hərbi texnika ilə təmin olundu, şəxsi heyətin döyüş qabiliyyətinin artırılması, mənəvi-psixoloji ruhunun yüksəldilməsi üçün bütün zəruri tədbirlər görüldü. Möhtərəm Prezidentin rəhbərliyi və davamlı səyləri ilə güclü hərbi potensial yaradıldı. İldən-ilə artan iqtisadi, hərbi güc və siyasi iradə nəticəsində BMT Təhlükəsizlik Şurasının 30 ilə yaxın müddətdə kağız üzərində qalmış qətnamələrini Azərbaycan özü icra etdi. Xalqımızın görünməmiş milli həmrəylik nümayiş etdirməsi tarixi qələbənin təmin edilməsində mühüm rol oynadı. Azərbaycan xalqı öz liderinin - Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşərək bütün dünyaya öz gücünü, mətinliyini, mübarizliyini nümayiş etdirdi. Prezident İlham Əliyev yalnız hərb meydanında müzəffər sərkərdə deyil, diplomatik cəbhədə böyük strateq nümunəsi ortaya qoydu, informasiya müharibəsində Azərbaycanın haqq səsi oldu, cəsarətlə bütün təzyiqlərə sinə gərdi, öz xalqı ilə vəhdətdə olan lider kimi mübarizlik rəmzinə çevrildi. Ərazi bütövlüyümüz birmənalı olaraq təsdiq edildi. "Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur" deyən Ulu Öndərin arzusu reallaşdı.

44 günlük Vətən müharibəsində qazandığı qələbə ilə öz gücünü bütün dünyaya sübut edən Azərbaycan regionda yeni reallıqlar yaratdı. Bu gün Azərbaycanın regionda yaratdığı yeni reallıqlar beynəlxalq birlik tərəfindən qəbul olunur və dəstəklənir. Azərbaycanın qazandığı ədalətli qələbənin bölgədə yaratdığı reallıq regionda davamlı sülhün, təhlükəsizliyin təmin olunmasına xidmət edir və beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanır.

Şanlı Qələbəmizdən sonra ölkəmizdə yeni dövr başlayıb. Hazırda işğaldan azad edilmiş ərazilərimizdə infrastruktur layihələri uğurla icra olunur.

Hər birimizə böyük örnək olan və fərəh verən digər amil isə dövlət başçısının bütün sahələrdə həyata keçirdiyi strateji əhəmiyyətli islahatların daha çevik və yüksək səmərəliliklə həyata keçirilməsinə böyük töhfələr verən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın xalqımızın xoşbəxtliyi, dövlətimizin möhkəmlənməsi və qüdrətlənməsi istiqamətində həyata keçirdiyi görkəmli və bənzərsiz fəaliyyətidir. Mehriban xanım Əliyeva uzun illərdir ki, Prezident İlham Əliyevlə birlikdə müasir Azərbaycan dövlətinin quruculuğunda yaxından iştirak edir. Mehriban xanım Əliyevanın göstərdiyi fəaliyyət, gördüyü işlər çoxşaxəli və misilsizdir. Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi kursun hər bir sahədə dəstəklənməsinə və uğur qazanmasına yönəlmiş Mehriban Əliyevanın geniş əhatəli fəaliyyəti Azərbaycanın bugünkü inkişafı içərisində çox böyük çəkiyə malikdir. Ölkəmizin birinci xanımı reallaşdırdığı uğurlu layihələrlə, dövlət müstəqilliyimizin əsaslarının və Prezident İlham Əliyevin liderlik nüfuzunun möhkəmlənməsinə geniş ictimai dəstək qazandırmışdır.

Mehriban Əliyevanın qeyri-adi rəhbər istedadı, zəngin idarəçilik təcrübəsi, başladığı hər bir işdə əməli surətdə sübut olunmuş ictimai-siyasi xadim vərdişləri onun qarşıya qoyduğu məsələlərin həllinə yanaşmalarını yüksək peşəkarlıq və məsuliyyət səviyyəsində təzahür etdirir. Onun rəhbərliyi ilə istər ölkəmizdə, istərsə də ölkə hüdudlarından kənarda həyata keçirilən çoxsaylı layihələr əhalinin maddi rifahının yüksəlməsinə və dünya arenasında Azərbaycanın imicinin daha da möhkəmlənməsinə xidmət edir.

Bəli, vətənimiz Heydər Əliyev dühasından bəhrələnən, daha yeni, müasir şəraitə uyğun siyasi intellektə və potensiala malik bir siyasətçinin - İlham Əliyevin rəhbərliyi altında işıqlı gələcəyə doğru addımlayır.

Bu işdə hər birimiz, hər bir Azərbaycan vətəndaşı möhtərəm Prezidentə yardımçı olmalı, bununla da dövlətçiliyimizin, müstəqilliyimizin, ərazi bütövlüyümüzün qorunmasına öz töhfəmizi verməliyik…

*Ümummilli Lider Heydər Əliyev yaşadığı fırtınalı həyatı boyu hər zaman xalqını, vətənini düşünmüşdür. Onun ürəyi Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, doğma xalqının xoşbəxtliyi üçün çırpınmışdır. Azərbaycan Prezidenti İlham Əliyevin dediyi kimi, bu gün Heydər Əliyev bizim qəlbimizdə yaşayır, onun əməlləri, ideyaları, siyasəti yaşayır və əbədi yaşayacaqdır!*

**Asif ƏSGƏROV,**
***Milli Məclisin deputatı***

*Azərbaycanın özü qədər əbədi*

# Heydər Əliyev dühası



**XX əsr Azərbaycana, bütövlükdə türk dünyasına Ulu Öndər Heydər Əliyev kimi əvəzolunmaz nadir siyasi xadim bəxş etməklə çoxəsrlik dövlətçilik tariximizin qızıl dövrünün siyasi salnaməsini yazıb. Həyatını, ömrünü qibləgahı sandığı doğma Vətəninə həsr edən Ümummilli Lider iki fərqli ictimai mühitdə, siyasi formasiyada fəaliyyət göstərsə də, hər zaman milli və demokratik baxışları, təkrarolunmaz ecazkar iş üslubu, idarəetmə dühası ilə yadda qalıb. Onun həyat manifesti və prinsipial mövqeyi demokratik ənənələrin inkişafı, milli dövlətçilik irsimizin qorunması və müstəqil Azərbaycan quruculuğuna əsaslanıb.**

Ulu Öndər çoxşaxəli fəaliyyəti ilə mütərəqqi və milli ideyaların müəllifi, iradəli dərin islahatçı, yüksək dəyərlərə sahib dövlət xadimi və demokratik cəmiyyətin fəal qurucusu kimi xarakterizə olunur. O, hələ gənc yaşlarında ictimai həyata yeni baxış və yanaşma, fərqli düşüncə, məfkurə azadlığı gətirmişdi. Azərbaycanın siyasi rəhbərliyinə gəldiyi ilk gündən yenilikçi və islahatçı xüsusiyyətləri ilə diqqəti cəlb etməyə başlamışdı. Respublikamıza rəhbərliyinin birinci dövründə Heydər Əliyevin inkişafın qarşısını kəsən mühafizəkar kursdan imtina edərək büsbütün yeni və fərqli idarəetmə institutu formalaşdırması cəmiyyət həyatının bütün sahələrinə sirayət etmişdi. O, xüsusi istedad və dövlət zəkası ilə sosializm cəmiyyətinin demokratik inkişafa transformasiyasını qurmağı bacarmışdı.

Ulu Öndərin yaradıcısı olduğu idarəetmə modeli köhnəlmiş forma və strukturların tamamilə yenilənməsinə gətirib çıxardı. Həyata keçirilən islahatlar sayəsində respublika iqtisadiyyatında mühüm struktur dəyişiklikləri aparıldı, Azərbaycan digər respublikalar arasında xammal mənbəyi sayılan aqrar respublikadan inkişaf etmiş sənaye regionuna çevrildi.1969-1982-ci illərdə respublikamızın iqtisadiyyatında ciddi keyfiyyət dəyişikliklərinin baş verməsi nəticəsində güclü sənaye iqtisadiyyatı formalaşdı. 14 il ərzində sənaye müəssisələrinin sayı 1048-ə çatdı. Respublikamızda neft maşınqayırması və neftayırma sənayesinin yenidən qurulması həyata keçirildi ki, bu da müstəqillik dövründə yeni neft strategiyasının uğurla həyata keçirilməsində mühüm təsiredici və həlledici rol oynadı.

Ümummilli Liderin Azərbaycana rəhbərlik etdiyi birinci dövr təkcə iqtisadi yüksəliş, təsərrüfatın bütün sahələrinin inkişafı dövrü kimi deyil, həm də elmin, təhsilin, mədəniyyətin misilsiz tərəqqi illəri kimi yadda qaldı. Azərbaycan dili dövlət dili kimi Konstitusiyaya daxil edilməklə milli-elmi intibahda yeni cığırlar açdı. Dahi liderin uzaqgörən fitri zəkası gələcək müstəqil Azərbaycanın milli ruhunun daşıyıcısı olan vətənpərvər nəsil yetişdirməyə hesablanmışdı. Məhz bu səbəbdən onun başlatdığı milli oyanış hərəkatı sayəsində Milli Dövlət ideyasının arxitekturası quruldu, bu ideoloji təməllər üzərində gənc kadr ordusu formalaşdırıldı. Heydər Əliyev Azərbaycan gənclərinin Sovet İttifaqının ali təhsil müəssisələrində təhsil almalarına dair proqram hazırladaraq həyata keçirtdi, ittifaqın ən aparıcı elm ocaqlarına oxumağa göndərilən gənclərin sayı ilbəil artdı. Əgər 1970-ci ildə respublikadan kənarda təhsil almağa göndərilən tələbə sayı 60 nəfər təşkil edirdisə, bu rəqəm 1975-ci ildə 600 nəfərə, 1982-ci ildə isə 1200 nəfərədək yüksəlmişdi. Ümumilikdə, 1970-1982-ci illərdə keçmiş SSRİ-nin 170-dən çox ən məşhur ali məktəbində 80-dən artıq sahə üzrə 15 minədək azərbaycanlı gənc təhsil alaraq yüksəkixtisaslı mütəxəssis kimi yetişmişdi. Həmin illərdə bünövrəsi möhkəm qoyulmuş milli təhsil strategiyası Azərbaycanın kadr institutunu təsis etməklə azərbaycançılıq ideologiyası və milli ideyasının gerçəkləşməsini təmin etdi.

Ulu Öndərin həmin dövrdə ən mühüm uğurlarından biri milli hərbi kadrları hazırlayan bazanın təməlinin qoyulmasıdır. 1971-ci ildə Cəmşid Naxçıvanski adına ixtisaslaşdırılmış hərbi məktəbin yaradılması, gənclərin Bakı Ali Birləşmiş Komandanlıq və Bakı Ali Hərbi Dənizçilik məktəblərinə, eləcə də SSRİ-nin digər hərbi məktəblərinə güzəştli şərtlərlə təhsilə cəlb edilməsi qətiyyətli iradənin və uzaqgörən hərbi fəhmin məhsulu idi. O, 2002-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseyin kursantları ilə görüşdə bu qürurverici tarixi xatırladaraq qeyd edirdi: "Mən hələ 30 il bundan öncə müstəqillik haqqında - bəlkə də bunu çox az adam düşünə bilərdi, yaxud ağlına gətirə bilərdi, düşünüb hərbi məktəb yaratmışdım. Naxçıvanski adına Hərbi lisey 30 il ərzində Azərbaycana böyük xidmətlər göstəribdir".

Həmin kadr potensialı dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin zabit heyətinin formalaşmasında müstəsna rol oynadı və müstəqil Azərbaycanda peşəkar və nizami ordunun əsas ehtiyat korpusunu təşkil etdi. Həmin milli kadrların varisi olan hərbçilər nəsli isə Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycanın ərazi bütövlüyünü və dövlət suverenliyini təmin etdi.

Ulu Öndərin idarəçilik tərzi genişmiqyaslı proqressiv hərəkata çevrilməklə bütün ittifaq coğrafiyalarına yayılmışdı. Onun SSRİ Nazirlər Sovetinin sədrinin birinci müavini kimi yüksək posta təyin edilməsi, demokratikləşmə və siyasi dünyagörüş konsepti nəhəng bir dövləti əhatə etdi, islahatların mühərrikliyi və çevikliyi xalq təsərrüfatının inkişafını sürətləndirdi. Eyni zamanda Heydər Əliyev inkişafa və cəmiyyətin tərəqqisinə mane olan sovet korrupsiyasına, bürokratizmə qarşı mübarizə apararaq bu halları ifşa edirdi. 1980-ci illərin əvvəllərində onun SSRİ-nin nəhəng media orqanı olan "Literaturnaya qazeta"da "Qoy ədalət Zəfər çalsın" sərlövhəli yazısı ildırım effekti doğurdu. Bu, sovet qanunçuluğunda və idarəetmə aparatında kök salmış bürokratların ifşası, dərin çat verən köhnəlmiş ideologiyanın simasının əsl peşəkarlıq və siyasi ustalıqla nümayişi idi.

Ulu Öndər Kremldə ali hakimiyyətdə təmsil olunduğu dövrdə öz vəzifəsində məsuliyyətlə və vicdanla çalışaraq tabeliyində olan, xüsusilə də nəqliyyat, energetika sahələrinin inkişafında dönüş yaratmışdı. Həmçinin yeni ruhlu çalışqan kadrların iqtisadi şüurundakı qorxunu aradan götürür, korrupsiyanın sədd çəkdiyi nəhəng layihə və proqramların həyata keçirilməsini mümkünləşdirirdi. Heydər Əliyev fədakar fəaliyyəti ilə həm də partokrat elitanın gizlətdiyi iqtisadi cinayətlərin gizlədilməsinin də qarşısını alırdı. 1986-cı ildə SSRİ-ni silkələyən "Admiral Naximov" gəmisində baş vermiş hadisə ilə bağlı dövlət cinayətinin hərtərəfli araşdırılması da məhz Heydər Əliyevin əzmkarlığı, cəsarəti sayəsində mümkün olmuşdu. 400-ə yaxın sərnişinin ölümünə səbəb olmuş qəzanın səbəblərini araşdıran hökumət komissiyasına rəhbərlik edən Heydər Əliyev



müxtəlif təzyiqlərə baxmayaraq, cinayət işinin ədalətli və tam şəffaf araşdırılaraq qərar çıxarılmasına nail olmuşdu. Onun bu prinsipiallığı və geridönməz iradəsi sayəsində onlarca sovet korrupsiya sxeminin və cinayətinin qarşısı alınmışdı.

Heydər Əliyevin qeyri-adi idarəçilik məharəti, nəhəng xarizması ötən əsrin 80-ci illərində kənar qitələrdə etiraf olunurdu. O dövrün xarici media orqanlarında onu "Sovetlərin dəmir müsəlman lideri" adlandırırdılar. Əlbəttə, bu, SSRİ rəhbərliyinin xoşuna gəlmirdi, xüsusilə də Azərbaycana qarşı açıq düşmənçilik siyasəti aparan Qorbaçov hakimiyyətini qıcıqlandırırdı.

Ona qarşı təzyiq və təqiblərin arxasında da bu dayanırdı, çünki Heydər Əliyev Sovet İttifaqının rəhbəri ola bilərdi. Ulu Öndər çirkin siyasi kampaniyalara, Moskvanın ermənipərəst mövqeyinə qarşı barışmaz mövqe nümayiş etdirərək ali hökumət postunu tərk etdi. Yenə də çirkin siyasi oyunlar səngimədi və Azərbaycanın ovaxtkı rəhbərliyi də bu təxribatlara qoşuldu. Heydər Əliyevin Bakıya dönüşünün qarşısını almasaydılar, Ermənistanın torpaqlarımızı işğal etməsi, bir milyon insanın 30 il iztirablı dözülməz həyat sürməsi də mümkün olmayacaqdı. Ümummilli Liderin siyasi fəaliyyətdən və dövlət idarəçiliyindən müvəqqəti olaraq kənarda qalması təəssüf ki, hər iki qüvvənin - ermənilərin və "milli" satqınların çirkin planlarının baş tutmasına səbəb oldu, səriştəsiz və təsadüfi şəxslər hakimiyyətə gələrək cəmi bir il içərisində dövləti çökdürdülər və təcavüzkar Ermənistan bundan istifadə edərək torpaqlarımızın işğalına nail oldu. Lakin anlamırdılar ki, Heydər Əliyev 1970-ci illərdən Azərbaycan xalqının qəlbində əbədi məhəbbət rəmzinə çevrilmişdi, xalq milli xilaskar kimi onu gözləyirdi. Azərbaycanın müqəddəratının, taleyinin çətin anlarında hər zaman o köməyə çatmışdı.

Sözsüz ki, xalqımızın çətin sınaqlarla qarşılaşdığı mürəkkəb anlarda Ulu Öndər kənarda qala bilməzdi. Bu ağır dövrdə vətən fədaisi Bakıya dönə bilməsə də, Naxçıvana gedərək milli dövlətçiliyimizin bərpası və dövlət quruculuğu yönündə inamlı siyasi hərəkatın əsasını qoydu. Ümummilli Lider 1991-ci ildə milli birlik, milli məfkurəni dərinləşdirərək azərbaycanlıları vahid ideya ətrafında birləşdirdi, 1991-ci il dekabrın 16-da Naxçıvan MR-in Ali Məclisi tərəfindən "31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü" elan edilməsi, üçrəngli Azərbaycan bayrağının dövlət rəmzi kimi qəbul olunması müstəqil dövlət ideyasını məntiqi sonluğuna çatdırırdı. 1992-ci il noyabrın 21-də Naxçıvanda Yeni Azərbaycan Partiyasının yaradılması ilə müstəqil Azərbaycanın milli dövlətçiliyinin bərqərar olması istiqamətində həlledici mərhələ başlandı.

Azərbaycanın parçalanmaq və müstəqilliyimizi itirmək təhlükəsi ilə üz-üzə qaldığı tarixi sınaq mərhələsində Ümummilli Lider xilaskarlıq missiyası ilə milli fəlakətin qarşısını aldı, dövlətin müqəddəratını həll etdi. Qurtuluş günü ilə Azərbaycanın yeni müstəqillik tarixi yazılmağa başlandı. Heydər Əliyevin 1993-cü ilin oktyabrında Azərbaycana ikinci dəfə rəhbərlik etməsindən sonra təmin olunan möhkəm sabitlik və əmin-amanlıq landşaftı üzərində ictimai-siyasi, sosial-iqtisadi, mədəni-humanitar həyatın bütün sahələrində genişmiqyaslı demokratik islahatlara başlanıldı. Ulu Öndərin unikal xarici siyasət strategiyası və fəal diplomatiyası nəticəsində dünya ölkələrinin, nüfuzlu beynəlxalq təşkilatların ölkəmizə münasibəti kökündən dəyişdi, Ermənistan-Azərbaycan münaqişəsinin ölkəmizin ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı əsasında həllinə dair qətnamələr qəbul olundu, Ermənistanın işğalçılıq siyasəti ifşa edildi. Azərbaycan nüfuzlu beynəlxalq və regional təşkilatların tamhüquqlu üzvünə çevrilməklə dünya birliyində etibarlı və sadiq tərəfdaş kimi layiqli yerini tutdu, qlobal inteqrasiyaya qoşuldu.1995-ci ildə qəbul olunan müstəqil Azərbaycanın ilk Konstitusiyası ölkəmizin demokratik niyyətini və iradəli islahatlar əzmini təsbit etdi. Əsas Qanun həmçinin Azərbaycanın azad bazar iqtisadiyyatına keçid üçün məramını, dərin iqtisadi islahatlara açıqlığını nümayiş etdirdi. Aparılan islahatlar kursu iqtisadiyyatın strukturunu tamamilə dəyişdirdi, xarici investisiyalar, azad sahibkarlıq üçün münbit sağlam bünövrə qoyuldu, yerli biznesin Avropa və dünya iqtisadiyyatına tranziti üçün dərin zəminlər formalaşdı.

Ulu Öndər həmin dövrdə Azərbaycanın inkişafının əsas vacib faktoru olan neft ehtiyatlarının nəqli üçün xarici şirkətlər ilə əməkdaşlığı zəruri hesab edirdi. Onun tapşırığı ilə iri transmilli şirkətlərin neft sənayesinə cəlbi üçün yüksəksəviyyəli danışıqlar başlandı. Həmin dövrdə Dövlət Neft Şirkətinin vitse-prezidenti vəzifəsində çalışan cənab İlham Əliyev bu gərgin müzakirələrdə birbaşa iştirak edərək "Əsrin müqaviləsi"nin Azərbaycanın milli maraqları və mənafeyinə uyğun hazırlanması və imzalanmasında əzmkar mövqeyini ortaya qoydu, enerji diplomatiyasının uğurla həyata keçirilməsində misilsiz xidmətlər göstərdi.

Beləliklə, 1994-cü il sentyabrın 20-də dünyanın 8 ölkəsindən 11 iri neft şirkəti ilə "Əsrin müqaviləsi" adlanan beynəlxalq saziş imzalandı və bununla Azərbaycanın dünya iqtisadi sisteminə inteqrasiyasının və enerji təhlükəsizliyinin möhkəm təməlləri qoyuldu. Saziş o dövrdə xarici investorlarda Azərbaycanla bağlı yaranmış ümidsizlik və inamsızlıq sindromunu da sındırdı. Məhz Ulu Öndərə olan dərin inam və etibar dünyanın siyasi liderlərinin, nəhəng şirkətlərin rəhbərlərinin Azərbaycanda fəaliyyətə başlaması üçün möhkəm təminat rolunu oynadı. 1999-cu ildə Azərbaycanın ilk mənfəət neftinin dünya bazarlarına nəqli ilə ölkəmizin inkişafında əhəmiyyətli dövr başlandı, dayanıqlı iqtisadi güc formalaşdı. 1995-2003-cü illər ərzində ölkəmizdə ümumi daxili məhsul 95 faiz, dövlət büdcəsinin gəlirləri 3 dəfə artaraq 1,5 milyard manatı ötdü. Ölkənin valyuta ehtiyatları 85 dəfə, xarici ticarət dövriyyəsi 4 dəfə, orta aylıq əməkhaqqı 5,5 dəfə yüksəldi, iqtisadiyyata yönəlmiş investisiyaların ümumi həcmi 20 milyard ABŞ dollarını keçdi. 2003-cü ildə MDB ölkələrində yoxsulluğun səviyyəsi 54-57 faiz təşkil etdiyi halda Azərbaycanda bu rəqəm qat-qat aşağı idi.

Heydər Əliyevin həyata keçirdiyi islahatlar nəticəsində Azərbaycan 2003-cü ildə inkişaf göstəricilərinə görə, MDB-də ilk üçlüyə daxil oldu, Avropa ölkələri arasında 50 inkişaf etmiş dövlətlər qrupunda yer aldı, BMT-nin İnkişaf Proqramının "İnsan inkişafı indeksi"ndə mövqeyini möhkəmləndirdi.

Ulu Öndər ölkəmizin dinamik inkişafı və artan maliyyə arxitekturası üzərində peşəkar və nümunəvi ordu quruculuğunu da möhkəmləndirdi. Ən ali arzusu olan Qarabağın azad edilməsi üçün bütün gücünü, həyatını sərf etdi. O, torpaqlarımızın erməni işğalından mütləq azad olunacağına varlığı qədər dərindən inanırdı. Təəssüf ki, həyat bu müqəddəs missiyanı yerinə yetirməyə imkan vermədi. Ümummilli Lider 2003-cü il oktyabrın 1-də Azərbaycan xalqına müraciətində prezident seçkilərində namizədliyini cənab İlham Əliyevin xeyirinə geri götürdüyünü elan edərkən nikbin bir arxayınlıqla bildirirdi ki, "Mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Onun bu müqəddəs arzusunu 2020-ci ildə siyası məktəbinin ən böyük davamçısı olan Prezident İlham Əliyev ləyaqətlə yerinə yetirdi. 2023-cü il mayın 10-da Ulu Öndərin 100 illik yubileyi münasibətilə zəfərimizin ən uca zirvəsi olan Şuşadan xalqa müraciət edən Ali Baş Komandan İlham Əliyevin çıxışının ən məzmunlu frazası hər kəsi qürurlandırdı: "Tapşırıq yerinə yetirildi. Məruzə edir Ali Baş Komandan İlham Əliyev".

*Bu, müasir Azərbaycanın memarına şərəfli missiyanın uğurla yerinə yetirilməsinə dair ali hesabat, Ata vəsiyyətinin icrasının mükəmməl akkordu idi. Beləliklə, Azərbaycan Ümummilli Lider Heydər Əliyevin təməlini qoyduğu mükəmməl dövlət modeli üzərində inkişaf edir. Prezident İlham Əliyevin peşəkar idarəçiliyi nəticəsində ölkəmiz misli görünməmiş, ən qüdrətli və ləyaqətli dövrünə daxil olub. Azərbaycan bölgədə və dünyada sözünü, imzasını təsdiq edən, hər bir ölkənin hesablaşdığı qüdrətli dövlətə çevrilib.*

**Ramid NAMAZOV,**
***Milli Məclisin deputatı***

## Millətin uğur tarixinin yaradıcısı

**Hər bir xalqın taleyində unudulmaz şəxsiyyətlər olur ki, onlar təkcə tarix yaratmır, həm də gələcəyi yönləndirirlər. Azərbaycan xalqı üçün Ümummilli Lider Heydər Əliyev və onun layiqli davamçısı Prezident İlham Əliyev məhz belə şəxsiyyətlərdəndir. Onlar yalnız dövlət qurmaqla kifayətlənməyiblər, həm də dövlət-xalq birliyinin möhtəşəm modelini yaradıblar.**

Heydər Əliyev Azərbaycanı ən ağır sınaqlardan keçirib, onun müstəqilliyini qoruyub və dövlətçilik ənənələrini yaradıb. Onun rəhbərliyi dövründə yaradılan möhkəm siyasi və iqtisadi əsaslar bu gün Azərbaycanın uğurlarının təməlini təşkil edir. Heydər Əliyevin ideyaları, xalqla birliyi onun siyasətinin ən böyük dəyəri idi.

…1993-cü ilin sərt qış aylarında Naxçıvanın çətinliklər içində boğulduğu vaxt Heydər Əliyevin 16 yaşlı məktəbli qızın - bu sətirlərin müəllifinin məktubuna cavab olaraq onu qəbul etməsi sadəcə bir liderin deyil, bir atanın mərhəmətini və millətinə olan sevgisini göstərirdi. Həmin görüşdə Ulu Öndərin soyuq otaqda, sadə şəraitdə xalq üçün çalışması, hər bir vətəndaşa ümid işığı olmaq əzmini nümayiş etdirdi. Bu görüş yalnız gənc bir qız üçün deyil, xalqımızın gələcəyi üçün də bir simvol idi - lider xalqının hər fərdinə inanır və onların istənilən çətinliyi birlikdə aşacağına əmin olurdu…

Heydər Əliyevin yolunu davam etdirən Prezident İlham Əliyev Azərbaycanın yeni inkişaf mərhələsinin memarı oldu. Dövlət başçısının qətiyyətli siyasəti ölkəmizin yalnız iqtisadi baxımdan deyil, siyasi, hərbi və diplomatik sahələrdə də yüksəlişini təmin etdi.

44 günlük Vətən müharibəsi Azərbaycan xalqının və Prezident İlham Əliyevin dövlət-xalq birliyinin ən parlaq təcəssümü oldu. Bu birlik xalqın gücünü və liderinə inamını nümayiş etdirdi. Qarabağın işğaldan azad edilməsi həm hərbi, həm də diplomatik bir qələbə idi və Azərbaycanın beynəlxalq miqyasda nüfuzunu daha da artırdı.

Prezident İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycan bütün sahələrdə olduğu kimi, ekoloji məsələlərdə də liderliyini təsdiq edib. 2024-cü ildə keçirilən COP29 zirvə toplantısında Azərbaycanın ekoloji problemlərin həllindəki qətiyyətli mövqeyi və iqlim dəyişikliklərinə qarşı qlobal təşəbbüslərdə iştirakını diqqət mərkəzinə gətirdi. Prezident İlham Əliyevin bu sahədə təqdim etdiyi "Yaşıl enerji" strategiyası Azərbaycanın regionda və dünyada ekoloji lider kimi tanınmasını təmin etdi.

Azərbaycanın bərpaolunan enerji mənbələrinə keçidi və qlobal enerji təhlükəsizliyinə töhfələri həm ekoloji, həm də iqtisadi baxımdan ölkəmizin gələcəyini təmin edir. Bu, dövlətin və xalqın birgə fəaliyyətinin nəticəsidir - Heydər Əliyevin qoyduğu təməllərin və İlham Əliyevin həyata keçirdiyi siyasətin mükəmməl sintezidir.

Azərbaycanın əldə etdiyi bütün uğurların əsasında dövlət-xalq birliyi dayanır. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə həmrəylik, inam və qarşılıqlı dəstək mühiti mövcuddur. Xalqın liderinə olan sevgisi və liderin xalqına olan bağlılığı bu modeli misilsiz edir.

Ulu Öndər Heydər Əliyevin söylədiyi kimi: "Xalq dövlətin dayağıdır". Bu gün Azərbaycan xalqı dövlətin dayağı olmaqla yanaşı, həm də onun uğurlarının əsas təminatçısıdır.

Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin ideyalarına sadiq qalaraq Azərbaycanın müasir dövrün çağırışlarına cavab verən güclü bir dövlətə çevrilməsini təmin edib. Dövlət və xalqın birliyi ilə əldə olunan yüksək uğurlar Azərbaycanın gələcəyini parlaq edir.

Liderlər tarix yaradırlar, lakin yalnız xalqı ilə birlikdə bu tarixi əbədi edə bilirlər. Heydər Əliyev və İlham Əliyev isə bu əbədiliyin memarlarıdır…

**Sevinc ABBASOVA,**
***Naxçıvan Dövlət Universitetinin dosenti,***
***tarix elmləri doktoru***

**Azərbaycanın özü qədər əbədi**

# Ümummilli Liderin səhiyyəmizin inkişafında rolu danılmazdır



**Ulu Öndərin Azərbaycanda hakimiyyətə ilk gəlişi durğunluq dövrünə təsadüf etmişdi. Cəmiyyətin hər sahəsində olduğu kimi, səhiyyədə də əvvəlki dövrlərdə əldə edilən uğurlar ətalətlə öz nəticələrini göstərirdi. Diqqətli müşahidəçi bu sahədə vəziyyətin heç də yaxşı olmadığını, səhiyyənin maddi-texniki bazasının acınacaqlı olduğunu görürdü. İmmunlaşdırma, bir sıra infeksion xəstəliklər, o cümlədən vərəm, malyariya, difteriya, poliomielit, məxmərək, narkomaniya, ana və uşaq sağlamlığı, kadr çatışmazlığı və mövcud kadrların səviyyəsi və s. bütün bunlar Azərbaycan səhiyyəsində öz həllini gözləyən problemlərin yalnız bir hissəsi idi.**

Məhz elə buna görə də 1969-cu ilin avqustunda keçirilmiş tarixi plenumda Azərbaycanda səhiyyənin inkişaf sürətini prinsipcə dəyişmək qarşıya vəzifə kimi qoyulmuşdu. Respublikanın yeni rəhbərinin bu sahədə tərəqqiyə nail olmaq əzmi özünü çox qısa bir müddətdə göstərdi. Azərbaycanda hər sahədə vəziyyəti yaxşılaşdırmaq üçün var qüvvə ilə çalışmağa başlayan Heydər Əliyevin əsas fəaliyyət istiqamətlərindən biri də məhz səhiyyə oldu.

Səhiyyə məsələləri ilə bağlı müzakirələr, qayğılar, təşəbbüslər Ulu Öndərin gündəlik həyatının bir parçasına çevrilmişdi. Səhiyyənin ağrılı problemləri, zəif nöqtələri ilə yaxından tanışlığı sonralar Heydər Əliyevin vəziyyəti düzgün təhlil etməsində və situasiyanı kökündən dəyişmək üçün doğru qərarlar qəbul etməsində əsas rol oynadı. Tale elə gətirmişdi ki, Ulu Öndərin ailəsindəki həkimlər, xüsusən ömür-gün yoldaşı, görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyeva da o dövrdə təbabət qarşısında duran başlıca problemlər üzərində düşünür, həlli yollarını axtarırdı. Onlar insanların sağlamlığı ilə bağlı ən ağrılı məsələləri Heydər Əliyevlə birgə müzakirə edir, tibbi-sosial problemlərdən mümkün çıxış yollarını arayanda bu müdrik rəhbərlə məsləhətləşirdilər.

Ulu Öndər tərəfindən səhiyyə sistemində islahatların təşkili və aparılması məqsədilə Hökumət Komissiyasının yaradılması da bu sahədəki addımların səmərəliliyinə xidmət etmişdir. Bu islahatlar həm də Azərbaycanın sosial dövlətə çevrilməsi yolunda ilk mütərəqqi addımlar olmuşdur.

Təbii ki, islahatların uğur qazanmasında, ümumiyyətlə, hər bir sahənin inkişafında təkmil qanunvericilik bazasının olması əsas şərtlərdən biridir. Bu baxımdan Heydər Əliyevin qanunvericilik təşəbbüsü ilə Milli Məclisdə qəbul edilən "Əhalinin sağlamlığının qorunması haqqında", "Qan və onun komponentlərinin donorluğu haqqında", "Əczaçılıq fəaliyyəti haqqında", "Tibbi sığorta haqqında", "Xüsusi tibbi fəaliyyət haqqında", "Özəl tibb fəaliyyəti haqqında", "Sanitar-epidemioloji sağlamlıq haqqında" qanunlar mükəmməl səhiyyə qanunvericiliyini formalaşdırmaqla yanaşı, islahatların da uğurlarını təmin etmişdir.

Heydər Əliyevin səhiyyənin inkişafı üzrə tədbirlər kompleksinin əsas məqamlarından biri mövcud səhiyyə ocaqlarının abadlaşdırılması, yeni tibb müəssisələrinin tikilməsi idi. 1970-ci illərdə bir sıra bölgələrdə tibb müəssisələri yararsız binalarda yerləşirdi. 1970-1980-ci illərdə respublikada bir çox mühüm səhiyyə obyekti inşa edildi. Təkcə uşaq poliklinikalarının sayı 1970-1975-ci illərdə 150-dən 185-ə çatdırıldı. Yeni istifadəyə verilən səhiyyə müəssisələri arasında Uroloji Kliniki Xəstəxana, Neyrocərrahiyyə, Toksikologiya, Yanıq mərkəzləri kimi tibb ocaqları var idi. Elmi-Tədqiqat Oftalmologiya və Elmi-Tədqiqat Onkologiya institutları üçün yeni binalar da o zaman tikilməyə başladı.

Heydər Əliyevin səhiyyə sahəsinə diqqəti və onun inkişafı üçün gördüyü işlər Azərbaycanı tezliklə yalnız ümumittifaq miqyasında deyil, həm də beynəlxalq arenada qabaqcıl mövqelərə çıxardı. Belə ki, 1970-ci ildə Ümumdünya Səhiyyə Təşkilatının regionlararası seminarının, 2 il sonra isə Beynəlxalq Tibbi Avadanlıqlar Sərgisinin məhz Bakıda keçirilməsi respublikamızın bu sahədə artan rolundan xəbər verirdi. Sonralar ölkəmizin bu cür tədbirlərə evsahibliyi etməsi artıq ənənəvi hal almışdı.

Ulu Öndər əhalinin sağlamlıq durumu üçün çox böyük əhəmiyyət daşıyan və o dövrdə çox aktual problem olan Bakı, Gəncə və Sumqayıt şəhərlərinin sanitar-gigiyena vəziyyəti, Xəzərin və digər su hövzələrinin sanitar durumu, müxtəlif sənaye sahələrində çalışan işçilərin əmək şəraiti, peşə patologiyaları və sənaye toksikologiyası məsələlərinə, həmçinin yoluxucu xəstəliklərlə, alkoqolizm və narkomaniya ilə mübarizə, onların profilaktikası, dərman çatışmazlığı probleminin həlli kimi sahələrə böyük diqqət ayırırdı. O dövrdə məhz respublika rəhbərliyinin səyləri, gördüyü tədbirlər sayəsində Azərbaycanda peşə xəstəlikləri 25 faiz azalmışdı.

Heydər Əliyevin müstəqil Azərbaycan səhiyyəsi qarşısındakı xidmətlərindən danışarkən isə səhiyyə islahatları proqramının hazırlanması və icrasını xüsusi qeyd etmək lazımdır. Ölkə rəhbərinin "Səhiyyə sahəsində islahatlar üzrə Dövlət Komissiyasının yaradılması barədə" 13 mart 1998-ci il tarixli sərəncamı səhiyyənin bütün sahələrini əhatə edən islahatların daha geniş miqyasda və sürətlə aparılması üçün şərait yaratdı.

Ümummilli Liderin səhiyyə siyasətinin prioritet istiqamətlərindən biri də keçid dövründə bu sahədə mütərəqqi dəyişikliklərin aparılması və yeni səhiyyə sisteminin qurulması idi. Məhz bu məqsədlə 1994-cü ildə Azərbaycanla BMT-nin Uşaq Fondu arasında Əməkdaşlıq Proqramı imzalandı. Həmin sənədə uyğun olaraq uşaq ölümünün digər bölgələrə nisbətən yüksək, sağlamlıq göstəricilərinin isə aşağı səviyyədə olduğu Quba rayonunda islahatlara başlamaq qərara alındı. Sonralar həmin proqramın icrası sayəsində Masallı, Lənkəran, Cəlilabad və Salyan rayonlarında da böyük uğurlar əldə olundu.

Müstəqilliyin ilk illərində səhiyyənin maliyyələşdirilməsi, daha dəqiq desək, ona lazımi səviyyədə maliyyə vəsaiti ayırmaq imkanının olmaması ən çox narahatlıq doğuran problemlərdən biri idi. Məhz buna görə də Heydər Əliyev həm səhiyyəyə əlavə vəsait cəlb etmək, həm də bazar iqtisadiyyatına keçid dövrünü yaşayan ölkəmizdə səhiyyəni bir fəaliyyət növü kimi liberallaşdırmaq üçün özəl səhiyyə sisteminin tətbiqinə şərait yaratdı. Onun bilavasitə göstərişlərinə əsasən, bu istiqamətdə hüquqi-normativ baza olan "Özəl tibb fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edildi. Ulu Öndərin ölkəmizdə səhiyyə sahəsində həyata keçirdiyi islahatlar çərçivəsində ən mühüm xidmətlərindən biri olan özəl səhiyyə sisteminin tətbiqi həm də tibb işçilərinin maddi rifah halının yaxşılaşması üçün imkanlar açdı. Xüsusi mülkiyyətdə olan tibb müəssisələrində 10 min nəfərədək işçi, o cümlədən 2500 həkim və 4000 orta tibb işçisi işlə təmin edildi. Özəl və dövlət tibb müəssisələri arasında rəqabət yaranması sayəsində əhaliyə göstərilən tibbi xidmətin səviyyəsi yüksəldi, bu isə səhiyyəmizin gələcək inkişafı üçün təkan oldu.

2004-cü ildən bəri respublikamızda 750-dən çox tibb müəssisəsinin tikilməsi və ya əsaslı şəkildə təmir edilməsi səhiyyənin inkişafı ilə bağlı işlərin nə qədər möhtəşəm olduğunu göstərir. Bu müəssisələrin açılışında Prezident İlham Əliyevin şəxsən iştirakı isə gözəl ənənəyə çevrilmişdir.

İndi qürur hissi ilə qeyd etməliyik ki, Azərbaycan səhiyyəsi özünün yeni inkişaf mərhələsini yaşayır. Hazırda elə bir şəhərimiz yoxdur ki, orada müasir tibb müəssisəsi olmasın. Belə səhiyyə ocaqlarında vətəndaşlarımıza ən yüksək standartlar səviyyəsində tibbi xidmətlər göstərilir.

Bu dövrdə kadr hazırlığında da baş verən keyfiyyət dəyişiklikləri, tibbi personalın peşəkarlığının yüksəlməsi səhiyyəmizin uğurlarından sayılmalıdır. 2020-ci ilin mart ayında "Yeni klinika"nın açılışında Prezident İlham Əliyev bu barədə demişdir: "Eyni zamanda onu da bildirməliyəm ki, son illərdə həkimlərin peşəkarlığı böyük dərəcədə artıb. İndi təsəvvür etmək olmur ki, 10-15 il bundan əvvəl Azərbaycanda çox çətin əməliyyatların həyata keçirilməsi mümkünsüz idi. Bu gün isə bizim həkimlərimiz ən çətin əməliyyatları aparırlar, insanları həyata qaytarırlar, neçə ildir ki, açıq ürək, orqanların transplantasiyası əməliyyatları keçirilir".

Səhiyyə müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, tibb işçilərinin ixtisas səviyyəsinin artması nəticəsində indi əhalinin dövlət tibb müəssisələrinə etibarını daha da artırmışdır. Məhz belə tədbirlərin nəticəsidir ki, ölkəmizdə müalicəsi mümkün olmayan bir çox mürəkkəb xəstəlik bu gün klinikalarımızda müalicə edilir.

Əsas uğurlarımızdan biri də artıq 4 ildir ki, icbari tibbi sığortanın tətbiqidir. Əhalinin sağlamlığının qorunmasına xidmət edən icbari tibbi sığorta sisteminin yaradılması bir daha təsdiq edir ki, dövlətin sosial siyasətinin mərkəzində ilk növbədə insan amili dayanır.

Səhiyyədə əldə edilən uğurlarda, bu sahədə dövlət proqramlarının reallaşdırılmasında, tibb ocaqlarının yenidən qurulmasında Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun müstəsna xidmətləri var. "Diabetli uşaqlara ən yüksək qayğı", "Talassemiyasız həyat naminə", "Tibb müəssisələrinin yenidən qurulması və inşası" kimi layihələr respublikamızda vətəndaşların sağlamlığının qorunmasına böyük töhfələr vermiş, ana və uşaqların sağlamlığına xidmət etmişdir.

Ümummilli Liderin əsasını qoyduğu uğurlu inkişaf strategiyası bu gün Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilir. Yeni tibb müəssisələrinin istifadəyə verilməsi, bütün mövcud xəstəxana və poliklinikaların yenidən qurulması, modernləşdirilməsi, ən müasir avadanlıqlarla təchiz olunması, səhiyyə işçilərinin sosial vəziyyətinin yaxşılaşdırılması Azərbaycan səhiyyəsinin yüksəlişdə olmasının bariz nümunəsidir.

*Azərbaycan həkimləri öz fəaliyyətlərində Heydər Əliyevin qurduğu ölkəyə ləyaqətlə xidmət etməklə ilk növbədə onun ölməz ideyalarına sədaqət nümayiş etdirməlidirlər. Bu, səhiyyə işçilərinin Ulu Öndərə əbədi vəfa borcudur.*

**Mirhaşim CALALOV,**
***tibb üzrə fəlsəfə doktoru,***
***Vətən müharibəsi iştirakçısı***

# Ulu Öndərin öyüdü

## Azərbaycanlı olmaqla fəxr etmək hər birimizin borcudur

**Öz möhtəşəm fəaliyyəti ilə doğma Azərbaycanımızın adını əlçatmaz zirvələrə ucaltmış Heydər Əliyev hər birimizin qəlbində yaşayır. Biz bu gün fəxrlə deyə bilərik ki, Ümummilli Lider Heydər Əliyevin qurduğu müstəqil, demokratik və azad, eyni zamanda qalib bir ölkənin vətəndaşlarıyıq!**

Ulu Öndər Heydər Əliyev azərbaycanlı olmağını özünün qürur mənbəyi hesab edirdi: "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" deyərək milli qürur hissini, vətənpərvərliyin ən böyük nümunəsini, ən dəyərli sözünü ifadə etmişdir. "Mən Azərbaycanlı kimi dünyaya gəldiyimə, Azərbaycan dilində danışdığıma, Azərbaycan kimi vətənim olduğuna, Azərbaycanı təmsil etdiyimə görə özümü xoşbəxt saymışam" söyləyərək xalqını, vətənini öymüş, bundan qürurlanmışdır. Bu gün Azərbaycan xalqı da fəxr edir ki, onun Heydər Əliyev kimi qüdrətli, həmişəyaşar Ulu Öndəri var.

Müstəqil Azərbaycan dövlətçiliyinin təməlini qoymuş Ümummilli Liderimiz deyirdi: "Mənim tərcümeyi-halım Azərbaycana həsr etdiyim həyatım, fəaliyyətim, əməllərimdir". Onun üçün Vətən hər şeydən üstün idi. Doğma Azərbaycanımızı böyük məhəbbətlə sevən bu dahi şəxsiyyət "Anam məni Azərbaycan üçün dünyaya gətirib" söyləyirdi və həyatını onun yolunda sərf edərək bunu bir insan ömrünə sığmayan ölçüyəgəlməz fəaliyyətində sübut etdi.

Azərbaycanı canı qədər sevən, onu müstəqil və daim inkişafda görmək istəyən, adı Vətən simvoluna çevrilmiş Heydər Əliyevin mənalı ömür yolunun hər anı təlim-tərbiyəsi ilə məşğul olduğumuz bugünkü və gələcək nəsillərə, millətini, vətənini sevən hər kəsə ibrət məktəbi olmalıdır. Onun dövlətçilik, vətənpərvərlik, dil, mədəniyyət, vicdan azadlığı, iqtisadiyyat, elm konsepsiyaları bugünkü inkişafımızın təməlini təşkil edir. Bu dahi şəxsiyyətin Vətən sevgisi gənclərimizin vətənpərvərlik tərbiyəsində əvəzsiz örnəyə çevrilmişdir. Onun fikrincə, vətənpərvərlik hissi tariximizə, doğma torpaqlarımıza bağlılıqdan, onları düşmənlərdən qorumaqdan başlayır: "Hər bir vətəndaş vətənpərvər olmalıdır. Əgər öz vətənini, torpağını, xalqını sevməsən, öz xalqının mənəvi dəyərlərinə sadiq olmasan, şübhəsiz ki, başqa şeyləri də qiymətləndirə bilməzsən. İndi bizim əsas vəzifəmiz gənclərdə vətənpərvərlik ruhunu, milli ruhu, döyüş ruhunu qaldırmaqdır. Vətəni, torpağı müdafiə etmək hər bir gənc üçün müqəddəs vəzifə olmalıdır".

Heydər Əliyev öz parlaq siyasi zəkası və istedadı sayəsində müstəqil Azərbaycanı, onun bugünkü gerçəkliklərini yaratdı və gələcəyə aparan yolları müəyyən etdi. Azərbaycanlı olmağın nə demək olduğunu, onun müqəddəs mənasını böyük ustalıqla xalqımıza çatdırdı: "Hər bir insan ilk növbədə anasını, vətənini, torpağını, millətini sevməli, bu hisslərlə yaşamalıdır. Vətənini, torpağını, dövlətini, öz müstəqil Azərbaycanını qorumaq öz ata-anasını qorumaq deməkdir, evini qorumaq deməkdir. Xalqımızın, Vətənimizin, respublikamızın taleyi hər bir insanın taleyinə çevrilməlidir".

Ümummilli Lider Heydər Əliyev hər zaman xalqımızın istənilən vaxt işğal altında olan torpaqlarımızı azad edə biləcəyini əminliklə söyləyirdi. Çünki bu millət üçün Vətən, torpaq anlayışının müqəddəs olduğunu, ulu babalarımızın Vətən torpağının hər qarışını qeyrət simvolu kimi qoruduğunu, onun yolunda öz canlarını, övladlarını qurban verməkdən çəkinmədiklərini bilirdi. Onun ən böyük arzusu qurub-yaratdığı müstəqil Azərbaycanın ərazi bütövlüyünün bərpası idi.

Heydər Əliyevin məqsədyönlü siyasəti nəticəsində beynəlxalq aləmdə Ermənistan işğalçı dövlət kimi rəsmən tanındı. Azərbaycanın ərazi bütövlüyünün toxunulmazlığı dəfələrlə beynəlxalq sənədlərdə öz əksini tapdı. BMT Təhlükəsizlik Şurası tərəfindən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair 4 qətnamə qəbul edildi. Bu sənədlərdə Azərbaycan ərazilərinin işğalı faktı təsdiq edilərək o zaman Dağlıq Qarabağ adlandırılan doğma ata-baba torpaqlarımızın Azərbaycanın tərkib hissəsi olduğu vurğulanırdı və işğalçı qüvvələrin torpaqlarımızdan dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılması tələb edilirdi. Ermənistan BMT Təhlükəsizlik Şurasının bu qətnamələrinin şərtlərini yerinə yetirməsə də, Azərbaycan Ermənistan üzərində diplomatik qələbə qazandı.

Ulu Öndərin vəsiyyəti belə idi: "Azərbaycan xalqının gücü bir yerə toplanmalıdır, hamı bir hədəfə vurmalıdır…" Bəli, dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında güclənən, daha da sıx birləşən Azərbaycan xalqı öz gücünü, iradəsini bir yerə topladı və "dəmir yumruğ"a çevrildi. Bu, Zəfərə gedən bir yol idi. 2020-ci ilin 27 sentyabrından 8 noyabrına doğru gedən bu yol cəmi 44 gün, 2023-cü ilin sentyabr ayında Qarabağda həyata keçirilən lokal xarakterli antiterror tədbirləri 23 saat 54 dəqiqə çəkdi. Heydər Əliyevin zəngin siyasi irsinə, dövlətçilik ənənələrinə və xalqımızın iradəsinə söykənən Azərbaycan Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə dünyaya səs salan şanlı Qələbəmiz nəticəsində torpaqlarımız işğaldan azad edildi, haqq-ədalət öz yerini tapdı. Heydər Əliyevin başa çatdıra bilmədiyi böyük arzusunu möhtərəm Prezident İlham Əliyev uğurla həyata keçirdi. Müzəffər Azərbaycan Ordusunun Qarabağın ürəyini - qədim Şuşamızı azad etdiyi gün Ali Baş Komandan İlham Əliyev Şəhidlər xiyabanından xalqımızı təbrik edərkən bu məsələyə də toxundu: "...Mən bu gün eyni zamanda Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun, Azərbaycan!"

Təsəvvür belə etmədiyimiz tarixi günləri yaşadıq. Otuz il görmək istədiyimiz, amma görə bilmədiyimiz kənd və şəhərlərdə artıq Azərbaycan bayrağı dalğalanır. Azərbaycan xalqı öz tarixini bu möhtəşəm Qələbə ilə şərəfləndirdi, dünyaya öz gücünü, haqqı uğrunda mübarizə aparmaq əzmini nümayiş etdirdi. Azərbaycan əsgəri düşmənin üzərinə ölümdən belə çəkinmədən hünərlə, cəsarətlə yürüdü. Bu yolla şəhidlik zirvəsinə ucaldı. Şəhid anaları torpaqlarımızın azadlığı naminə canından keçən övladlarının ucaldıqları zirvəni, Şəhid adını qürur mənbəyi olaraq qəbul etdi, şəhidlərimizin cənazələrinə sarılmış üçrəngli bayrağımızı öpüb gözlərinin üstünə qoyaraq "Təki Vətən sağ olsun" dedilər.

Bizim həyatımız, övladlarımızın, nəvələrimizin, hələ doğulmamış hər bir azərbaycanlının gələcəyi vətənimizə Böyük Qələbəni bəxş etmiş bu insanların birbaşa xidmətləridir. Bunu dərk etmək, qəlbimizlə hiss etmək və nəsildən-nəslə ötürmək biz müəllimlərin müqəddəs vəzifəsidir. Bu həm də bizim vətəndaş məsuliyyətimizdir.

Azərbaycanın bugünkü və gələcək nəsillərinin Heydər Əliyevin şərəfli adı və ölməz ruhu qarşısında müqəddəs borcu müstəqil Azərbaycan dövlətinin daha da çiçəklənməsi və qüdrətlənməsi naminə fədakarlıqla çalışmaq, xalqımızı xoşbəxt gələcəyə doğru aparan Müzəffər Ali Baş Komandanımızın, Prezident İlham Əliyevin ətrafında sıx birləşmək, Vətən müharibəsinin tarixi yaddaşını qoruyub saxlamaq, bu qələbəni bizə bəxş edən şəhidlərimizi unutmamaq, qazilərimizə hörmət və ehtiram göstərməkdir. Azərbaycanlı olmaqla fəxr etməkdir!

**Nüşabə SEYİD,**
***pedaqogika üzrə fəlsəfə doktoru***

*Azərbaycanın özü qədər əbədi*

# Ulu Öndərin təşəbbüsü ilə...

## Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzi tərəfindən əlilliyi olan vətəndaşlarımıza yüksək səviyyədə xidmət göstərilir





**"Cəmiyyətimizdəki məhrumiyyətlərə məruz qalmış bütün insanlara, xüsusən müharibə əlillərinə kömək etmək, onların yaşaması, əmək fəaliyyəti ilə məşğul olması üçün şərait yaratmaq, onların şikəstliyini aradan götürmək başlıca vəzifəmizdir".**

**Bu fikirləri 1995-ci il yanvarın 17-də Ulu Öndər Heydər Əliyev Respublika Protez-Ortopedik Bərpa Mərkəzinin (indiki Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzi) açılışı zamanı kollektiv ilə görüşdə səsləndirmişdi. Əhalinin həssas qruplarından olan üzvlərinə hər zaman xüsusi diqqət və qayğı ilə yanaşan Ulu Öndər həmçinin vurğulamışdı ki, insanların, dövlətin, cəmiyyətin fiziki, ruhi cəhətdən müəyyən məhrumiyyətlərə uğramış adamlara qayğısı həmişə yüksək səviyyədə olmalıdır.**

Ümummilli Lider Heydər Əliyevin 29 il əvvəl söylədiyi və ölkəmizdə fiziki məhdudiyyətli şəxslərin hərtərəfli dövlət qayğısı ilə təmin olunmasının nə qədər vacib olmasına diqqət yönəldən bu fikirləri həm də sonrakı dövrdə əlilliyi olan vətəndaşlarımıza göstərilən hərtərəfli diqqət və qayğının istinadgahı, mayakı oldu.

### Böyük hami

Ulu Öndər Heydər Əliyev Azərbaycanda ilk dəfə hakimiyyətə gəldiyi illərdən etibarən ölkəmizdə sosialyönümlü islahatlar həyata keçirmiş, əlillərin rifahının yaxşılaşdırılması, onların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm işlər görmüşdür. Elə yuxarıda sözügedən Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzinin yaranma ideyasını da ötən əsrin 80-ci illərində məhz fiziki məhdudiyyətli vətəndaşlarımızın böyük hamisi Heydər Əliyev irəli sürmüşdür. 1980-ci illərin sonlarından etibarən ölkədə gedən proseslər bu mərkəzin tikintisini ləngitsə də, sonradan davam etdirilib. 1995-ci ildə Ulu Öndər Heydər Əliyevin iştirakı ilə Protez-Ortopedik Bərpa Mərkəzinin açılışı olub. Həmin zamandan əlilliyi olan vətəndaşlarımızın protezlərlə təminatını həyata keçirən mərkəz günümüzdə fəaliyyətini daha da təkmilləşdirilmiş formada davam etdirir.








2019-cu ildə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzi Prezident İlham Əliyevin tapşırığı əsasında yenidən qurulub. Mərkəzdə müasir tələblərə uyğun şərait yaradılıb, avadanlıq, reabilitasiya aparatları yenilənib. Reportaj üçün yollandığımız Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzinin direktoru Asif Məcidov söylədi ki, 1995-ci ildə Ulu Öndərin iştirakı ilə açılışı həyata keçirilən mərkəz həmin dövrdə həm istehsalat sahəsindən, həm də mürəkkəb protezləşmə stasionarından ibarət olub. Hazırda isə mürəkkəb protezləşmə stasionarı Bakı Reabilitasiya Mərkəzi kimi fəaliyyət göstərir və bu mərkəzin əlilliyi olan şəxslərin protezlə təmin olunması prosesində xüsusi rolu var.

A.Məcidov rəhbərlik etdiyi mərkəzin əlilliyi olan şəxslərə protez-ortopedik bərpa xidməti göstərən istehsalat müəssisəsi olduğunu qeyd edərək məlumat verdi ki, mərkəz müasir texnologiya əsasında əlilliyi olan şəxslər üçün protez-ortopedik məhsulların (protez, ortez, korset, ortopedik ayaqqabı) və digər reabilitasiya məmulatlarının istehsalı istiqamətində fəaliyyət göstərir. Burada əlilliyi olan şəxslər təkərli oturacaqlar, qoltuqaltı və dirsəkaltı ağaclar, əsa, eşitmə aparatları və sair ilə təmin edilirlər.

"44 günlük Vətən müharibəsindən sonra yaralı qazilərimizin yüksək texnologiyalı protezlərlə təmin olunması ölkə rəhbərliyi tərəfindən xüsusi tapşırıq kimi qarşıya qoyulub. Bu məqsədlə Nazirlər Kabinetinin 2020-ci ilin dekabrında verdiyi müvafiq qərarlara uyğun olaraq reabilitasiya vasitələrinin siyahısı və onların verilmə qaydaları təsdiq edilib" deyən direktor söylədi ki, hazırda həmin qərardan irəli gələrək, xüsusi səbəbdən əlilliyi olan, yəni əksəriyyəti Birinci və İkinci Qarabağ müharibələri iştirakçısı olan amputant vətəndaşlarımızın protezlə təmini həyata keçirilir. Eyni zamanda iki və daha çox əzasını itirən digər vətəndaşlarımız da dövlət vəsaiti hesabına yüksək texnologiyalı protezlərlə təmin olunurlar.

### 600 yüksəktexnologiyalı protez, 61,7 min reabilitasiya vasitəsi

2024-cü ilin son 11 ayının sosial göstəricilərinə əsasən, mərkəz tərəfindən 11,2 min nəfər əlilliyi olan şəxsə 87,7 min reabilitasiya vasitəsi verilib.

Ümumilikdə postmüharibə dövründə müharibə ilə əlaqədar əlilliyi olan 490 hərbçiyə 600 yüksəktexnologiyalı protez, 2 249 müharibə əlilinə 61,7 min reabilitasiya vasitəsi verilib.

Vurğulanası məqamlardan biri isə protezlə təmin edilmiş müharibə iştirakçıları arasında futbol turniri, qaçış yarışı, paravelosiped yürüşü, stolüstü tennis yarışı keçirilməsidir.

Asif Məcidov dedi ki, əvvəlcə 57 adda reabilitasiya vasitəsinin əlilliyi olan şəxslərə verilməsi nəzərdə tutulurdusa, müvafiq qanuna edilən dəyişikliyə əsasən, bu ilin iyun ayından etibarən həmin vasitələrin sayı 130-a çatdırılıb: "Bu həm Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, həm Ümumdünya Səhiyyə Təşkilatının, həm də əlilliyi olan şəxslərin birgə təşəbbüsü nəticəsində formalaşmış siyahıdır. Mərkəz əlilliyi olan şəxsləri ehtiyac duyduqları 130 adda reabilitasiya vasitəsilə təmin edir, eləcə də əsas iki istiqamətdə istehsal həyata keçirilir: ayaqqabı, bir də protez-ortez istehsalat sahəsi. Digər vasitələr - əsa, qoltuqaltı, çəlik, arabalar, qulaq aparatlarını isə hazır şəkildə alıb əlilliyi olan şəxslərə təqdim edirik. Protez təminatında Almaniyanın nüfuzlu "Ottobock" və İslandiyanın "Össür" şirkəti ilə əməkdaşlıq edirik. Mərkəzimiz ISO sertifikatı (Protez avadanlıqlarının idarəedilməsi sistemi) əldə edib. Bu sertifikat öz unikallığı ilə seçilir. Beynəlxalq ISO standartlarının tətbiqi vətəndaşlara göstərilən xidmət səviyyəsinin daha da yüksəldilməsinə, onların müraciətlərinə operativ reaksiyanın verilməsinə, idarəetmədə şəffaflığın təminatı və protez məmulatların istehsalının keyfiyyətinin artırılmasına zəmin yaradır".

İnklüziv mühitin dəstəklənməsi, o cümlədən eşitmə və nitq məhdudiyyətli şəxslərə göstərilən xidmət səviyyəsinin yüksəldilməsi məqsədilə əməkdaşların işarət dilindən istifadə bacarıqlarına malik olmaları xüsusi əhəmiyyət kəsb edir. Öyrəndik ki, mərkəzdə Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin əməkdaşları eşitmə və nitq məhdudiyyətli şəxslərlə işarət dilinin köməyi ilə ünsiyyət qururlar. Əməkdaşların işarət dilindən istifadəsi üçün onlara təlimlər keçirilib.

### "Ayağıma protez taxıldıqdan sonra hətta futbol da oynaya bilirəm"

- Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzində həmsöhbət olduğumuz İkinci Qarabağ müharibəsi qazisi Zamir Qədimov 15 ilə yaxın hərbçi kimi fəaliyyət göstərib. Qusar rayonunun Yuxarı Zeyxur kəndindən olan Zamir 44 günlük Vətən savaşında da qəhrəman döyüşçülərimizin sırasında olub. O, Murov, Ağdərə, Suqovuşan, Talış, Tapqaraqoyunlu istiqamətlərində düşmənlə döyüşüb. Murov istiqamətində piyada əleyhinə minaya düşməsi nəticəsində Zamir Qədimovun sağ ayağının topuqdan yuxarı üçdəbir hissəsi amputasiya olunub: "2021-ci ilin iyun ayında ilk dəfə bu mərkəzə gəldim. Burada məni yüksək texnologiyalı protezlə təmin etdilər. Əvvəlcə protezə öyrəşə bilmirdim, amma buranın kollektivinin dəstəyi ilə tezliklə ona öyrəşdim. Hər 6 aydan bir mərkəzə gəlib həm protezlə, həm də digər reabilitasiya vasitələri ilə təmin olunuram".

Geniş və işıqlı otaqda qaçış trenajorunda sağ ayağında protez olan bir gəncin böyük səy və həvəslə məşq etməsi diqqətimizi çəkdi. Yaxınlaşıb söhbət etdikdə öyrəndik ki, Bəşir Məmişov da İkinci Qarabağ müharibəsi qazisidir. Beyləqan rayonundan olan 36 yaşlı gənc 16 il Xüsusi Təyinatlı Qüvvələrdə xidmət edib. Vətən müharibəsində haqq savaşımız uğrunda irəli atılan və cəsur Azərbaycan oğulları ilə birgə düşməni torpaqlarımızdan qovan Bəşir Məmişov Cəbrayılın, Füzulinin, Xocavəndin, Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. O, Qubadlı uğrunda gedən döyüşlərdə minaya düşərək qazi olub. Dizdən aşağı sağ ayağı amputasiya olunan qazi 2021-ci ildən Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzinə gəlir: "Mərkəzə gəldiyim ilk gündən təkcə özümə yox, bura üz tutan bütün əlilliyi olan vətəndaşlarımıza qarşı əməkdaşlar tərəfindən göstərilən yüksək diqqət və qayğının şahidi olmuşam. Burada bizi ehtiyacımız olan bütün reabilitasiya vasitələri ilə təmin edirlər. Eyni zamanda protezə öyrəşmə mərhələsində də əllərindən gələn dəstəyi göstərirlər. Ayağıma qoyulan protez də yüksək səviyyədədir. Onunla rahat hərəkət edirəm, hətta futbol da oynaya bilirəm".

Sumqayıt şəhərindən bu ünvana üz tutan 69 yaşlı Səxavət Cəfərovun şəkər xəstəliyi səbəbindən sağ ayağı dizdən aşağı amputasiya olunub. Bu mərkəzdə əlil vətəndaşlara böyük diqqət və qayğı göstərildiyini vurğulayan Sumqayıt sakini dedi ki, hər kəs kimi onu da burada keyfiyyətli reabilitasiya vasitələri və protezlə təmin ediblər: "Protezi geyinəndə əvvəlcə əziyyət çəkirdim deyə məni Bakı Reabilitasiya Mərkəzinə yönləndirdilər, 15 gün burada qaldım. Mərkəzdə göstərilən dəstək sayəsində protezə öyrəşdim, elə bil uşaq kimi yeriməyi yenidən öyrəndim. Ayağımın ölçüsü yenidən götürülüb və mənə təzə protez hazırlanıb qoyulacaq".

### Ümid, qol-qanad ünvanı...

"Ölçügötürmə və gips otağı"na yollandıqda burada gərgin iş getdiyini gördük. Gipsi yaxmaq, yonmaq üçün adlarını bilmədiyimiz müxtəlif alətlər, protez gipslərin yonulması üçün dəzgahlar sıralanmış geniş emalatxanada texniklər dəqiqliklə pasiyentlərin ayaq, əl ölçülərini götürürlər. Bəziləri isə dəzgahların arxasında gipslə protezlərin ilkin hazırlanma işlərini görürlər.

Divarboyu sıralanmış şkafların rəflərində xeyli sayda gipsdən hazırlanmış bədən ətrafları, ayaqlar düzülüb. Az müddətdən sonra həmin cansız ətrafların hərəsi bir insanın bədəninin parçasına çevriləcək...

2018-ci ildən bu müəssisədə çalışan texnik Rəşad Cəfərov da Vətən müharibəsi iştirakçısı olub. Füzulidən Xocavəndə qədər döyüş yolu keçən Rəşad Cəfərov protezlərin hazırlanması sexində çalışır. Həyata keçirdiyi işin detalları barədə bizi məlumatlandıran texnik söylədi ki, mərkəzə müraciət edən pasiyent öncə həkim müayinəsindən keçir. Sonra isə ölçügötürmə otağına yaxınlaşır: "Burada ölçü götürülür və protez hazırlanır. Protez hazırlanandan sonra pasiyenti qəbul edirik və ona protezi geyindirib, istifadə qaydasını izah edirik".

Texnik Kamran Məmmədli isə dedi ki, burada protezin ilkin mərhələsi hazırlanır. Qəliblərə tökülən gips quruyandan sonra boru vasitəsilə doldurulur. Daha sonra məngənəyə taxılaraq gipslərə protez hazırlanması üçün forma verilir və ilkin mərhələ üçün hazırlanır. Daha sonra isə laminasiya mərhələsi olur".

Biz də laminasiya mərhələsinin həyata keçirildiyi protez və ortez məmulatlarının hazırlanması sexinə baş çəkirik. Burada yüksək texnologiyalı reabilitasiya vasitələrinin, funksional protezlərin hazırlanması işləri aparılır. Sıra ilə düzülmüş stolların üzərində xeyli dəzgahlar quraşdırılıb və onların arxasındakı texniklər lazımi məmulatlar üzərində işləyirlər.

Sexin rəisi Orxan Xancanov məlumat verdi ki, protez və ortezlərin son tamamlama işləri burada görülür. Ölçülər müəyyən olunduqdan, sifariş götürüldükdən sonra bir protezin hazırlanması bir həftəyə qədər çəkir: "Bu sexdə əl və ayaq protezləri, eyni zamanda ortezlər - korsetlər, tutorlar, aparatlar və digər məmulatlar hazırlanır. Protez amputasiya olunmuş ətrafın, ortez isə mövcud ətraf hissələrin korreksiyasıdır. Məsələn, ətraf var, amma funksiyasını yerinə yetirmir. Biz ona aparatla kömək edirik ki, funksiyasını yerinə yetirsin".

"Protezlərin sınaq otağı"nda isə pasiyentə protezlə davranış qaydalarını öyrədirlər. Onu ayağa qaldırmazdan öncə təlimatlar verirlər ki, birinci hansı ayağı atmaq lazımdır, necə davranmaq lazımdır və sair. Bundan sonra isə texniklərin köməyi ilə, necə deyərlər, pasiyent ilk addımlarını atmağa başlayır...

Bəli, bu ünvanda itirdikləri sağlamlıqlarına protez vasitəsilə də olsa qovuşan, yenidən həyatda addımlamağa başlayan müxtəlif yaşlı insanlarla tanış olduq. Gözlərini qırpmadan torpaqlarımızın azadlığı uğrunda sağlamlıqlarından keçən qəhrəman qazilərimizin, digər əlil vətəndaşlarımızın bu müəssisədə qayğı ilə əhatələnmələrinə şahidlik etdik...

Ulu Öndərin Anım günü ərəfəsində "Azərbaycan" qəzetindən reportaj üçün yollandığımız Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzində yaradılan yüksək şəraitlə tanış olduqda, protezlərlə, reabilitasiya vasitələri ilə təmin olunan vətəndaşlarımızla, qazilərimizlə söhbət etdikdə bir daha əmin olduq ki, vaxtilə Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə yaradılan bu mərkəz qarşısına qoyduğu şərəfli missiyanı bu gün də layiqincə davam etdirir.

İllər əvvəl Ulu Öndər Heydər Əliyevin bu mərkəzin kollektivi ilə görüşü zamanı səsləndirdiyi kimi: "Həyatda insanlar adətən sağlam yaşayır, həyat sürürlər. Ancaq cürbəcür hadisələr, təbii fəlakətlər nəticəsində cəmiyyətimizin üzvlərinin bəziləri insana lazım olan ayrı-ayrı fiziki və ruhi xüsusiyyətlərdən məhrum olurlar. Qədim vaxtlardan mənəviyyatın ən yüksək ənənələrindən biri də odur ki, insanlar, cəmiyyət belə şəxslərə, insanlara həmişə qayğı göstərməlidirlər. Bu, Azərbaycan xalqına da xas olan xüsusiyyətdir. Tarixdən bu barədə çoxlu məlumatımız var. Belə ənənələr yaşayır, davam edir".

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*













Jurnalist araşdırması



# İqlim dəyişmələri dağlara necə təsir edir?

**11 Dekabr Beynəlxalq Dağlar Günüdür**

***BMT Baş Assambleyasının təşəbbüsünə əsasən, 2003-cü ildən başlayaraq hər il bu gün- dekabrın 11-i Beynəlxalq Dağlar Günü kimi qeyd olunur. Əsas məqsəd dağ sistemlərinin qlobal miqyaslı əhəmiyyətinin cəmiyyət qarşısında qaldırılmasıdır.***

***2003-cü ildən başlayaraq Dağlar Günü müxtəlif başlıqlar altında qeyd olunmağa başlayıb. Bu tədbirlərdə dağlarla bağlı müxtəlif problemlər, məsələlər ön plana çıxarılıb. Bu il isə Dağlar Günü "Dayanıqlı gələcək üçün dağ həlləri - innovasiya, uyğunlaşma və gənclik" adı altında qeyd olunur.***

Dünya əhalisinin təqribən 15 faizini qoynuna alan dağlarda biomüxtəlifliyin təxminən yarısı yaşayır. Bəşəriyyətin yarısını gündəlik həyat üçün şirin su ilə təmin edən dağlar davamlı kənd təsərrüfatına, təmiz enerji və dərman vasitələrinin təmin edilməsinə kömək edir.

## Dağ sularının keyfiyyəti aşağı düşür

İqlim dəyişmələri daim müşahidə edilsə də, müəyyən proseslər zaman-zaman bir-birini əvəzləyir. Hazırda qlobal istiləşmə fonunda dağlar da müəyyən təsirlərə məruz qalır. Belə ki, dağ buzlaqları əriyərək su ehtiyatlarına təsir edir.

Ümumilikdə, ekologiyaya vurulan ziyanda dağların da istismara məruz qalması, çirklənmə ilə üzləşməsi planet üçün riskləri artırır. Dik yamaclarda yaşayış və ya digər infrastruktur layihələri ilə əlaqədar aparılan işlər, tikinti proseslərinin aparılması torpağın məhv olmasına, eyni zamanda yüksək çirklənməyə səbəb olur. Nəticədə şirin su ehtiyatlarımızın - çayların əsas təminatçısı olan dağ sularının keyfiyyəti aşağı düşür.

Məlumatlara əsasən, inkişaf etməkdə olan ölkələrdə 311 milyondan çox əhali torpaqların proqressiv deqradasiyasına məruz qalan ərazilərdə yaşayır, onlardan 178 milyonu ərzaq təhlükəsizliyinə həssasdır.

Təbii ki, digər ölkədə və bizdən milyonlarla kilometr uzaqlıqda baş verən ekoloji çirklənmələrin "bizə nə aidiyyəti var" sualı çoxlarını düşündürə bilər. Amma unutmayaq ki, Yer hər kəsin məskənidir, hansı məsafədə olmasından asılı olmayaraq, təbiətə vurulan hər bir zərər, ekoloji çirklənmələr planetin bütün sakinlərinə müxtəlif dərəcədə təsir göstərir. Bu baxımdan təbii sərvətlərimiz olan dağlara qayğını hər kəs öz məsuliyyəti hesab etməlidir.

Ərazisində 80-nə yaxın dağ yerləşən respublikamız şimaldan Böyük Qafqaz, qərbdən Kiçik Qafqaz, cənubdan isə Cənub dağları ilə əhatələnib. Azərbaycanın ən yüksək zirvəsi isə Böyük Qafqaz silsiləsində yerləşən, hündürlüyü 4466 metr olan Bazardüzü hesab olunur.

Son illərdə yağıntıların az düşməsi, çaylarda sululuğun azalması, ümumilikdə qlobal istiləşmə fonunda əksər ölkələrdə içməli su ehtiyatlarında azalma müşahidə olunur. Dağlara yağan qar hesabına su ehtiyatının formalaşdığını nəzərə alsaq, onları çirklənmədən, aşınmadan qorumaq vacib faktorlardan biridir.



**Mirnuh İsmayılov:**
**- İqlim dəyişiklikləri ilə əlaqədar dağlarda da ciddi proseslər gedir. Azərbaycan çaylarını qidalandıran dağ buzlaqları tədricən əriyir. Bir sıra ərazilərdə bu buzlaqlar, demək olar ki, yoxdur. Məsələn, 1960-1970-ci illərdə aparılmış coğrafi tədqiqatlar nəticəsində Böyük Qafqazda 6.75 kvadratkilometr buzlaq sahəsi olduğu məlum idi. Kosmik şəkillərə əsasən, buzlaqların sahəsi kəskin surətdə azalıb, hazırda 0,72 kvadratkilometrə düşüb. Bu, təxminən 7-8 sot sahə deməkdir.**

Ölkəmizdə hər il yaz aylarında yüksək dağlıq ərazilərdə 4 istiqamətdə qarölçmə işləri nəticəsində yaz-yay gursululuq dövründə çayların axımının proqnozlaşdırılması məqsədilə Böyük və Kiçik Qafqazın çay hövzələrində qar ehtiyatları hesablanır. Buna əsasən su ehtiyatlarımızın həcmi müəyyənləşdirilir.

## İnsan həyatı dağlardan çox asılıdır

Dağların Yerin ayrılmaz hissəsi olduğunu qeyd edən Elm və Təhsil Nazirliyinin Həsən Əliyev adına Coğrafiya İnstitutunun Landşaftşünaslıq və landşaft planlaşdırılması şöbəsinin müdiri, coğrafiya üzrə fəlsəfə doktoru Mirnuh İsmayılov bildirir ki, dağlar təbiətin formalaşmasında, əmələ gəlməsində, insan həyatında çox böyük əhəmiyyəti olan təbii sistemdir: "Dağlara ayrıca sistem kimi baxa bilərik. Dağların əksi düzənliklərdir. Düzənliklərdə olan həyat da dağlara bağlıdır. Dağlar Yer qabığında olan iri litosfer tavalarının bir-biri ilə toqquşması, kəsişməsi nəticəsində əmələ gəlir. Azərbaycan ərazisindəki Böyük, Kiçik Qafqaz, Cənub dağları Avrasiya və Qondvana litosfer tavalarının bir-biri ilə kəsişməsindən meydana gəlib. Bu toqquşma baş verməmişdən əvvəl dağların yerində nəhəng Tetis okeanı mövcud olub. Üfüqi yatmış layların qırışması ilə yüksəlir və nəhayət, elə yüksək həddə çatır ki, ondan sonra qalxa bilmir. Sonra xarici qüvvələrin təsiri ilə dağılmağa başlayır və düzənliyə çevrilir. Məsələn, indiki Şərqi Avropa düzənliyi, Qərbi Sibir ovalığı, Turan ovalığının yerində vaxtilə böyük dağlar olub".

M.İsmayılov qeyd edir ki, dünyada dağların yerləşməsində ümumi qanunauyğunluq var. Onlar adətən meridianal istiqamətdə, şimaldan cənuba doğru uzanır. Dünya okeanının dibində də belə hadisələr baş verir.

Şöbə müdiri vurğulayır ki, zəlzələlərin ən çox yükünü götürən də dağlardır: "Yeni Yerin daxilindən gələn güclü təkanları dağlar özündə toplayır. Digər tərəfdən dağlar iqlimə, torpağa, bitki örtüyünə, təbiətin bütün ünsürlərinə təsir göstərir. Dağlarda təbiət sərt olduğundan insanlar ən çox düzənliklərdə yaşayırlar. Dağların sərtliyinə hər insan tab gətirə bilmir. Digər tərəfdən insanın sağlamlığına, psixologiyasına, adət-ənənələrə də təsirsiz ötüşmür. Ümumilikdə insan həyatı dağlardan çox asılıdır. Dağlar təbiətimizdə olmasaydı, soyuq iqlim olmazdı".

"Azərbaycan ərazisini bir anlıq düzənlik kimi təsəvvür etsək, onda təbiətdə bu zənginlik olmazdı" deyən alim bildirir ki, dağlar da bir-birindən fərqlənirlər. Məsələn, Kiçik Qafqazda vaxtilə güclü vulkanlar olub, dağların səthi vulkanik süxurlarla zəngindir. Orada sönmüş vulkanların kraterləri hələ də qalır. Həmin kraterlərin bəzilərinə su dolması ilə göllər əmələ gəlib. Kiçik Qafqazda Böyük və Kiçik Alagöl, Qara göl - bunlar hamısı möhtəşəm təbiət abidələridir. Böyük Qafqazda isə çökmə süxurlar üstünlük təşkil edir.

M.İsmayılov deyir ki, dağlar faydalı qazıntılarına görə də bir-birindən fərqlənirlər. Məsələn, Kiçik Qafqaz ən çox metallik mənşəli faydalı qazıntılarla, yəni qızıl, dəmir filizi, mis, qurğuşun və sairə ilə zəngindir. Böyük Qafqazda isə tikinti materialları, neft yataqları daha çoxdur. "Dağların təsərrüfata da böyük təsiri var. Dağlıq ərazilərdə əsasən heyvandarlıq inkişaf edir. Əkinçilik üçün o qədər yararlı deyil, çünki yamacı şumlayanda, əkəndə eroziyaya uğrayır, torpaq uçulub dağılır", - deyə o əlavə edir.

## Azərbaycan çaylarını qidalandıran dağ buzlaqları sürətlə əriyir

İqlim dəyişikliklərinin dağlara təsirindən danışan alim söyləyir ki, bu istiqamətdə də ciddi proseslər gedir. Azərbaycan çaylarını qidalandıran dağ buzlaqları tədricən əriyir. Bir sıra ərazilərdə buzlaqlar, demək olar ki, yoxdur. Əvvəllər Kiçik Qafqazda Nival qurşağını ayıra bilirdik, indi isə mümkün deyil. Böyük Qafqazda da buzlaqlar sürətlə əriyir. Məsələn, 1960-1970-ci illərdə aparılmış coğrafi tədqiqatlar nəticəsində Böyük Qafqazda 6,75 kvadratkilometr buzlaq sahəsi olduğunu bilirdik. Kosmik şəkillərə əsasən, buzlaqların sahəsi kəskin surətdə azalıb, hazırda 0,72 kvadratkilometrə düşüb. Bu, təxminən 7-8 sot sahə deməkdir.

Şöbə müdiri qeyd edir ki, buzlaqların ərimə prosesi iqlim dəyişmələri ilə əlaqədar davam edir: "Dağ buzlaqlarının yay aylarında çayların qidalanmasında əvəzsiz rolu var. Qudyalçay, Qaraçay, Qusarçay, Cənub yamacda başlayan Dəmiraparançay dağ buzlaqları ilə qidalanırlar. Əgər onlar buzlaqlardan qidalana bilməsə, gələcəkdə həmin çaylarda sululuq kəskin azala bilər. Çaylarda suyun azalması düzənlik ərazilərdə təsərrüfatda sudan istifadədə çox ciddi problemlərə gətirib çıxarar".

M.İsmayılov vurğulayır ki, dağlarda gedən proseslər - eroziya, buzlaqların əriməsi, sürüşmələr nəticəsində düzənlik ərazilərin təbiəti ciddi surətdə dəyişir. Dağlıq ərazilərdə ekosistem çox həssasdır. Burada baş verən antropogen təsirlər - yolların çəkilməsi, tikinti proseslərinə həssas yanaşmaq lazımdır, çünki oradakı landşaftlar kövrəkdir.

Alim yekunda qeyd edir ki, hazırda Qarabağ və Şərqi Zəngəzurda böyük layihələr həyata keçirilir. Həmin ərazilərin dağlıq olduğunu nəzərə alaraq burada layihələrin əsaslandırılması elə aparılmalıdır ki, gələcəkdə dağlar ekoloji cəhətdən məhv olmasın.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Revanşist keşiş yenidən "dirçəlir"

## Baqrat Qalstanyan Ermənistanda mümkün hakimiyyət dəyişikliyindən danışıb

Revanşistlərin Paşinyan hökuməti əleyhinə yenidən kütləvi etiraz aksiyalarına başlayacaqları gözlənilir.



Diqqət ediləsi məqam isə aksiyalara yenidən din adamlarının başçılıq etməsidir. Xalq arasında nüfuzunu itirən keçmiş hərbi xunta təmsilçilərinin din xadimlərindən vasitə kimi istifadə etmələri açıq-aydın ortadadır.

"Vətən naminə Tavuş" Hərəkatının başçısı, keşiş Baqrat Qalstanyan Ermənistanda mümkün hakimiyyət dəyişikliyindən danışıb. Keşiş belə bir planlarının olduğunu gizlətməyib.

O, Ermənistan silahlı qüvvələrinin baş qərargah rəisi Edvard Asryana müraciət edərək onu açıq görüşə dəvət edib. Deyib ki, görüş zamanı Asryana sərhəddə baş verənlərlə bağlı ətraflı məlumat verəcək. O vurğulayıb ki, baş qərargah rəisinin çağırışa cavab verməməsi, onu sadəcə olaraq, yalnız vəzifə və pulun maraqlandırdığını göstərəcək.

Revanşist keşiş ötən günlərdə İrəvandakı "Respublika" meydanında "İradə" təşəbbüsünün oturaq aksiyasında iştirak edib. Qeyd edək ki, bu, Qarabağdakı keçmiş separatçı rejimin həbs olunmuş və hazırda barələrində ədalət mühakiməsinin çıxaracağı hökmü gözləyən "rəhbərlərinin" qaytarılmasına nail olmaq məqsədilə yaradılıb. Aksiyada çıxış edən keşiş Azərbaycanı düşmən adlandırıb. Deyib ki, "soydaşlarımızın hələ də düşmən həbsxanalarında olması sadəcə olaraq qəbuledilməzdir".

Bununla belə o, N.Paşinyanın başçılıq etdiyi ölkədə yaşayanların hər birinin həbsdə olduğunu sözlərinə əlavə edib: "Bu gün hər birimiz cəzaçəkmə müəssisəsindəyik, həbsdəyik və bunun ən yaxşı təsdiqi telefon söhbətidir. Bu o deməkdir ki, biz həbsdə yaşayırıq. Buna görə də həbsxanadan çıxıb azadlığımıza qovuşmalıyıq. Məndən tez-tez soruşurlar ki, bütün bunlar necə və nə vaxt bitəcək? Sizi inandırıram ki, bu, bizim çox vaxtımızı aparmayacaq. Biz bu yolla gedirik və bu yolda məqsəd qələbəmiz olmalıdır. Paşinyan iqtidarının yenilməz olmasına dair əfsanəni unudun".

Qeyd edək ki, Qalstanyan Paşinyan hakimiyyətinə qarşı bundan əvvəlki etirazlarda nəinki təhlükə törədə bildi, hətta ciddi həyəcan yaşatmağı belə bacarmadı. Az qala ölkəni qarış-qarış gəzsə də, ətrafına kifayət qədər adam toplaya bilmədi və axırda da müəyyən vaxtadək siyasi fasiləyə yollanmaq qərarını aldı.

Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanmasının aktual olduğu bir dönəmdə növbəti dəfə hərbi xuntanın və ona bənzər digər araqızışdıranların çevriliş etmək xəyalları erməni xalqını növbəti dəfə fəlakətə sürükləyir. Qeyd edək ki, Azərbaycanla müharibədəki məğlubiyyət Ermənistanı elə bir uçuruma yuvarladıb ki, onun xilası mümkün deyil. Bütün bunlar, o cümlədən Koçaryan və Sarkisyan kimi müharibə cinayətkarlarının hakimiyyətləri dövründən yığılıb qalmış ağır problemlər hazırkı hakimiyyəti çətin vəziyyətdə qoyub. Əslində, revanşist qüvvələr çox yaxşı başa düşürlər ki, böyük siyasətə qayıtmaq üçün heç bir şansları yoxdur - xalq hələ onların hakimiyyət dövrünü unutmayıb.

Ermənistanın keçmiş xarici işlər naziri Vardan Oskanyan da ölkədəki daxili siyasi vəziyyət barədə danışıb. Xatırladıb ki, ölkədə növbəti parlament seçkiləri 2026-cı ildə keçirilməlidir, amma 2025-ci ildə növbədənkənar seçkilərə də gedilə bilər. Eks-nazir onu da bildirib ki, Ermənistan müxalifəti növbədənkənar seçkilərə hazır deyil. O, müxalifəti növbədənkənar seçkilərə hazırlığa başlamağa çağırıb.

Oskanyan etiraf edib ki, Ermənistanda seçkilər yolu ilə iqtidar dəyişikliyinə nail olmaq həqiqətən çətindir. "Ermənistanın növbəti hökumətinin kim olacağı artıq müəyyən edilib və biz bunu 2018-ci ildə rəsmiləşdirmişik", - deyə pessimistcəsinə qeyd edən Vardan Oskanyan "müxalifət iş görməlidir" söyləyib.

Görünən odur ki, Ermənistanda daxili siyasi vəziyyət tədricən mürəkkəbləşməyə doğru gedir. Bununla da ölkə sonu görünməyən siyasi böhrana qədəm qoyur.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# Tütünün fəsadları

## Siqareti tərgitdikdən sonra zədələnmiş orqanların bərpası üçün 25 il lazımdır

**Sağlamlığa olduqca böyük zərər verən siqaret dünya miqyasında qeyri-infeksion xəstəliklərin və bu xəstəliklərlə əlaqəli ölümlərin əsas səbəbidir.**



Dünyada milyonlarla insan tütündən istifadə nəticəsində ya sağlamlığından, ya da həyatından olur. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına görə, hər il 8 milyondan çox insan tütün tüstüsünün təsiri nəticəsində yaranan xəstəliklərdən həyatını itirir. Əgər tütün sənayesi bu şəkildə fəaliyyət göstərməyə davam edərsə, onun qurbanları 2100-cü ilə qədər 572 milyonadək arta bilər.

Tütün tüstüsünün tərkibində 7000-dək kimyəvi maddə mövcuddur. Bunlardan 250-si xüsusi təhlükəli zəhərli, 70-i isə xərçəng xəstəliyi yaradan maddələr hesab edilir. Son hesablamalara görə, dünyada 3 milyona yaxın insan ağciyər xərçəngindən əziyyət çəkir. Bu isə olduqca yüksək rəqəmdir. Ən pisi isə odur ki, siqaret tüstüsündən tütündən istifadə etməyənlər də ciddi şəkildə təsirlənir, nikotin və buna bənzər kanserogen maddələrə məruz qalırlar.

## Ölümdən sonra da sümüklərdə əsrlər boyu qalıcı izlər buraxır

Tədqiqatçıların apardığı araşdırmalar nəticəsində məlum olub ki, tütün siqaret çəkənlərin sümüklərində təkcə ömür boyu deyil, ölümündən sonra da əsrlər boyu qalıcı izlər buraxır. İngiltərənin Lester Universitetinin tədqiqatçıları Britaniyada XII-XIX əsrlərdə dəfn edilmiş insan qalıqlarını araşdıraraq, tütünün sümüklərə dərin təsirini və sınıq riskinin artması kimi şərtlərlə əlaqəsini müəyyən ediblər. Tədqiqat tütünün Qərbi Avropaya 500 il əvvəl gəlməsinin insanların skelet quruluşunda necə əhəmiyyətli dəyişikliklərə səbəb olduğunu üzə çıxarıb.

Skeletin tütün çəkənə aid olub-olmadığını müəyyənləşdirmək üçün arxeoloqlar qəlyan istifadəsi ilə bağlı ləkələri və ya aşınma əlamətlərini aşkarlamaqdan ötrü adətən dişlərdə izlər axtarırlar. Bununla belə bu üsul tez-tez dişlərin əskik olduğu və ya qalmadığı hallarda disfunksional olur.

Lester Universitetinin mütəxəssisləri məlum tütün istifadəçilərinin və naməlum siqaret tarixçəsi olanların sümüklərə güc verən sıx xarici təbəqəsi olan 323 kortikal sümüyünü araşdırıblar. Araşdırmanın həmmüəlliflərindən biri olan doktor Sara İnskip bildirib ki, tütün çəkənləri çəkməyənlərdən fərqləndirən 45 fərqli molekulyar xüsusiyyət var: "Nəticələr tütündən istifadənin skelet quruluşuna təsir etdiyini göstərir. Davam edən tədqiqatımız bu fərqlərin necə yarandığını anlamaq məqsədi daşıyır ki, bu da tütündən istifadənin bəzi dayaq-hərəkət sistemi və diş xəstəlikləri üçün nə qədər risk yaratdığı barədə biliklərimizə təsir edə bilər. Siqaretin yumşaq toxumalara və orqanlara zərərli təsiri (məsələn, ağciyər, sidik kisəsi və qırtlaq xərçəngi, həmçinin insult və koronar arteriya xəstəliyi riskini artırır) geniş şəkildə qeyd olunsa da, onun sümüklərə təsiri az öyrənilib. Siqaret çəkmək aşağı sümük sıxlığı, sınıq riskinin artması və periodontit kimi sümüklə əlaqəli risklər doğurur. Bu tədqiqat təkcə siqaretin tarixən yayılmasına işıq salmır, həm də tütünün insan sağlamlığına geniş və davamlı təsirini nümayiş etdirir, həmçinin geniş yayılmış bu vərdişin skeletə təsiri haqqında dəyərli fikirləri ortaya çıxarır".

## Tədqiqatın nəticələri qorxuncdur

Siqaret çəkən insanın ağciyərləri və damarları heç vaxt bunu çəkməyən biri kimi ola bilərmi? Bu sualın cavabını tapmaq üçün Cənubi Koreya tədqiqatçıları araşdırma aparıblar. Amerika Tibb Assosiasiyası tərəfindən nəşr olunan "JAMA" jurnalında dərc edilən araşdırmanın nəticələrinə əsasən, 8 ildən çox siqaret çəkib sonradan tərgidən insanlar hələ də siqaret çəkənlərlə eyni infarkt və ya insult riskinə sahibdirlər.

Tədqiqat çərçivəsində mütəxəssislər 100 mindən çox keçmiş siqaret çəkənin və 4 milyondan çox heç vaxt tütün istifadə etməyənin sağlamlıq məlumatlarını araşdırıblar. Keçmiş siqaret çəkənlər siqareti buraxdıqdan on il sonra izlənilib, siqaret çəkməyə başlayanda neçə yaşında olduqları, gündə neçə dəfə siqaret çəkdikləri və neçə yaşında onu tərgitdikləri kimi məlumatlar qeydə alınıb. Araşdırma zamanı məlum olub ki, bir insanın siqareti tərgitdikdən sonra ürək xəstəliyi riskinin orta səviyyəyə enməsi üçün 25 il vaxt lazımdır.

Bu günə qədər aparılan onlarca araşdırma siqaretin ürək çatışmazlığı ilə əlaqəli olduğunu göstərir. Ürək əzələsi qanı lazım olduğu kimi bədənə pompalaya bilmədikdə, adətən çox zəif və ya sərt olduğu üçün bədənin orqanlarının və toxumalarının normal işləməsi üçün lazım olan oksigen və həyati vacib qidalarla təmin edə bilmir. Tütünün tərkibində asılılıq yaradan toksin olan nikotin ürək döyüntüsünün və qan təzyiqinin təhlükəli artması ilə sıx bağlıdır.

## Müsbət dəyişiklik dərhal başlayır

Mütəxəssislər siqaretdən imtina etdikdən sonra orqanizmdə müsbət dəyişikliklərin dərhal başladığını qeyd edirlər. Tütün məmulatlarından istifadəni dayandırdıqdan 1 saat sonra qanda stimullaşdırıcı maddələrin səviyyəsi azalmağa başlayır, buna uyğun olaraq qan təzyiqi və ürək döyüntüləri normala qayıdır. 12 saat sonra qanda karbonmonoksit səviyyəsi azalır, oksigen səviyyəsi artır və ağciyər özünü təmizləməyə, 1 gündən sonra isə infarkt riski azalmağa başlayır. 3 gündən sonra qanda nikotinin səviyyəsinin azalması səbəbindən çəkilmə simptomları yaranır. Baş ağrısı, gərginlik və əsəbilik siqaret çəkmək istəyi ilə birləşir. Ətrafdakı insanların dəstəyi və güclü iradə ilə bu günlərin öhdəsindən asanlıqla gəlmək olur.

Siqareti tərgitdikdən 3 ay sonra ürəklə yanaşı, digər damarlarda da sağalma prosesi gedir. 1 ildən sonra infarkt, 5 ildən sonra insult və iflic riskinin azalması müşahidə edilir. Artıq 15 ildən sonra infarkt keçirmə riski siqaret çəkməyənlərə yaxınlaşır, xərçəngə tutulma riskində azalma tendensiyası davam edir. Nəhayət, 25 ildən sonra siqaretlə əlaqəli xəstəliklərdən ölüm riski azalır və siqaret çəkməyənlərinkinə yaxınlaşır.

Tütün məhsullarından imtina etmək üçün mütəxəssislər ilk növbədə özünü emosional və zehni olaraq hazırlamağın vacibliyini vurğulayırlar. Daha sonra istifadə edilən siqaret və alışqanları atıb, bir müddət siqaret çəkilən sosial mühitlərdən uzaq durmaq lazımdır. Siqareti tərgitmə dönəmində hobbilərlə məşğul olmaq, gəzintilərə çıxmaq, idman etmək və bol su içmək beyindəki dofamin səviyyəsini artıraraq siqaret çəkmə istəyini azaldır. Bu dövr çətin hesab edilsə də, nəticəsi möhtəşəmdir. Unudulmamalıdır ki, insanlar siqaret asılılığından qurtulmaqla sağlamlıqlarına ən dəyərli töhfəni vermiş olurlar.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# GDU Təhsilin İnkişafı Fondu ilə əlaqələrini genişləndirir



**Təhsilin İnkişafı Fondunun (TİF) rəhbərliyi və Kapital Bankın nümayəndələri Gəncə Dövlət Universitetində (GDU) olmuşlar.**

Görüşdə universitetlə fond arasında gələcəkdə əməkdaşlıq əlaqələrinin daha da genişləndirilməsi, o cümlədən yaxın zamanlar əməkdaşlıq çərçivəsində GDU-da elektron kitabxana və Davamlı İnkişaf Mərkəzinin yaradılacağı məsələləri müzakirə edilmişdir.

Universitetin rektoru Yusif Yusibov çıxış edərək TİF-in gördüyü işləri yüksək qiymətləndirmiş, fond ilə əməkdaşlığın GDU üçün faydalı olacağına əminliyini ifadə etmişdir. TİF idarə heyətinin sədri Elnur Nəsibov həyata keçirdikləri layihələr haqqında məlumat verərək diqqətə çatdırmışdır ki, fondun əsas missiyası Azərbaycanda təhsil sisteminin inkişafına yönəlmiş proqram və layihələri dəstəkləmək, dövlət təhsil müəssisələrinin maddi-texniki bazasının müasir tələblərə uyğunlaşdırılması yolu ilə təhsilin dayanıqlı inkişafına nail olmaqdır.

Görüşdə "TələbəPlus" layihələrinin önəmindən də bəhs olunmuşdur. Bildirilmişdir ki, "TələbəPlus" layihəsi çərçivəsində müxtəlif alış-veriş və iaşə obyektlərində tələbələrin güzəştlər əldə etməsi üçün TİF öz tərəfdaşları ilə birlikdə 250-dən çox şirkətlə razılaşma əldə edib. Bundan əlavə, Mədəniyyət Nazirliyi ilə əldə olunan ilkin razılaşmaya əsasən, muzeylər, qalereyalar və sərgi salonlarında tələbələr üçün xüsusi güzəştlər nəzərdə tutulur.

Tədbir zamanı Təhsilin İnkişafı Fondunun fəaliyyətinə dair videoçarx nümayiş olunmuş, GDU ilə TİF arasında "TələbəPlus" layihəsi çərçivəsində əməkdaşlıq müqaviləsi imzalanmışdır.

# III Gəncə Kitab Sərgisinin açılışı olub



**Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasının Urban mərkəzində III Gəncə Kitab Sərgisinin açılışı olub.**

Yazıçılar, naşirlər, ziyalılar, tələbə və məktəblilərin də iştirak etdikləri açılış mərasimində çıxış edənlər bu cür tədbirlərin təşkilinin böyük önəm daşıdığını bildiriblər. Qeyd olunub ki, Azərbaycan ədəbiyyatının, şərq fəlsəfəsinin beşiyi sayılan Gəncədə kitaba maraq hər zaman yüksək olub.

Rəsmi hissədən sonra sərgi çərçivəsində ilk kitab təqdimatı keçirilib. Gəncə Şəhər İcra Hakimiyyətinin Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri, ehtiyatda olan mayor Mahir Hüseynovun "Qərar ver, inkişaf et" adlı kitabının təqdimatında qeyd olunub ki, bu, müəllifin sayca ikinci kitabıdır. Bundan əvvəl onun "Ağıllı qisas" romanı Azərbaycan və ingilis dillərində işıq üzü görüb. Görüş zamanı müəllif oxucuları maraqlandıran sualları da cavablandırıb.

Qeyd edək ki, bu sərgi son 4 ildə ölkədə reallaşan 17-ci belə tədbirdir. Sərgidə 25-ə yaxın tanınmış nəşriyyat iştirak edib. Sərgi çərçivəsində panellər, təqdimatlar, imza günləri, şeir gecələri, uşaqlar üçün nağıl saatları və musiqili proqramın təşkili nəzərdə tutulub.

# Naftalanın məhsulları Türkiyədə keçirilən Halal Expo sərgisində nümayiş olunub

**Son illər Naftalanın müalicə-turizm şəhəri kimi şöhrəti daha da artmışdır. Buna səbəb şəhərin sanatoriyalarında aparılan genişmiqyaslı yenidənqurma işləri və əlavə müasir müalicə mərkəzlərinin tikilib istifadəyə verilməsidir.**

Başqa bir səbəbsə şəhərdə fəaliyyət göstərən sağlamlıq ocaqlarının apardıqları təbliğat işləridir. Elə Naftalan nümayəndə heyətinin qardaş Türkiyənin "İstanbul Forum Mərkəzi"ndə dünyanın əksər ölkələrindən sahibkarların və aparıcı şirkətlərin bir araya gəldiyi ən böyük Halal Expo və Sağlamlıq Turizmi sərgisində iştirak etməsi buna misal ola bilər. 100 ölkədən 500 nümayəndənin iştirakı ilə keçirilən sərgidə Naftalan məhsullarının nümayiş etdirilməsi sərgi iştirakçılarında böyük maraq doğurmuşdur.

Naftalan Şəhər İcra Hakimiyyətinin sektor müdiri Ülfət Əliyev və Naftalan Müalicə və Sağlamlıq Mərkəzinin direktoru İlqar Hüseynovun iştirak etdikləri sərgidə Naftalanın təbliği ilə bağlı məhsullar nümayiş olunmuş, həmçinin ziyarətçilərə beynəlxalq turizm mərkəzi olan Naftalanın nefti barədə ətraflı məlumat verilmişdir.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

# Bu, tamam fərqli festival idi



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Dövlət Turizm Agentliyinin Lənkəran Regional İdarəsinin birgə təşkilatçılığı ilə Qızılağac Milli Parkında Flaminqo Festivalı keçirilib.**

Festivalın əsas məqsədi Cənub bölgəsinin zəngin flora və faunasının təbliğ edilməsi, milli parkların turizm potensialının tanıdılması və yeni ekoturizm məhsulunun yaradılması idi. 2-ci dəfə keçirilən və ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov, Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov, ictimaiyyətin nümayəndələri, yerli və xarici turistlərin iştirak etdikləri festival zamanı qonaqlar Azərbaycanın qorunan ərazilər şəbəkəsini, iqlim dəyişməsinin biomüxtəlifliyə təsiri və bioloji müxtəlifliyin hazırki vəziyyətini əks etdirən sərgi ilə tanış olublar. Eyni zamanda qonaqlara vəhşi təbiətdə sağ qalmaq yolları haqqında məlumat verilib, yerli sənətkarların və gənclərin festivalın mövzusuna uyğun hazırladıqları əl işləri, yerli mətbəx nümunələri göstərilib. Qonaqlar həmçinin qayıqlarla və safari maşınları ilə gəzintiyə çıxıb, körfəz ərazisində quş sürüsünü müşahidə ediblər. Festival çərçivəsində Qızılağac Milli Parkının körfəz ərazisinə 200 min körpə balıq buraxılıb.

Tədbir Bakıdan dəvət olunan peşəkar sənət ustalarının və rəqs kollektivinin iştirakı ilə maraqlı konsert və gənclər üçün təşkil edilən əyləncəli proqramlarla başa çatıb.

# Cəlilabadda "Səyyar gənclər xidməti" layihəsi çərçivəsində tədbir keçirilib

**Cəlilabad Peşə Liseyində Gənclər Fondunun "Səyyar gənclər xidməti" layihəsi çərçivəsində tədbir keçirilib.**

Çıxış edənlər belə tədbirlərin gənclərin dünyagörüşünün inkişafında, onların müxtəlif bilik və bacarıqlara yiyələnməsində böyük əhəmiyyət daşıdığını qeyd ediblər. Bildirilib ki, "Səyyar gənclər xidməti" layihəsi müxtəlif rayonlarda gənclərin gələcək həyata hazırlanması, onların yetkin və savadlı bir Azərbaycan gənci olaraq yetişməsində böyük rol oynayır.

Tədbir boyu ekologiya, vətənpərvərlik, sahibkarlıq, karyera və rəqəmsal alətlərdən istifadə mövzularında peşəkar şəxslərlə, eləcə də bir sıra tərəfdaş qurumların nümayəndələri ilə görüşlər keçirilib, gənclərin "Yaşıl dünya naminə həmrəylik ili"nə həsr edilmiş əl işləri nümayiş olunub. Gənclər tədbir zamanı müxtəlif bilik yarışları və əyləncəli oyunlarda bacarıqlarını da sınayıblar.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*


## OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**“AZƏRBAYCAN”** *qəzetinə*

*2024-cü il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *“Azərpoçt” MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *“Azərmətbuatyayımı” ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *“Qaya” firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *“Region Press” MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *“Səma-M” MMC* | *(012) 594-09-59* |
| *“Ziya” LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *“Pressinform” MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *“City press” MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Avropa "bataqlığa" düşüb

## Köhnə qitədə iqtisadi və enerji problemi getdikcə daha da dərinləşir

Avropada iqtisadi vəziyyət getdikcə narahatlıq doğurur. Bir vaxtlar rifah və əməkdaşlığın simvolu olan Avropa İttifaqı indi ciddi iqtisadi və enerji problemləri ilə üzləşib və zəifləyib. Qitənin iki ənənəvi sütunu olan Fransa və Almaniya bütün blok üçün ciddi nəticələrə səbəb ola biləcək çətinliklər yaşayır.



Hələ ilin əvvəlində ekspertlər bildirirdilər ki, Avropa Almaniyada pərakəndə satışların və real əmək haqqının azalması səbəbindən ümumi yoxsullaşma ilə müşahidə olunan görünməmiş inflyasiya şoku ilə iflic olub. İnflyasiya bir qədər azalsa da, iqtisadi sabitlik və qiymətlərin bərpası arasındakı çıxılmaz vəziyyət maliyyə-kredit və sosial siyasətə zərbə vurub.

10 ay sonra aparılan müşahidə aydın şəkildə göstərir ki, hazırda Avropa "bataqlığ"a düşüb. Noyabr ayında Avrozonada iqtisadi fəallıq kəskin şəkildə azalıb, xidmət sektoru isə daralma tendensiyasında istehsala qoşulub.

Çox vaxt Avropa Birliyinin güc mərkəzi hesab edilən Almaniya iqtisadiyyatı yavaşlamanın narahatedici əlamətlərini nümayiş etdirir. 2024-cü ilin üçüncü rübündə bu ölkədə sənaye istehsalı 2,6 faiz azalıb və bu, Avropada ən kəskin azalmalardan biridir.

Almaniyanın sənaye sektoru artıq 2 il 4 aydır ki, tənəzzüldədir. "ZEW" indeksi ilə ölçülən investor proqnozları 2020-ci il böhranından bəri ən aşağı səviyyəyə düşüb. "ThyssenKrupp" sənaye konserni investisiya və sifarişlərin azalması səbəbindən kütləvi sənayesizləşdirmə barədə xəbərdarlıq edir. "VDMA" assosiasiyası bildirir ki, Almaniyada maşın və avadanlıq istehsalçılarından gələn sifarişlər oktyabr ayında yenidən azalmağa başlayıb, bu da müştərilərin sərmayə yatırmaqda davamlı istəksizliyini göstərir. İş yerlərinin itirilməsi və tənəzzül riski ilə bağlı artan narahatlıqlar səbəbindən istehlakçı inamı da aşağı düşüb. Dekabr ayı üçün GfK istehlakçı əhvali-ruhiyyəsi indeksi 4,9 bənd azalaraq -23,3-ə düşüb ki, bu da proqnozlardan (-19) xeyli aşağıdır. Noyabrda hökumətin borclanması ilə bağlı fikir ayrılıqlarından sonra hökumət koalisiyasının dağılması vəziyyəti daha da çətinləşdirib.

Bundan əlavə, Almaniya iqtisadiyyatının sütunu olan strateji avtomobil sektoru əsasən enerji qiymətlərinin artması səbəbindən istehsal xərclərinin kəskin artması ilə üzləşib. "Volkswagen"in mənfəəti 64 faiz, Çində satışları isə 12 faiz azalıb. "Mercedes" də böyük itkilərə məruz qalıb və mənfəəti 54 faiz azalıb.





Fransa da böhrandan xilas ola bilməyib. 2024-cü il üçün artım proqnozları Avropa orta səviyyəsindən xeyli aşağı olan cüzi 0,4 faizə qədər yenidən işlənib. Hazırda dövlət borcu ÜDM-in 112 faizinə bərabərdir, Fransa sənayesi isə struktur rəqabətqabiliyyəti kəsirindən əziyyət çəkməkdə davam edir. Onsuz da yüksək olan istehsal xərcləri enerji böhranı nəticəsində daha da artıb.

Sosial sahədə də vəziyyət gərgin olaraq qalır. Yüksələn yaşayış dəyəri və əsas mallar üzrə davamlı inflyasiya geniş yayılmış narazılığı artırır. İctimai hərəkatlar çoxalaraq hökumətin struktur islahatlarını həyata keçirməsini çətinləşdirir. Məhz bu gərginliklər Fransada Mişel Barnye hökumətinin süqutuna səbəb olub.

Ölkədəki siyasi qeyri-sabitlik daxili istiqraz bazarına əlavə təzyiq göstərir. İstiqraz investorları artan kəsir və zəif iqtisadi göstəricilərlə üzləşən Fransanı diqqətlə izləyirlər. Fransa və Almaniyanın 10 illik istiqraz gəlirləri arasındakı fərq 2012-ci ildən bəri görünməyən bir səviyyəyə - 87 bazis bəndinə çatıb.

Fransa böhranı qitənin çox kövrək vəziyyətdə olduğu bir vaxtda Avropanın sabitliyinə əlavə təhlükə yaradır.

Avropanın hazırkı vəziyyəti bir neçə amillə izah edilir. Şübhəsiz ki, əsas səbəb enerji böhranıdır. Rusiya qaz idxalından sürətlə uzaqlaşma və bərpaolunan enerji mənbələrinə keçid Avropa iqtisadiyyatında sabitliyi pozub. Bu, nəinki enerji qiymətlərinin kəskin qalxmasına səbəb olub, həm də bütün sənaye sektorlarının işini pozub.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

## ALLAH RƏHMƏT ELƏSİN!

Oruc Zalov Əsgər və Qüdrət Abdullayev qardaşlarına ataları

**HƏSƏN ABDULLAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Xətai rayonu 28 nömrəli şəhər poliklinikasının baş həkimi Təranə Məmmədova və poliklinikanın kollektivi "Bakı Baş Səhiyyə Mərkəzi" Publik Hüquqi Şəxsin direktoru Elçin Əmirova anası

**ÇİMNAZ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Mirhaşim Calalov ailəsi ilə birlikdə Vüqar Əmirova anası

**ÇİMNAZ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Binəqədi rayonu 25 nömrəli şəhər poliklinikasının baş həkimi Xatirə Xəlilova və poliklinikanın kollektivi "Bakı Baş Səhiyyə Mərkəzi" PHŞ-nin direktoru Elçin Əmirova anası

**ÇİMNAZ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Rüstəm Rüstəmov, Sədrəddin Atakişizadə, Eldar Əliyev, Gülalı Eminəliyev, Rafiq və Lazım Hüseynovlar Azərbaycan Respublikası Maliyyə Nazirliyinin aparatının İnsan resurslarının idarə edilməsi şöbəsinin müdiri Elman Hüseynova anası

**RAYA CƏLAL QIZI YUSİFOVANIN**

Tovuz rayonunda vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, “Azərbaycan” nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan Nəşriyyatı” MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 4233
Sifariş 2845

Qiyməti 60 qəpik